Xalqın qəzeti!

# Xalq qəzeti

№ 259 (30953) 9 dekabr 2025-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Azərbaycan – Slovakiya münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib

## Azərbaycan Prezidenti İlham Əliyevin Slovakiyaya rəsmi səfəri

## Milan Ştefanik adına Beynəlxalq Aeroportda qarşılanma



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 8-də Slovakiya Respublikasına rəsmi səfərə gəlib.**

Bratislava şəhərinin Milan Ştefanik adına Beynəlxalq Aeroportunda Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Dövlətimizin başçısını Slovakiya Respublikası Prezidenti Aparatının rəhbəri Peter Vodraşka və digər rəsmi şəxslər qarşıladılar.

## Avropa İttifaqında güc balansı dəyişir

*Miqrasiya siyasəti yenidən qurulur*



Avropa İttifaqında son illərdə müşahidə olunan siyasi dinamika tədricən güc balansını dəyişir. Artan sosial narazılıqlar, ideoloji qütbləşmə və miqrasiyanın yaratdığı davamlı təzyiq Avropa Parlamentinin özündə də açıq şəkildə hiss olunur. Parlament komitəsində miqrasiya qanunvericiliyinin sərtləşdirilməsinə dair iki yeni layihənin qəbul edilməsi bu tendensiyanın ən bariz göstəricisidir. Hadisə Avropa siyasətində ənənəvi mərkəz koalisiyasının əvvəlki kimi etibarlı olmadığını və siyasi xəritənin sağa doğru "əyildiyini" bir daha təsdiqlədi. Maraqlı məqamlardan biri də odur ki, sənədlər qəbul olunarkən Avropa Xalq Partiyasının (EPP) illərdir liberal və sosial-demokratlarla qurduğu koalisiya gözlənilmədən kənarda qaldı. EPP bu dəfə mövqeyini gücləndirmək üçün daha sərt siyasi xətt nümayiş etdirən sağ fraksiyalarla əməkdaşlığı üstün tutdu. Bu addım Avropada mərkəz partiyaların elektoratı qorumaq naminə sağ populist ritorikaya yaxınlaşmasının artıq pan-Avropa siyasi tendensiyasına çevrilməkdə olduğunu göstərdi.

*(ardı 7-ci səhifədə)*

## Cənub qonşumuzla münasibətlərin önəmi yüksəlir



Səhifə ⇨ 8




Səhifə ⇨ 11

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli cənab Prezident!**

Nobel Sülh Mükafatına namizədliyimi irəli sürmək üçün Sizin və Baş nazir Paşinyanın birgə məktubunuza görə təşəkkür edirəm. Bizi vacib missiyamızı davam etdirməyə ruhlandıran bu yüksək qiymətə görə dərin minnətdarlığımı bildirirəm.

Amerika Birləşmiş Ştatlarının Prezidenti olaraq, dünyada münaqişələrə son qoymağa, bütün insanlar üçün sülh və rifahın təmin edilməsinə sadiq qalıram. Sizin davamlı tərəfdaşlığınızla qeyri-mümkün nə varsa, ona nail olacağıq.

Davamlı dəstəyinizə görə Sizə bir daha təşəkkür edirəm.

**Hörmətlə,**

***Donald TRAMP,***
***Amerika Birləşmiş Ştatlarının Prezidenti***

## Finlandiya Respublikasının Prezidenti Zati-aliləri cənab Aleksandr Stubba

**Hörmətli cənab Prezident!**

Finlandiya Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

İnanıram ki, xalqlarımızın mənafelərinə uyğun olaraq ölkələrimiz arasında əlaqələr bundan sonra da dostluq və əməkdaşlıq zəminində inkişaf edəcəkdir.

Bu bayram günündə Sizə ən xoş arzularımı çatdırır, xalqınıza daim əmin-amanlıq və firavanlıq arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 3 dekabr 2025-ci il**

## T.Ə.Bakıxanovun 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan musiqi mədəniyyətinin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Tofiq Əhməd Ağa oğlu Bakıxanov 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 8 dekabr 2025-ci il**

## Cənubi Qafqazda yeni geosiyasi nizam

*Açıq qalan suallar*




**Cənubi Qafqaz 2020-ci ildən sonra sürətlə dəyişən geosiyasi məkana çevrilib. Uzun illər münaqişə ilə yadda qalan region indi yeni diplomatik modelin sınaq meydanına dönür. Əslində, bu modelin hədəfi uzunmüddətli sabitlik, iqtisadi inteqrasiya və təhlükəsizlik arxitekturasının yenidən qurulmasıdır. Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyevin sözləri bu dönüşün mahiyyətini bir cümlədə xülasə edir: "Münaqişə tənzimlənsə də, bəzi suallar aktuallığını qoruyub saxlayır".**

Əvvəlcə aydınlıq gətirməliyik ki, ümumiyyətlə, indiki mərhələ postmünaqişədir, yoxsa postsülhün quruculuq dövrü? Hazırkı mərhələni postmünaqişə dövrü kimi təqdim etmək artıq regionun reallığını tam izah etmir. Müharibənin bitməsi siyasi xəritədə ciddi dəyişikliklər yaradıb, lakin bu dəyişikliklər hələ tam olaraq sabit, dayanıqlı sülh modelinə çevrilməyib. Cənubi Qafqaz sanki iki mərhələnin – münaqişədən sonrakı sabitləşmənin və sülhün institusionallaşmasının kəsişmə nöqtəsindədir. Vəziyyətin ən mühüm xüsusiyyəti ondan ibarətdir ki, diplomatiya intensiv şəkildə işləsə də, cəmiyyətlər səviyyəsində psixoloji və emosional boşluqlar qalmaqdadır. Dövlətlərin imza atdığı razılaşmalar konkret siyasi reallığı müəyyənləşdirir, amma sosial yaddaş, uzun illərin qarşıdurma təcrübəsi və tərəflərin bir-birini qəbuletmə dərəcəsi bu sənədlərin arxasınca tam gəlmir.

*(ardı 7-ci səhifədə)*

# Prezident İlham Əliyevin Bratislavada rəsmi qarşılanma mərasimi






**Dekabrın 8-də Slovakiyanın paytaxtı Bratislavada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olub.**

Prezident Sarayında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşıladı.

Azərbaycanın və Slovakiyanın Dövlət himnləri səsləndirildi.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi.

Prezidentlər fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Azərbaycanın nümayəndə heyətinin üzvləri Prezident Peter Pelleqriniyə, Slovakiyanın nümayəndə heyətinin üzvləri isə Prezident İlham Əliyevə təqdim edildi.

Dövlət başçıları birgə foto çəkdirdilər.

Prezident İlham Əliyev xatirə kitabını imzaladı.



# Prezidentlərin təkbətək görüşü



**Dekabrın 8-də Bratislavada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrini ilə təkbətək görüşü olub.**

# Azərbaycan və Slovakiya prezidentlərinin geniş tərkibdə görüşü





**Dekabrın 8-də Bratislavada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrini ilə geniş tərkibdə görüşü olub.**

**Görüşdə çıxış edən Slovakiya Prezidenti Peter Pelleqrini dedi:**

– Hörmətli cənab Prezident və Azərbaycanın nümayəndə heyəti.

Sizi Slovakiyada, Bratislavada qəbul etmək böyük şərəfdir. Slovakiyaya səfər etmək qərarınız bizi çox şərəfləndirdi. Bu, Slovakiya Respublikasının tarixində Azərbaycan Prezidentinin ilk rəsmi səfəridir. Hətta 20 il əvvəl Slovakiyaya səfər etməyinizə baxmayaraq, o, rəsmi səfər deyildi. Ola bilsin, o, konfrans və ya digər tədbir ilə bağlı idi. Mən çox minnətdaram ki, Siz hökumət üzvlərindən ibarət bu cür geniştərkibli nümayəndə heyəti ilə gəlmisiniz. Çünki fikrimizcə, bu səfər güclü siqnal verməlidir: əlaqələrimiz sadəcə dostluq əlaqələri deyil, onların hələ də böyük inkişaf potensialı var. Biz çox sahələri nəzərdən keçirəcəyik. Təkbətək görüşdə çox səmimi müzakirəyə görə minnətdaram və bunu həqiqətən yüksək dəyərləndirirəm. Ümidvaram ki, ikitərəfli nahar və Bratislava Qəsrində dövlət ziyafəti zamanı bizim gündəliyə baxmaq üçün xeyli imkanımız olacaq.

Bir daha qeyd edim ki, Siz dostlarınızın yanına gəlmisiniz. Biz Sizi, ölkənizi özümüzə dost hesab edirik, çünki Sizinlə dəfələrlə görüşmək imkanımız olub. Çox məmnunam ki, Baş nazir qismində səfərim zamanı Sizinlə görüşdüyüm vaxtda biz münasibətlərimizi gücləndirmək qərarına gəldik. Belə fikrə gəldik ki, Bakıda səfirliyimizi açsaq əla olar. Hökumət olaraq, biz həmin qərarı qəbul etdik. Siz də eyni qərar qəbul etdiniz. Çox şadam ki, hazırda masa arxasında səfirlər də əyləşib - biri Bratislavadan, digəri Bakıdan. Düşünürəm ki, bu addım çox faydalı oldu. Biz, həmçinin ölkələrimiz arasında Komissiyanı yaratmaq qərarına gəldik. Sonuncu iclas 2024-cü ildə keçirilib. Növbəti iclas 2026-cı ildə nəzərdə tutulur. Bir sözlə, işlər gedir.

Əlbəttə, mən hökumət üzvlərinin çoxsaylı səfərlərini də qeyd etməliyəm. Təkcə Prezident və Baş nazirlərin səfərləri deyil, digər səfərlər də olub. Çox məmnunam ki, müdafiə naziri mənə səfərinin uğurla keçdiyini bildirdi. O, həmçinin parada dəvət olundu. Mühüm milli gün qeyd edildi. O, mənə söylədi ki, onun sahəsi ilə bağlı əla görüşləri baş tutdu, çünki onun özü çox fəal nazirdir. Potensial böyükdür.

İqtisadiyyat naziri də buradadır. Bu, bizim üçün indiki anda çox vacib mövzudur, çünki enerji təchizatına gəldikdə, Slovakiya hazırda olduqca ağır vəziyyətə düşüb. Görürük ki, uzun perspektivdə Azərbaycan həll variantının bir hissəsi ola bilər. Avropa İttifaqı Rusiya qazının Slovakiyaya idxalını tam qadağan etmək qərarına gəlib. Onlar bu qərarı 27 üzv adından qəbul ediblər. Müddət çox qısadır. Şirkətlərimizin rəhbərləri də buradadır. Çox şadam ki, Siz SOCAR-ın prezidentini də nümayəndə heyətinə daxil etmisiniz. Çox konkret söhbət apara bilərik. Azərbaycan enerji təchizatının şaxələndirilməsində rol oynaya bilər, çünki cənab Prezident, hazırda biz boru kəmərinin sonundayıq. Əslində, Qərbi Avropa istiqamətində biz hər zaman əvvəldə olmuşuq. İndi isə boru kəmərinin sonundayıq. Təsəvvür edə bilərsiniz bu nəyin bahasına başa gəlir. Bir daha, cənab Prezident, xoş gəlmisiniz. Sizi burada qəbul etmək bizim üçün və bütün slovak xalqı üçün böyük şərəfdir.

***

**Sonra Azərbaycan Prezidenti İlham Əliyev çıxış edərək dedi:**

– Təşəkkür edirəm. Xoş sözlərə görə çox sağ olun, cənab Prezident. Dəvətə və qonaqpərvərliyə görə minnətdaram. Çox şadam ki, biz Bratislavada görüşürük. İlk öncə Bakıdakı görüşümüz xatirimdədir. COP29 konfransında iştirak etdiyinizə görə Sizə bir daha öz təşəkkürümü bildirirəm. Sizinlə xeyli söhbət etmək imkanımız oldu. Siz Baş nazir kimi səfərinizi və səfirliyin açılmasını xatırlatdınız. Əslində, biz ikimiz Slovakiya ilə Azərbaycan arasında münasibətlərin fəal fazasını başlatdıq. Əlaqələr bu gün artıq strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Ötən il biz əlaqələrimizi ən yüksək səviyyəyə qaldırmış Strateji Tərəfdaşlıq haqqında Bəyannaməni imzaladıq. Həmçinin biz Baş nazirin müavini və müdafiə naziri cənab Kalinyakın ötən ay hərbi paradımızda iştirak etdiyinə görə çox minnətdarıq. Biz bunu aramızda güclü dostluq əlaməti hesab edirik. Son illər ərzində münasibətlərimiz yüksək dərəcədə inkişaf edib və bir çox sahələri əhatə edir.

Siz energetikanı qeyd etdiniz. Ötən il biz Slovakiyaya qaz təchizatına başladıq. İstənilən lazımi vaxtda davam etdirməyə hazırıq. Müdafiə və müdafiə sənayesi sahəsində əməkdaşlığımızın gələcəkdə böyük potensialı var. Artıq vacib işlər görülüb, amma daha çox işlər də görülməlidir. Qarabağın yenidən qurulmasında fəal iştirak edən slovak şirkətlərinə dəstəyinə görə minnətdarıq.

***

Slovakiya Prezidenti dövlətimizin başçısını Vaşinqtonda Azərbaycanla Ermənistan arasında sülh gündəliyi ilə əlaqədar əldə olunmuş tarixi nailiyyət münasibətilə təbrik etdi.

Prezident İlham Əliyev təbriklərə görə təşəkkürünü bildirdi.

Söhbət zamanı dost ölkə kimi Slovakiya şirkətlərinin işğaldan azad edilmiş Ağdam rayonunun Baş Qərvənd kəndinin “ağıllı kənd” konsepsiyası əsasında yenidən qurulmasında iştirakı məmnunluqla qeyd olundu, Azərbaycanla Slovakiya arasında enerji, nəqliyyat, müdafiə sənayesi sahələrində uğurlu əməkdaşlığın həyata keçirildiyi vurğulandı. Slovakiyanın ölkəmizin Avropa İttifaqı ilə əlaqələrinin inkişafını dəstəklədiyi qeyd edildi.

Dövlətimizin başçısı Slovakiya Prezidentini Azərbaycana rəsmi səfərə dəvət etdi. Dəvət məmnunluqla qəbul olundu.

# Azərbaycan və Slovakiya prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər

**Dekabrın 8-də Bratislavada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrini mətbuata bəyanatlarla çıxış ediblər. Əvvəlcə Slovakiya Prezidenti bəyanatla çıxış etdi.**



## Prezident Peter Pelleqrinin bəyanatı

– Xanımlar və cənablar, mən çox şadam ki, bu gün Slovakiyada, Prezident Sarayında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi salamlayıram.

Cənab Prezident, mən şadam ki, Siz mənim dəvətimi qəbul etmisiniz. Bu, Azərbaycan Prezidentinin Slovakiyaya tarixdə ilk rəsmi səfəridir. Bu, bizim qarşılıqlı marağımızı ən yüksək səviyyədə təsdiq edir. Biz strateji tərəfdaşlıq qurmaq və onu inkişaf etdirmək niyyətindəyik. Biz cənab Prezidentlə geniş tərkibdə və təkbətək formatda geniş müzakirələr apardıq. Biz keçmişdə dəfələrlə görüşmüşük. Hər zaman olduğu kimi, görüşümüz səmimi və açıq şəkildə həyata keçirilmişdir. Çünki bizim ölkələrimiz dost ölkələrdir və bizim münasibətlərimiz hər zaman yaxşı səviyyədə olub.



Slovakiya Azərbaycanı yerləşdiyi regionda strateji əhəmiyyətə malik tərəfdaş hesab edir. Azərbaycan Cənubi Qafqazın ən böyük iqtisadiyyatıdır. O, Asiya və Avropa ilə kəsişmədə yerləşir və zəngin enerji resurslarına malikdir. Mən çox şadam ki, bizim ticarət dövriyyəmiz artmaqdadır. Burada ciddi artım var. Biz bu gün də qeyd etdik ki, burada hələ də istifadə edilməmiş potensial var.

Ötən il iki ölkə arasında Strateji Tərəfdaşlıq haqqında Bəyannamə imzalanmışdır və bu da bizim münasibətlərimizi daha yüksək səviyyəyə qaldırmışdır. Bizim qarşılıqlı maraq kəsb edən bütün sahələr üzrə əməkdaşlığımız yüksək səviyyəyə qaldırıla bilər. Biz gələcəkdə Slovakiya ilə Azərbaycan arasında daha sıx əməkdaşlıq edəcəyik - müdafiə sənayesi, müasir texnologiyalar, tələbə mübadiləsi, turizm, mədəniyyət və digər sahələrdə.

Mən slovak xalqı adından cənab Prezidenti və Azərbaycan Respublikasını təbrik etmək istərdim. Çünki uzun illərdən sonra Azərbaycan ilə Ermənistan arasında sülh müqaviləsi paraflanmışdır. Bilirsiniz ki, bu müqavilə Ağ Evdə Prezident Donald Trampın iştirakı ilə imzalanmışdır. Azərbaycan bu gün sülh şəraitində yaşayır və onun vətəndaşları, cəmiyyət diqqəti ölkənin inkişaf etdirilməsinə yönəldib. Artıq diqqət postmüharibə dövrünə yönəldilib.

Azərbaycan Slovakiyada aparıcı rol oynaya bilər. Söhbət bizim enerji təchizatının şaxələndirilməsindən gedir. Biz, əlbəttə, bilməliyik ki, uzunmüddətli perspektivdə Azərbaycan bizim üçün strateji tərəfdaş ola bilər. Bizim heyətlər danışıqları davam etdirəcəklər ki, bu, Slovakiya üçün də məqbul bir anlaşma olsun və biz də Azərbaycanın resurslarından istifadə edə bilək.

Müdafiə sənayesi çox vacib sahədir. Biz bu sahəni artıq inkişaf etdiririk. Biz, sadəcə olaraq, Azərbaycana silah satmaq niyyətində deyilik. Bildiyiniz kimi, bu sahə Slovakiyada çox inkişaf edib. Biz özüyeriyən artilleriya qurğuları, sursat və digər məhsullar sahəsində də böyük təcrübəyə malikik. Biz Azərbaycanla texnologiya ötürülməsi, Azərbaycanın maliyyəsindən istifadə edilməsi və birgə istehsalın üzərində işləyə və birlikdə istehsal etdiyimiz məhsulları üçüncü ölkələrə sata bilərik.

Mən şadam ki, bizim Baş nazirin müavini və müdafiə naziri cənab Kalinakın səfəri zamanı da Azərbaycan tərəfi avtomatik artilleriya sistemlərinin alışı ilə maraqlanıb və artıq niyyətini bildirib. Əminəm ki, bu silah növləri də Azərbaycan Silahlı Qüvvələrini gücləndirəcəkdir.

Birgə müəssisələr, birgə şirkətlər, texnologiya ötürülməsi, yəni, biz bu sahədə daha da sıx çalışmaq əzmindəyik və əlbəttə ki, digər sahələr də ola bilər. Bildiyiniz kimi, slovak şirkəti Qarabağ bölgəsində “ağıllı kənd” inşa edir. Eyni zamanda, bizim ixrac-idxal bankımız da müxtəlif layihələri maliyyələşdirməyə hazırdır.

Sonda onu da qeyd etmək istərdim ki, Azərbaycan və Slovakiya dost ölkələrdir. Bizim aramızda daha sıx əlaqələr ola bilər. Şadam ki, Macarıstanın "Wizz Air" şirkəti fəal şəkildə bizim ölkələri birləşdirir, uçuşları artırır. Artıq Bratislava Hava Limanından da Bakıya birbaşa uçuşlar açıla bilər. Çünki bu, dinamik inkişaf edən iki regiondur və bu da bizim müzakirə mövzumuz olmuşdur.

Cənab Prezident, bir daha Sizi Bratislavada salamlayıram. Əminəm ki, Sizin rəsmi səfəriniz bizim əməkdaşlığımızda yeni, mühüm bir mərhələnin başlanğıcı olacaq. Mən çox şadam ki, biz tezliklə Sizinlə yenidən görüşəcəyik. Mənim dəvətimi qəbul etdiyinizə görə bir daha təşəkkür edirəm. Əlbəttə ki, biz Bakıda görüşmüşük, ancaq rəsmi olaraq Slovakiya Prezidenti Azərbaycanda səfərdə olmamışdır.

Bir daha cənab Prezident, xoş gəlmisiniz Slovakiyaya.

*

Sonra Azərbaycan Prezidenti bəyanatla çıxış etdi.

## Prezident İlham Əliyevin bəyanatı

– Hörmətli cənab Prezident.

Əziz dostlar.

İlk növbədə, cənab Prezident, dəvətə və qonaqpərvərliyə görə Sizə təşəkkürümü bildirmək istəyirəm.



Mənim Slovakiyaya rəsmi səfərim əminəm ki, iki ölkə arasındakı əlaqələrə çox müsbət təsir göstərəcəkdir.

Siz qeyd etdiyiniz kimi, bu, Azərbaycan Prezidentinin Slovakiyaya ilk rəsmi səfəridir. Əlbəttə ki, səfər zamanı həm təkbətək formatda, həm nümayəndə heyətlərinin iştirakı ilə apardığımız danışıqlar bir daha onu göstərir ki, Slovakiya və Azərbaycan, sözün əsl mənasında, dost ölkələrdir və strateji tərəfdaşlardır.

Qeyd etdiyiniz kimi, keçən il Slovakiya və Azərbaycan Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə imzalamışlar. Bu, əlaqələrimizi ən yüksək səviyyəyə qaldıran bir sənəddir və o sənədin imzalanmasından sonra biz bütün istiqamətlər üzrə çox fəal əməkdaşlığı görürük.

Siz artıq bizim ikitərəfli gündəliyimizlə bağlı geniş məlumat verdiniz. Sadəcə olaraq, əlavə etmək istərdim ki, qeyd etdiyiniz bütün istiqamətlər üzrə bizim müştərək komandalarımız fəal işləyir. Birgə iqtisadi işçi qrup öz fəaliyyətini genişləndirir. Ənənəvi əməkdaşlıq sahəsi olan energetika üzrə konkret layihələr icra edilir. Keçən il ilk dəfə olaraq Azərbaycan qazı Slovakiyaya təchiz edilmişdir və Slovakiyanın ehtiyacları olan səviyyədə, istənilən həcmdə Azərbaycan enerji resurslarını təmin edə bilər.

Onu da bildirməliyəm ki, bizim zəngin qaz yataqlarımız bu gün imkan verir ki, dünyanın bir çox ölkələrinə təbii qazı ixrac edək. Azərbaycan qazını almış ölkələrin sayı 14-ə çatıb. Biz boru kəmərləri ilə ixrac edilən qazın təchizatçı ölkəsi olaraq birinci yerdəyik. Yeni qaz yataqlarının işlənməsi nəticəsində əlavə resurslar əldə ediləcək və təbii ki, həm Slovakiyaya, həm də onun qonşularına Azərbaycan qazının təchizatı daha da böyük həcmdə mümkün olacaqdır.

Hazırda bizim ümumi qaz ixracımız 25 milyard kubmetr səviyyəsindədir, bunun da yarısı Avropa ölkələrinə nəql edilir. Bu gün Avropa İttifaqına üzv 8 ölkə Azərbaycan qazını alaraq öz enerji təhlükəsizliyini təmin etmiş olur.

Bizim digər perspektivli əməkdaşlıq sahəsi haqqında Siz artıq dediniz, bu da müdafiə sənayesi sahəsidir. Biz bu sahədə əməkdaşlığı sənayenin inkişafı nöqteyi-nəzərindən görürük. Biz müharibə aparmaq fikrində deyilik. Yəni, bizim üçün müharibələr artıq keçmişdə qalır və sadəcə olaraq, burada bir sinergiyanın yaradılması üçün Slovakiya texnologiyaları ilə Azərbaycan maliyyə imkanlarını birləşdirərək yeni məhsulların istehsalı dünya bazarları üçün də maraqlı ola bilər. Həm də ki, bu, texnoloji inkişafın da bir qolu olaraq bizə böyük faydalar verəcəkdir. Biz bu istiqamətdə konkret layihələr üzərində çalışırıq.

Düz bir ay əvvəl - noyabrın 8-də biz azadlıq müharibəsində Qələbənin beşinci ildönümünü qeyd etmişdik və fəxri qonaqlar arasında Slovakiyanın Baş nazirinin müavini və müdafiə nazirini görmək xüsusi məmnunluq yaratmışdır. Buna görə biz Slovakiya dövlətinə və hökumətinə minnətdarıq. Bu kimi jestlər bir daha onu göstərir ki, biz, sözün əsl mənasında, dost ölkələrik. Müvafiq hökumət nümayəndələri bütün istiqamətlər üzrə təlimatları alıb ki, gələcək illərdə əməkdaşlığı daha da yüksək səviyyəyə qaldıraq.

Sizin rəhbərliyinizlə Slovakiyanın uğurlu inkişafı bizi çox məmnun edir. Ölkənizdə sabitlik, iqtisadi inkişaf hökm sürür. Slovakiya çox güclü sənaye potensialına malikdir. Xüsusilə Sizə rəğbət qazandıran odur ki, Slovakiya müstəqil xarici siyasət aparır. Bəzi hallarda buna görə müəyyən çətinliklərlə də üzləşirsiniz. Ancaq bu, Sizi yolunuzdan döndərmir və bizim bölgəmizdə Sizin ölkənizə və rəhbərliyə çox böyük hörmət mövcuddur.

Azərbaycan isə öz xarici siyasət prioritetlərini çoxdan müəyyən edib. Biz, eyni zamanda, bu gün Şərqlə Qərb arasında müəyyən bir körpü rolunu oynayırıq. İnfrastruktura, bağlantılara, nəqliyyat sektoruna qoyduğumuz sərmayə bu gün imkan verir ki, Azərbaycan Şərq-Qərb nəqliyyat dəhlizinin önəmli parçasına çevrilsin. Biz Orta Dəhliz layihəsində fəal iştirak edirik. Orta Asiyanı Avropa ilə birləşdirən ən etibarlı və ən təhlükəsiz marşrut Azərbaycan ərazisindən keçir.

Gələcək illərdə bağlantılar və nəqliyyat sahəsinə əlavə vəsait qoyaraq biz öz imkanlarımızı genişləndirəcəyik. Hesab edirəm ki, biz Slovakiya ilə Azərbaycan arasındakı əlaqələrin inkişafında bu sahəni də diqqətdən kənarda qoymamalıyıq. Çünki bunun çox böyük potensialı vardır.

Eyni zamanda, bu gün biz informasiya texnologiyaları, data mərkəzlərinin yaradılması haqqında danışmışıq. Burada Azərbaycanın üstünlüyü ondadır ki, bizdə kifayət qədər böyük enerji potensialı var. Bu gün Azərbaycanda istifadə olunmayan enerji potensialı təxminən 2 giqavata bərabərdir və növbəti beş il ərzində bu, 8 giqavata çatdırılacaq. Təbii ki, süni intellekt və data mərkəzlərinin fəaliyyəti üçün enerji mənbəyi əsas amillərdən biridir. Əlbəttə ki, iqlim də burada önəmli amildir. Baxmayaraq, biz Cənub ölkəsiyik, amma bizim çox soyuq bölgələrimiz də var ki, orada ilin böyük hissəsində şaxtalı hava şəraiti mövcuddur. Ona görə beynəlxalq data mərkəzləri habı kimi biz öz rolumuzu görürük və Slovakiya şirkətləri ilə bu istiqamətdə çalışmaq fikrindəyik.

Cənab Prezident, qonaqpərvərliyə görə bir daha təşəkkürümü bildirmək istəyirəm. Fürsətdən istifadə edərək, Sizi Azərbaycana rəsmi səfərə dəvət etmək istəyirəm. Siz Azərbaycanda dəfələrlə olmusunuz, ancaq Prezident kimi rəsmi səfərdə hələ ki, olmamısınız. Əgər vaxtınız olarsa, gələn il biz Sizi Azərbaycanda qarşılamağa hazırıq və çox məmnun olarıq. Bir daha çox sağ olun.

# Prezidentlər Bratislavada “Azadlıq qapısı” abidəsini ziyarət ediblər







**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrini dekabrın 8-də Bratislavada “Azadlıq qapısı” abidəsini ziyarət ediblər.**

Əvvəlcə Azərbaycanın və Slovakiyanın Dövlət himnləri səsləndirildi.

Prezident İlham Əliyev və Prezident Peter Pelleqrini abidənin önünə əklil qoydular.

Qeyd edək ki, bu abidə 1948-1989-cu illərdə keçmiş Çexoslovakiyadan qaçmağa çalışan zaman həlak olanların xatirəsinə həsr edilib.

# Azərbaycan və Slovakiya prezidentləri Bratislavada Devin qəsrində





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrini dekabrın 8-də Bratislavada Devin qəsrində olublar.**

Dövlətimizin başçısına Morava və Dunay çaylarının qovuşduğu məkanda yerləşən qədim qəsr barədə məlumat verildi.

Bildirildi ki, Slovakiyanın rəmzlərindən biri olan Devin qəsri bu ölkənin milli mədəniyyət abidələri siyahısına daxildir. Yazılı mənbələrdə Devin adına ilk dəfə 864-cü ilə təsadüf edən salnamələrdə rast gəlinir. Qəsr 822-907-ci illərdə mövcud olmuş Böyük Moraviyanın tarixində mühüm rol oynayıb. XIII əsrdə Devin macarların kral və sərhəd qalası olub. 1809-cu ildə Napoleonun ordusu qalanı minalayaraq partladıb. 1896-cı ildə qalanın dağılmasının rəmzi olaraq burada abidə ucaldılıb. Birinci Dünya müharibəsindən sonra qala qalıqlarının üzərində olan dağ massivində ilk mağaralar aşkarlanıb. Ərazidə ümumilikdə fasilələrlə bir əsrdən artıqdır ki, arxeoloji araşdırmalar aparılıb. Minilliklər boyunca Devin qalası qədim insanların məskəni, eyni zamanda, tacirlər və döyüşçülər üçün toplanış yeri olub.



# Prezident İlham Əliyev BƏƏ şirkətlərinin rəhbərlərini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 6-da Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) "2PointZero" şirkətinin sədri Şeyx Zayed bin Hamdan bin Zayed Əl Nəhyanı, "International Holding Company"nin baş icraçı və idarəedici direktoru Seyid Basar Şuebi, həmçinin "International Resources Holding" şirkətinin baş icraçı direktoru Əli Alraşdini qəbul edib.**

"2PointZero" şirkətinin sədri Şeyx Zayed bin Hamdan bin Zayed Əl Nəhyan Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Qonaq qeyd etdi ki, Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Azərbaycanla bütün sahələrdə əməkdaşlığı genişləndirmək istiqamətində tapşırıq verib. O, əlaqələrimizin inkişaf etdirilməsi üçün böyük potensialın olduğunu deyərək, Azərbaycanla BƏƏ arasında uzunmüddətli uğurlu tərəfdaşlığın qurulduğunu vurğuladı.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə çatdırmağı xahiş etdi.

Prezident İlham Əliyev Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın bu ilin sentyabrında Azərbaycana, Qarabağa səfərini, həmçinin onunla ölkəmizdə və Birləşmiş Ərəb Əmirliklərində keçirdiyi görüşləri məmnunluqla xatırladı.

Əlaqələrimizin strateji tərəfdaşlıq müstəvisinə qalxdığını deyən dövlətimizin başçısı siyasi münasibətlərimizin yüksək səviyyədə olduğunu vurğuladı, müxtəlif sahələrdə əməkdaşlığımızın genişləndiyini qeyd etdi, ölkələrimiz arasında qarşılıqlı dəstəyi yüksək qiymətləndirdi.

Bərpaolunan enerji sahəsində BƏƏ-nin Azərbaycanın strateji tərəfdaşı olduğunu deyən Prezident İlham Əliyev bu istiqamətdə imzalanmış sənədləri qeyd edərək, əməkdaşlığın genişləndirilməsi üçün yaxşı potensialın mövcudluğunu vurğuladı. Dövlətimizin başçısı Azərbaycan-BƏƏ əməkdaşlığının daha geniş regionun üçün mühüm əhəmiyyət kəsb etdiyini dedi.

Söhbət zamanı siyasi, iqtisadi-ticari, neft-qaz və digər istiqamətlərdə ikitərəfli əlaqələrimizin inkişafı vurğulandı.

Enerji infrastrukturu, bərpaolunan enerji, investisiyalar, informasiya texnologiyaları, mədən sənayesi və digər sahələrdə əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıldı.

# Azərbaycan Prezidenti Qırğızıstan heyətini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 7-də Qırğız Respublikasının Nazirlər Kabineti sədrinin müavini Bakıt Torobayevin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

Prezident İlham Əliyev Bakıda Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın iclasının keçiriləcəyini və onun gündəliyinin zəngin olduğunu deyərək, bunu ölkələrimiz arasında sıx qarşılıqlı fəaliyyətin göstəricisi kimi qiymətləndirdi.

Son illərdə ikitərəfli münasibətlərimizin sürətlə inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı bu məsələdə yüksəksəviyyəli qarşılıqlı səfərlərin roluna toxundu.

Qarabağın və Şərqi Zəngəzurun bərpasına Qırğızıstan tərəfindən göstərilən dəstəyi vurğulayan Prezident İlham Əliyev Ağdam rayonunda Ayköl Manas adına Xıdırlı kənd tam orta məktəbinin binasının inşasına görə Prezident Sadır Japarova və qırğız xalqına bir daha təşəkkür etdi.

Azərbaycan Prezidenti Qırğızıstanın dövlət başçısı tərəfindən hədiyyə olaraq 200 yakın işğaldan azad edilmiş ərazilərimizə göndərilməsini də dostluq münasibətimizin təzahürü olduğunu dedi.

Dövlətimizin başçısı Bakıda görkəmli qırğız yazıçısı Çingiz Aytmatovun abidəsinin, Bişkekdə Qırğızıstan–Azərbaycan Dostluq Parkının və Heydər Əliyev adına 20 saylı Məktəb-Gimnaziya təhsil-tərbiyə kompleksinin açılışlarını məmnunluqla xatırladı.

İnvestisiya layihələrinə toxunan Prezident İlham Əliyev Azərbaycanla Qırğızıstan arasında İssık-Kul gölünün sahilində mehmanxananın tikintisi üzrə imzalanmış sazişi də vurğuladı.

Siyasi qarşılıqlı fəaliyyətin gündəliyinin çox geniş olduğunu deyən Prezident İlham Əliyev hər iki dövlət başçısının qərarı ilə yaradılan Azərbaycan-Qırğızıstan Birgə İnvestisiya Fondu tərəfindən artıq ilk layihələrin maliyyələşdirilməsinə başlanıldığını, bir neçə layihənin isə maliyyələşmə mərhələsində olduğunu qeyd etdi. Dövlətimizin başçısı vurğuladı ki, Fondun kapitalının formalaşması üçün ölkəmiz maliyyə vəsaiti ayırıb və layihələrin sayının artacağı təqdirdə Azərbaycan tərəfindən əlavə vəsait ayrılacaq.

Prezident İlham Əliyev Qırğızıstanın Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə əməkdaşlıq formatına qoşulmasına dəstək verən ilk dövlətlərdən biri olduğunu deyərək, bunun əlaqələrimizin qardaşlıq xarakteri daşımasının təcəssümü olduğunu vurğuladı.

Ölkəmizin Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşünün tamhüquqlu iştirakçısı olduğunu qeyd edən dövlətimizin başçısı buna görə Qırğızıstana və digər ölkələrə minnətdarlığını bildirərək vurğuladı ki, bu, Mərkəzi Asiya ölkələri ilə Cənubi Qafqaz regionunu daha sıx bağlayacaq, hər iki istiqamətdə fasiləsiz və sabit yükdaşımanın təmin edilməsində, xalqlarımız arasında qardaşlıq əlaqələrinin daha da möhkəmlənməsində öz rolunu oynayacaq.

Qəbula görə nümayəndə heyətinin adından minnətdarlıq edən Bakıt Torobayev, ilk növbədə, Qırğız Respublikasının Prezidenti Sadır Japarovun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Sadır Japarova çatdırmağı xahiş etdi.

Qonaq qeyd etdi ki, ümumi tarixi köklərə, əsrlər boyu mövcud olan dostluğa əsaslanan ikitərəfli əlaqələrimiz Azərbaycan və Qırğızıstan prezidentlərinin siyasi iradəsi nəticəsində strateji tərəfdaşlığın ən yüksək səviyyəsinə qalxıb.

Qırğız Respublikasının Nazirlər Kabineti sədrinin müavini Bakı ilə Bişkek arasında birbaşa hava əlaqəsinin olmasının önəminə toxunaraq, gələcəkdə bu istiqamətdə reyslərin sayının artırılmasının əhəmiyyətini vurğuladı.

Bakıt Torobayev Qırğızıstanda Azərbaycan Prezidentinin səfərini səbirsizliklə gözlədiklərini dedi.

Söhbət zamanı energetika, nəqliyyat, qarşılıqlı investisiya qoyuluşu, humanitar, təhsil, kənd təsərrüfatı və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər müzakirə olundu.

# İlham Əliyev: İranla əlaqələrin fəallaşması məmnunluq doğurur



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 8-də İran İslam Respublikasının xarici işlər naziri Seyid Abbas Əraqçinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

Azərbaycanla İran arasında əlaqələrin böyük tarixinin olduğunu deyən Prezident İlham Əliyev qeyd etdi ki, xalqlarımızın əsrlər boyu bir yerdə yaşaması münasibətlərimizə xüsusi önəm verir. Son dövrlərdə əlaqələrimizin fəallaşmasından məmnunluğunu bildirən dövlətimizin başçısı İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianın ölkəmizə səfərinin, həmçinin digər yüksəkvəzifəli şəxslərin qarşılıqlı səfərlərinin əməkdaşlığımızın daha da genişləndirilməsinə töhfə verdiyini vurğuladı.

Prezident İlham Əliyev ikitərəfli gündəliyimizin geniş olduğunu və bir çox sahələri əhatə etdiyini deyərək, bütün məsələlər üzrə konkret yol xəritələrinin olduğunu bildirdi.

Hökumətlərarası komissiyanın çox uğurla fəaliyyət göstərdiyini vurğulayan dövlətimizin başçısı bu xüsusda iqtisadi, ticari, nəqliyyat, energetika və digər sahələrdə əməkdaşlığa toxundu.

Azərbaycan Prezidenti İran nümayəndə heyətinin səfərinin uğurlu və məhsuldar olacağına əminliyini ifadə etdi.

Qəbula görə təşəkkürünü bildirən Seyid Abbas Əraqçi, ilk növbədə, İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianın salamlarını dövlətimizin başçısına çatdırdı. O qeyd etdi ki, İranın dövlət başçısının Prezident İlham Əliyevə və Azərbaycana böyük hörməti var. Qonaq Məsud Pezeşkianın İran Prezidenti seçilməsindən sonra ölkəmizlə əlaqələri daha da inkişaf etdirməklə bağlı tapşırıq verdiyini dedi.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Məsud Pezeşkiana çatdırmağı xahiş etdi.

Seyid Abbas Əraqçi də öz növbəsində Azərbaycan–İran əlaqələrinin dərin köklərə malik olduğunu vurğulayaraq, münasibətlərimizin daha da dərinləşdirilməsinin əhəmiyyətinə toxundu.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# Dövlət başçısının "Global Infrastructure Partners" şirkətinin baş icraçı direktoru ilə görüşü



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 8-də qlobal infrastruktur investisiya idarəetmə şirkəti "Global Infrastructure Partners"in (GIP) təsisçisi, sədri və baş icraçı direktoru Adebayo Oqunlesini qəbul edib.**

Prezident İlham Əliyev Azərbaycan Respublikasının Dövlət Neft Fondu (ARDNF) ilə "Global Infrastructure Partners" şirkəti arasında formalaşan tərəfdaşlığı yüksək qiymətləndirərək, Fondun şirkətlə birgə "İtalo" sürətli dəmir yolu operatoru və London Qatvik Hava Limanı üzrə həyata keçirdiyi investisiyaların uğurlu əməkdaşlıq nümunələri olduğunu dedi. Ölkəmizin uzunmüddətli inkişaf strategiyasına toxunan dövlətimizin başçısı bu xüsusda "Global Infrastructure Partners" ilə tərəfdaşlığın əhəmiyyətini vurğuladı.

Adebayo Oqunlesi ARDNF ilə əməkdaşlığın səmərəli nəticələr verdiyini deyərək, şirkətin idarə etdiyi fondlara yatırdığı sərmayələrin iki qurum arasında etibarlı tərəfdaşlıq modeli formalaşdırdığını bildirdi.

Qonaq rəhbərlik etdiyi şirkətin hava limanlarının, logistika və nəqliyyat dəhlizlərinin optimallaşdırılması, enerji, o cümlədən bərpaolunan enerji üzrə beynəlxalq təcrübəyə malik olduğunu vurğulayaraq, enerji keçidi, nəqliyyat və rəqəmsal infrastruktur sahələrində Azərbaycanla əməkdaşlıqda marağını ifadə edib.

Görüşdə şirkətin müxtəlif infrastruktur istiqamətlərində həyata keçirdiyi layihələr, qlobal enerji keçidi fonunda formalaşan yeni tendensiyalarla bağlı fikir mübadiləsi aparıldı, süni intellekt texnologiyalarının tətbiqi üzrə beynəlxalq təşəbbüslərdə əməkdaşlıq məsələləri müzakirə olundu.

Qeyd edək ki, 2006-cı ildə yaradılan və 2024-cü ildə dünyanın ən böyük fəal idarəetmə şirkəti olan "BlackRock" tərəfindən satın alınan "Global Infrastructure Partners" hazırda təxminən 189 milyard ABŞ dolları məbləğində aktivləri idarə edir. "BlackRock" isə hazırda təxminən 14 trilyon ABŞ dollarına yaxın həcmdə aktivləri idarə etməklə, qlobal investisiya bazarında aparıcı mövqeyini qoruyur.

*AZƏRTAC*

# “Elmira, belə yazma, rəhbərliyin xoşuna gəlmir”

**Redaksiyamızın unutmadığı və unutmayacağı, əbədi mövzulardan biri ümummilli lider Heydər Əliyevin son dərəcə zəngin, mənalı, eyni zamanda, maraqlı ömür yolu və dövlətçilik fəaliyyətidir. Xatırlayırsınızsa, Prezident İlham Əliyevin sərəncamı ilə “Heydər Əliyev İli” elan olunan 2023-cü ildə “Xalq qəzeti” “Heydər Əliyev xatirələr işığında” layihəsinə başlamışdı və Ulu öndəri yaxından tanıyan, onun rəhbərliyi altında müxtəlif rəhbər vəzifələrdə çalışan tanınmış dövlət və ictimai-siyasi xadimlərdən silsilə müsahibələr hazırlayıb oxucularına təqdim etmişdi. Mövzunun böyük maraqla qarşılandığını və oxucularımızın bu gün də belə yazıların axtarışında olduğunu nəzərə alıb, yenidən bu layihəni gündəmə gətirib qəzet səhifələrinə çıxarmağı qərara aldıq.**

**İlk müsahibimiz 10 ildən artıq Heydər Əliyevi müxtəlif tədbirlərdə jurnalist kimi müşayiət etmiş, Ulu öndərin özünə və yaradıcılığına rəğbətlə yanaşdığı, onun haqqında çox sanballı bioqrafik sənədli-tarixi tədqiqat əsərləri ortaya qoymuş Xalq yazıçısı Elmira Axundovadır. Təqdimata ehtiyac olmasa da, Elmira xanım haqqında qısa arayış verməyi lazım bildik.**



**Elmira Hüseyn qızı Axundova karyerasına 1971-ci ildə stenoqraf kimi başlayıb. 1976-cı ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini fərqlənmə diplomu ilə bitirib.**

**1977–1980-ci illərdə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində kiçik redaktor, 1980–1988-ci illərdə Azərbaycan Yazıçılar Birliyində referent və məsləhətçi vəzifələrində çalışıb. 1988–1991-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunun Cənubi Azərbaycan ədəbiyyatı şöbəsində baş elmi işçi olub. 1984-cü ildə filologiya elmləri üzrə fəlsəfə doktoru dissertasiyası müdafiə edib. 1990-1998-ci illərdə "Literaturnaya qazeta"nın Azərbaycan üzrə müxbiri, eyni zamanda, 1993–2002-ci illərdə "Azadlıq" radiosunun rus redaksiyasının müxbiri olub. 2002-ci ildən Bakı Slavyan Universitetinin Tərcümə nəzəriyyəsi və təcrübəsi kafedrasında dosent vəzifəsində çalışır.**

**1994–2003-cü illərdə Azərbaycan Prezidenti Heydər Əliyevin xarici ölkələrə, demək olar, bütün səfərlərində jurnalist kimi iştirak edib.**

**2003-cü ildə “Şöhrət” ordeninə, 2005-ci ildə Əməkdar jurnalist fəxri adına, 2013-cü ildə Azərbaycan Respublikası Prezidentinin Fəxri Diplomuna layiq görülüb.**

**2005-ci ildən 2020-ci ilə qədər Azərbaycan Milli Məclisinin deputatı olub.**

**2014-cü ildə Elmira Axundovanın 7 cildlik "Heydər Əliyev. Şəxsiyyət və dövr" sənədli-bioqrafik kitabı Azərbaycan Dövlət Mükafatına layiq görülüb. 2018-ci ildə Azərbaycan ədəbiyyatının inkişafındakı mühüm töhfələrinə görə ona "Xalq yazıçısı" fəxri adı verilib. Az müddətdə Azərbaycanın Ukraynadakı fövqəladə və səlahiyyətli səfiri vəzifəsində çalışıb.**

**2023-cü ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə Elmira Axundova 2-ci dərəcəli “Vətənə xidmətlərə görə” ordeni və “Heydər Əliyevin 100 illik yubiley” medalı ilə təltif edilib.**

**– Elmira xanım, Heydər Əliyevlə və şəxsən özü ilə tanışlığınızın tarixi haradan başlayır? Sizdə bu şəxsiyyətə maraq necə yaranıb?**

– Hələ Sovetlər Birliyi dövründə, təbii ki, Heydər Əliyev haqqında çox eşidirdik, dövri mətbuatda, televiziya ekranlarından onun fəaliyyətini diqqətlə izləyirdik. Yəni bu insan respublikanın rəhbəri, sonra isə SSRİ kimi nəhəng bir dövlətin hakimiyyət olimpində yüksək vəzifə tutan bir şəxs kimi ekranlardan birbaşa evimizə gəlirdi, məruzələrini dinləyirdik. Əlbəttə, o vaxt bu insan mənim üçün əlçatmaz, ünyetməz idi.

Tale elə gətirdi ki, məni 1989–1990-cı ildə ştatdankənar müxbiri olduğum SSRİ-nin mərkəzi dövri nəşrlərindən olan “Literaturnaya qazeta”ya xüsusi müxbir götürdülər. Maraqlıdır ki, elə ilk tapşırıqlarından biri Naxçıvana gedib Heydər Əliyevdən müsahibə götürmək oldu. Bu, elə bir zaman idi ki, keçmiş SSRİ-nin müstəqillik qazanan respublikalarında sovet dönəmində birinci şəxs postunu tutan siyasətçilər yenidən hakimiyyətə qayıdırdılar. Bu fenomen hamını maraqlandırırdı. Axı nəyə görə respublikaların xalq cəbhələri, sovet dövlətinə qarşı olan siyasi qruplar hakimiyyətə gəlib az bir müddət işləyəndən sonra yenidən keçmiş sovet məmurları hakimiyyətə qayıdırdılar? Məsələn, Ukraynada Leonid Kuçma, Gürcüstanda Eduard Şevarnadze və sair ölkələrdə keçmişdə respublikalarına rəhbərlik edənlər artıq müstəqil dövlətlərinin başına keçirdilər...

1990-cı ilin qışında Naxçıvana yola düşdüm. Getməmişdən əvvəl o illərdə Naxçıvanda ali məktəbdə çalışan İsa Həbibbəyliyə telefon açıb bildirdim ki, bəs “Literaturnaya qazeta” mənə tapşırıq verib Heydər Əliyevdən müsahibə götürüm. O da, sağ olsun, dərhal Heydər Əliyevə məlumat vermişdi. Ulu öndər o vaxt Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmişdi və heç bir siyasi iddiası yox idi.

İsa Həbibbəyli xahişimi Ulu öndərə çatdıranda demişdi ki, “Literaturnaya qazeta”ya müsahibə vermək istəməzdim, çünki onlara inanmıram. Amma Elmira Axundova üçün mənim qapılarım həmişə açıqdır. Ulu öndərin bu fikri məni çox təəccübləndirdi: Axı o məni haradan tanıya bilərdi? Doğrudur, buna qədər “Literaturnaya qazeta”da bir-iki yazım çıxmışdı və respublika mətbuatında da çox fəal işləyirdim, məqalələr yazırdım. Həm də çox populyar olan, Xalq şairi Sabir Rüstəmxanlının baş redaktoru olduğu “Azərbaycan” qəzetinin redaksiya heyətinin üzvü idim və bu qəzetdə rus dilində tez-tez yazılarım dərc edilirdi. Buna baxmayaraq, məqalələrim çox böyük əks-səda doğururdu. Məsələn, Əbdülrəhman Vəzirova qarşı bir neçə kəskin məqalə yazmışdım, başqa tənqidi və sərt siyasi məqalələrim dərc edilirdi. K.Qluşkovun baş redaktoru olduğu “Bakinskiy raboçi” qəzetində də tez-tez yazılarım dərc olunurdu. K.Qluşkov da çox cəsarətli redaktor idi və özü də bu siyasi proseslərin təhlilinin, hadisələrə cəsarətli münasibətlərin qəzet səhifələrində əks olunmasında maraqlı idi. 1988-ci ildə bu qəzetdə “Biz hamımız keçmişdən gəlmişik” (“Vse mı vışli iz proşloqo”) adlı məqaləm dərc edilmişdi. Məqalənin məzmunu qısaca bundan ibarət idi ki, hakimiyyətə can atan yeni qüvvələr keçmişi daşlamağa və tarixdən silməyə çalışırlar. Amma unudurlar ki, biz hamımız o keçmişdə yaşamışıq. Bu fikirlərdən sonra keçirdim Heydər Əliyev obrazına. Bilirsiniz ki, həmin ərəfədə bütün İttifaq mətbuatı, o cümlədən Azərbaycanda çıxan rəsmi qəzetlər ona qarşı ədalətsiz və qərəzli kampaniya aparmağa, onun fəaliyyətinə çamur atmağa başlamışdılar. Yazmışdım ki, çox maraqlıdır, Heydər Əliyevin birinci katib olduğu illərdə yaxşı yaşayan, yüksək vəzifələr tutan, onun əlindən ali mükafatlar və ordenlər alan insanlar indi onun əleyhinə daha ucadan danışırlar. “Yıxılan adama balta vurmağa” nə var ki. Axı niyə belə olmalıdır?



Heydər Əliyev istər hakimiyyətdə olanda, istər hakimiyyətdən kənarlaşdırılandan sonra mətbuatı çox diqqətlə izləyirdi. Xüsusilə həmin ərəfədə. 1988-ci ildə də Moskvadakı hökumət “daça”sında yaşayırdı. Demək olar ki, heç kim onu yada salmırdı, yada salanlar da yalnız ona qara yaxmaqla məşğul idilər.

1990-cı ildə Naxçıvanda Heydər Əliyevlə ilk dəfə görüşəndə həmin məqaləmlə bağlı tarixçəni özü belə danışdı: “Elmira, bilirsən mən səni hardan tanımağa başladım? Qızım Sevil bir gün evə gəldi və mənə bir qəzet göstərib dedi: “Ata, bax “Bakinskiy raboçi” qəzetində gör nə maraqlı məqalə dərc edilib”. Dərhal qəzeti alıb sizin məqaləni oxudum və ürəyimdə bir yüngüllük yarandı. Sevindim ki, Azərbaycanda da belə cəsarətli jurnalistlər var, heç nədən qorxmurlar. Sonra imzaya baxdım ki, Elmira Axundova. Fikirləşdim, axı mən Azərbaycanda jurnalistlərin, demək olar, hamısını tanıyıram, bəs bu kimdir belə? Niyə mən bunu tanımıram?”

Dedim: “Heydər Əliyeviç, mən o qəzetlərdə işləmirdim. Pulisist, ədəbiyyatşünas idim, elmlə məşğul olurdum. Sonralar başladım “Azərbaycan”, “Bakinskiy raboçi”, “Literaturnaya qazeta” da müntəzəm siyasi-publisistik yazılarla çıxış etməyə. Dedi: “Həə, mən ona görə sizi ilk məqalənizdən yada sala bilmədim. Buna baxmayaraq, dedim ki, mən “litqazeta”ya inanmıram, amma Elmira Axundova üçün qapılarım açıqdır”. Bax, bizim maraqlı tanışlığımız belə başladı.

**– Dediyiniz kimi, Heydər Əliyevlə ilk görüşünüz Naxçıvanda baş tutub və bu da redaksiya tapşırığı olub. O zaman Heydər Əliyevlə görüşə gedənlər xüsusi xidmət orqanları tərəfindən nəzarətə götürülürdü. Bu sizə problem yaratmadı? İlk görüş sizdə hansı təəssürat formalaşdırdı?**

– O görüş vaxtı Heydər Əliyevlə 3 gün, 3 gecə oturub iki böyük müsahibə hazırladım. Birinci müsahibəni hazırlayandan sonra dedim: “Heydər Əliyeviç, bu müsahibəniz çox kəskindir, çap olunmaya bilər”. Mən ona həqiqəti deməliydim. Dedi: “Bilirəm, amma sözümü deyirəm ki, qoy orada oturanlar oxuyub fikirlərimi bilsinlər”. Bu müsahibədə o ki var Mixail Qorbaçovu tənqid etdi, xüsusilə də onun milli siyasətini, “yenidənqurma”sını. Deyirdi, “onun milli siyasəti milli xəyanət siyasətidir. Bu siyasət ölkəni uçuruma aparır”.

Əlbəttə, mən müsahibəni göndərdim. Ancaq onu çap etmədilər. Buna baxmayaraq, redaksiyada çox kəskin mübahisələr olmuşdu. Məni müsahibə almağa göndərən “Literaturnaya qazeta”nın məsul katibi Vladimir Vladimiroviç və şöbə müdiri tələb edirdilər ki, material dərc edilsin. Baş redaktor isə tərəddüd edirdi. Çox-çox sonralar mənə dedilər ki, məqalənin çap olunmasının qarşısını alan Azərbaycan DTK-nın o illərdəki sədri Vaqif Hüseynov olub. Naxçıvanda İsa Həbibbəyli ilə Heydər Əliyevin yaşadığı evə, Ali Məclisə Afiyəddin Cəlilovun yanına, bir sözlə, hara gedirdiksə, bizi bir maşın izləyirdi. İsa müəllim bunu çox sonralar mənə dedi.

DTK təbii ki, mənim Naxçıvana hansı məqsədlə getdiyimi bilir və məni addım-addım izləyirdi. Maraqlısı budur ki, “Literaturnaya qazeta”nın baş redaktoru Vaqif Hüseynovun dostu idi. Zəng vurub ona demişdi ki, biz məsləhət görmürük siz o müsahibəni çap edəsiniz.

**– Sonra ikinci müsahibəni aldınız...**

– Bəli, sonra ikinci müsahibəni aldım. Ancaq bunu “Literaturnaya qazeta”-ya göndərmədim. Mənim üçün maraqlı idi ki, nəyə görə ona qarşı belə ədalətsiz tənqidlər, qarayaxma kampaniyaları aparılır. Çox maraqlı və son dərəcə əhatəli bir müsahibə idi. Bir müddət sonra, təqribən, Heydər Əliyevlə görüşümüzdən bir müddət keçmişdi, mən “partizanlıq” edib bu yazını əməkdaşlıq etdiyim “Azərbaycan” qəzetinə, dostum Sabir Rüstəmxanlıya apardım. Sabir mənə təəccüblə baxıb dedi: “Sən nə danışdığını bilirsən? Heydər Əliyevdən müsahibəni necə verək?” Dedim: “Sən əvvəl oxu, sonra cavabını de”. Müsahibədə də Mixail Qorbaçov haqqında çox sərt fikirlər vardı, SSRİ-nin ovaxtkı hakimiyyətinin yanlış siyasət yürütdüyü kəskin tənqid olunurdu. “Azərbaycan” qəzetinə də yazıçı Bayram Bayramov rəhbərlik edirdi və onun da Heydər Əliyevə münasibəti yaxşı deyildi. Sabir müəllim dedi: “Elmira, sən heç kimə heç nə demə, mən bunu çap edəcəyəm”. Elə də oldu və 2 gündən sonra məqaləm çap olundu.

Bu hadisələrdən sonra Heydər Əliyevlə sıx ünsiyyət saxlamağa başladım. Müxtəlif yazılarım dərc edilirdi və hamısını da Heydər Əliyev oxuyurdu. Sonradan çoxları bu yazıları yaddan çıxardı. Bir dəfə hətta Naxçıvanın Bakıdakı nümayəndəliyində çalışan Süleyman İsmayılova dedim: “Axı, mənim yazılarımın hamısını Heydər Əliyevə niyə çatdırmırlar?” Cavab verdi ki, onların çoxu Moskvada çıxır, mən onları görmürəm.

Moskvada Heydər Əliyev şəxsiyyətinə o zamanlar həqiqətən böyük maraq var idi. Onunla bağlı hər yazını oxuyurdular, hətta Kremldə belə izləyirdilər. O vaxtlar Moskvada “25 saat” (“25 çasov”) adlı çox populyar bir qəzet nəşr edilirdi. Bu qəzetdə ən operativ materiallar dərc olunurdu. Heydər Əliyevin Yeni Azərbaycan Partiyasını yaratması, 1992-ci il Gəncə qiyamı haqqında ora məqalələr göndərdim, dərhal da nəşr edildi. Sonra “Literaturnaya qazeta”da “Heydər sizə Haydar deyil” adlı məqaləm dərc edildi və bu məqalə son dərəcə böyük maraqla qarşılandı. Bütün bu materialları təyyarə ilə Naxçıvana göndərirdim, Ulu öndər də maraqla oxuyurdu. Sonralar bu məqalələrimi kitablarıma daxil etdim.

**– Belə demək olarmı ki, o vaxt faktiki olaraq siz Heydər Əliyevi dəstəkləməyə başladınız?**

– Yox, mən həqiqəti yazırdım, baş verənləri obyektiv çatdırmağa çalışırdım. Axı, mən Moskvanın mətbuat orqanında çalışırdım. Açıq deyə bilməzdim ki, Heydər Əliyev xalqa, ölkəyə lazımdır və yaxud hakimiyyətə gəlməlidir. Mən, sadəcə, respublikada cərəyan edən hadisələri yazırdım. Məsələn, YAP haqqında yazanda göstərirdim ki, bu partiyanın sosial dayaqları güclüdür, ətrafında Azərbaycanın ziyalı təbəqəsi toplaşıb, xalq Heydər Əliyevi sevir...

**– Bunlar Heydər Əliyevi dəstəkləmək deyildimi?..**

– Əlbəttə, belə idi. O zamanlar Heydər Əliyevi təcrid etməyə, düşüncələrini və fikirlərini xalqa çatdırmağa imkan verməməyə çalışırdılar. Mən və bir çox başqa jurnalistlər müxtəlif məqalə və müsahibələrlə buna imkan vermirdik...

**– Müsahibələrinizin birində etiraf edirsiniz ki, 1990-cı illərin əvvəllərində Heydər Əliyev Naxçıvanda Moskvanın, Bakının təzyiqi altında yaşayıb fəaliyyət göstərəndə, hamı ondan yazmağa qorxurdu, biz isə onun haqqında müsbət yazılar yazırdıq. Belə jurnalistlərin təqiblərə məruz qaldığını, cəzalandırıldığını, hətta fiziki zorakılığa məruz qaldığını da az görməmişik. Sizə necə, təzyiqlər, hədələr olurdumu?**

– Düz deyirsiniz, Azərbaycanda Heydər Əliyevdən yazan jurnalistlərə təzyiq var idi. Amma mən Moskvanın mətbu orqanında çalışırdım. Onlar üçün əlçatmaz idim. 1992-ci ilin axırında da “Azadlıq” radiosunun rus bölməsində işləməyə başladım. Heydər Əliyev o zaman hələ Bakıya hakimiyyətə qayıtmamışdı və ciddi təzyiqlərə məruz qalırdı.

Məsələn, mən yazırdım ki, Heydər Əliyev şairə Mədinə Gülgünün yasına gələndə ziyalılar onu necə coşqu ilə qarşıladılar. Əlbəttə, belə yazıları diqqətdə saxlayırdılar.

Heydər Əliyev Naxçıvan Ali Məclisinin sədri olanda Bakıda vəziyyət gərginləşmişdi. Surətin Gəncə qiyamı hakimiyyəti çox çətin duruma salmışdı. Mən Naxçıvana gedib ondan müsahibə götürdüm. Soruşdu, “bunu çap etdirə bilərsən”. Dedim: “Etdirərəm”. Yazının sərlövhəsi belə idi: “Nadeyus potuşit oqon mirnım putyom” (“Alovu sülh yolu ilə söndürəcəyimə ümid edirəm”). Bu, çox maraqlı müsahibə idi, ona görə də “Literaturnaya qazeta” bunu dərhal çap etdi. Artıq Moskvada bunu təqdir etməyə başladılar. “Azadlıq” radiosunda işləməyə başlayandan isə 10 il onun fəaliyyəti ilə bağlı müntəzəm reportajlar verirdim.

Bəli, Azərbaycanda təzyiqlər var idi. Bir dəfə DTK-nın sədri Vaqif Hüseynov məni yanına dəvət etdi. Doğrudur, mənə münasibəti pis deyildi. Çünki Yazıçılar İttifaqında Anar müəllimlə dostluq edirdi və məni də tanıyıb dost münasibəti göstərdi. Məndən sonra Moskva televiziyasının xüsusi müxbiri Mais Məmmədovu da çağırmışdı. Çünki o da tez-tez Naxçıvana Heydər Əliyevin yanına gedirdi. Rus dilində mənə dedi: “Bəsdir də bu qocanın yanına getdiniz. Onu sakit buraxın. Ondan nə istəyirsiniz axı? Qoy istirahət etsin”.

Yəni sərt şəkildə deyil, belə sakit formada məsləhət gördü ki, Heydər Əliyevlə görüşməyi dayandır. Sonralar isə mənim “Literaturnaya qazeta”da “Heydər sizə Haydar deyil” məqaləm çıxanda bunu Əbülfəz Elçibəyə çatdırmışdılar. Onun komandasından bir nəfər tədbirlərin birində məni görüb dedi: “Elmira xanım, sən səsini azdırmısan e. Belə yazma, rəhbərliyin xoşuna gəlmir”. Hətta AXC hakimiyyətə gələn ərəfədə saqqallılar mənim ofisimə gəldilər. Açıq dedilər: “Biz rusdilli mətbuatın hamısını bağlayacağıq. Bu ölkədə heç kimə lazım deyilsiniz. Siz Moskvaya işləyirsiniz”. Bundan sonra hətta mən Azərbaycandan köçüb getmək haqqında düşünməyə başladım. Axı, mənim çörəyim yazmaqla çıxırdı, əgər bunu əlimdən alsaydılar, uşaqlarımı, ailəmi necə dolandıracaqdım?

*(ardı var)*

*Müsahibəni qələmə aldı:*
*İlqar RÜSTƏMOV,*
*Əməkdar jurnalist*

# Azərbaycan–İran parlamentlərarası əlaqələrinin perspektivləri



**Dekabrın 8-də Milli Məclisin sədri Sahibə Qafarova İranın xarici işlər naziri Seyid Abbas Əraqçinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Söhbət zamanı diqqətə çatdırılıb ki, cari ildə İran Prezidenti Məsud Pezeşkianın ölkəmizə səfərləri, eləcə də digər yüksəksəviyyəli qarşılıqlı səfər və görüşlər, imzalanan sənədlər ikitərəfli münasibətlərin inkişafında mühüm əhəmiyyət kəsb edir və ölkələrarası əməkdaşlıq gündəliyinin xeyli zəngin olmasını göstərir. Qeyd olunub ki, ölkələrimiz arasında siyasi-iqtisadi, ticarət və nəqliyyat sahələrində, həmçinin mədəni-humanitar sahələrdə əlaqələrin möhkəmlənməsi və əməkdaşlıq imkanlarının genişlənməsi ikitərəfli münasibətlərin daha da dərinləşməsinə mühüm töhfə verir.

Milli Məclisin sədri həm ikitərəfli əsasda, həm də Parlamentlərarası İttifaq, Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi, İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Parlament İttifaqı və İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyası kimi mötəbər beynəlxalq təşkilatlar çərçivəsində fəal əməkdaşlığın həyata keçirildiyini qeyd edərək, bu əlaqələrin daha da genişləndirilməsi üzrə birgə səylərin davam etdirilməsinin zəruriliyini vurğulayıb. Bu mənada, parlamentlərdə fəaliyyət göstərən işçi qrupların rolunun gücləndirilməsinin vacibliyi də qeyd olunub.

İranın xarici işlər naziri Seyid Abbas Əraqçi ölkəsinin Azərbaycanla əlaqələrin inkişafına böyük əhəmiyyət verdiyini qeyd edərək, iki ölkə arasında sıx siyasi dialoqun olduğunu bildirib.

***XQ***

# İranın xarici işlər naziri XİN-də



**Dekabrın 8-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə rəsmi səfərdə olan İranın xarici işlər naziri Seyid Abbas Əraqçi ilə görüşüb.**

Nazirlər Ceyhun Bayramov və Seyid Abbas Əraqçi arasında baş tutan təkbətək görüş daha sonra hər iki tərəfin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam edib.

Görüşlərdə Azərbaycan-İran ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyində yer alan aktual məsələlər, habelə regional və qlobal inkişaf istiqamətləri müzakirə edilib. Azərbaycan və İran əlaqələrinin təməlində dövlətlərimiz arasında mehriban qonşuluq və qarşılıqlı hörmət, xalqlarımız arasında tarixi, mədəni və dini ortaq köklərin dayandığı ifadə olunub.

İki ölkə prezidentlərinin arasında mövcud dostluq münasibətlərinin dövlətlərarası əlaqələrdə mühüm əhəmiyyət daşıdığı, 2025-ci ildə İran Prezidentinin Azərbaycana səfərləri və bu çərçivədə Azərbaycan Prezidenti ilə görüşlərinin əməkdaşlığa yeni təkan verdiyi vurğulanıb.

Xarici İşlər nazirlikləri arasında siyasi və konsulluq məsləhətləşmələrinin, iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının, parlamentlərarası əlaqələrin, eləcə də əhatəli ikitərəfli hüquq-müqavilə bazasının əməkdaşlığımıza dayanıqlı xarakter verdiyi bildirilib.

Görüşlər zamanı iqtisadi-ticarət, enerji-energetika və nəqliyyat-logistika istiqamətləri üzrə əməkdaşlıq məsələləri müzakirə edilib. İki ölkənin iqtisadi potensialının və aramızdakı coğrafi yaxınlığın qarşılıqlı ticarət və investisiya həcmlərinin artırılması üçün əlverişli şərait yaratdığı vurğulanıb.

Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi çərçivəsində birgə fəaliyyətlərin, eləcə də Azərbaycanın Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni bağlantı layihələrinin regionda tranzit imkanlarını əhəmiyyətli dərəcədə genişləndirəcəyinə inam ifadə olunub. Ağbənd-Kəlalə arasında yolun və körpünün tikintisinin yekunlaşdırılması istiqamətində səylər məmnunluqla qeyd edilib.

Humanitar sahədə əməkdaşlıq məsələlərinə toxunularaq, iki ölkənin prezidentlərinin razılığı əsasında Bakı-Tehran-Bakı və Bakı-Təbriz-Bakı marşrutları üzrə təyyarə reyslərinin artırılmasının xalqlarımız arasında təmasların təşviqinə töhfə verdiyi qeyd edilib. Elm, təhsil, mədəniyyət, gənclər, idman, səhiyyə və turizm sahələrində əməkdaşlığın gücləndirilməsi imkanları nəzərdən keçirilib.

Beynəlxalq və regional əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparılıb, Azərbaycan və İran arasında BMT, UNESCO, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə (AQEM) və digər təşkilatlar, eləcə də "3+3" və bir sıra başqa regional platformalar çərçivəsində qarşılıqlı etimad və dəstəyə əsaslanan əməkdaşlıq yüksək qiymətləndirilib. Ceyhun Bayramov həmkarına Azərbaycan-Ermənistan normallaşma prosesindəki son inkişaflar barədə məlumat verib.

Görüşlərdən sonra birgə mətbuat konfransı keçirilib, nazirlər görüşlərin nəticələrinə dair bəyanatlarla çıxış edib və jurnalistlərin suallarını cavablandırıblar.

***XQ***

# Milli Məclisdə Azərbaycan dili müzakirəsi

**Dekabrın 8-də Milli Məclisdə "Azərbaycan dilinin dövlət dili kimi inkişaf strategiyası: mövcud vəziyyət və perspektivlər" adlı konfrans keçirilib.**




Konfransda hökumət üzvləri və nümayəndələri, dilçi-alimlər, ədəbiyyat xadimləri, media sahəsində fəaliyyət göstərən qurumların rəhbərləri, Milli Məclisin deputatları, Parlament Aparatının məsul şəxsləri və aidiyyəti qurumların nümayəndələri iştirak ediblər.

Milli Məclisin sədri Sahibə Qafarova bildirib ki, konfransın məqsədi Azərbaycan dilinin qorunması və inkişafı strategiyalarını müzakirə etmək, bu istiqamətdə parlamentin, elmi ictimaiyyətin və ziyalıların vəzifələrini müəyyən etməkdir. O qeyd edib ki, dilimizin qorunması sahəsində, həm də dövlət dili səviyyəsinə yüksəldilməsi istiqamətində ulu öndər Heydər Əliyevin atdığı tarixi addımlar danılmazdır.

Dil siyasətinin yeni mərhələsindən danışan Sahibə Qafarova diqqətə çatdırıb ki, qarşıya qoyulan əsas hədəflər müasir metod və texnologiyalarla dil tədrisinin təkmilləşdirilməsi, mediada və ictimai məkanda ədəbi dil normalarına əməl olunması, terminologiyanın geniş elmi bazada eyniləşdirilməsi və yenilənməsi, Azərbaycan dilinin dünya elmi və mədəni məkanında nüfuzunun artırılması, Azərbaycan dilinin rəqəmsal və texnoloji platformalarda tam funksional tətbiqi, süni intellekt sistemlərinə dilimizin inteqrasiyasıdır.

Tədbirdə elm və təhsil naziri Emin Əmrullayev, AMEA-nın prezidenti, Toponimiya komissiyasının sədri akademik İsa Həbibbəyli, Milli Məclis sədrinin müavini Rafael Hüseynov, Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar Rzayev, Xalq şairi Sabir Rüstəmxanlı, AMEA Nəsimi adına Dilçilik İnstitutunun direktoru Nadir Məmmədli, Audiovizual Şuranın sədri İsmət Səttarov və digərləri çıxış ediblər.

Çıxışlarda Azərbaycan dilinin saflığının qorunması, mediada dilin düzgün istifadəsi, rəsmi, mədəni və işgüzar mühitdə, ədəbiyyatda, ümumiyyətlə, ictimai həyatın bütün sahələrində ədəbi dil normalarına riayət olunması, təhsil sistemində Azərbaycan dilinin tədrisinin keyfiyyətinin yüksəldilməsi, elmi-metodik əsaslarının təkmilləşdirilməsi, AMEA-nın dövlət dili siyasətinə elmi dəstəyi, normativ bazanın elmi əsaslarla hazırlanması və dövrün çağırışlarına uyğun yenilənməsi, Azərbaycan toponimlərinin qorunması ilə bağlı fikirlər bildirilib, rəy və təkliflər səsləndirilib.

***XQ***

# Azərbaycan – Qırğızıstan Hökumətlərarası Komissiyanın iclası



**Dekabrın 8-də Bakıda Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında iqtisadi və humanitar əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyanın 6-cı iclası keçirilib.**

Azərbaycan Respublikası Baş nazirinin müavini, Komissiyasının Azərbaycan tərəfdən həmsədri Samir Şərifovun və Qırğız Respublikası Nazirlər Kabineti sədrinin müavini, Komissiyanın Qırğızıstan tərəfdən həmsədri Bakıt Torobayevin sədrlik etdikləri iclasa hər iki ölkənin müvafiq dövlət qurumlarının səlahiyyətli nümayəndələri qatılıblar.

Əvvəlcə Hökumətlərarası Komissiyanın həmsədrlərinin ikitərəfli görüşü keçirilib, daha sonra müzakirələr Komissiyanın 6-cı iclasında, geniş tərkibdə davam etdirilib.

Tərəflər qardaş və dost xalqlarımızı birləşdirən tarixi-mədəni bağların, iki ölkənin prezidentləri İlham Əliyev və Sadır Japarov arasında mövcud olan mütəmadi siyasi dialoqun, qarşılıqlı səfərlərin ölkələrimizin əlaqələrinin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsində həlledici rol oynadığını vurğulayıblar. Qeyd olunub ki, 2024-2029-cu illəri əhatə edən əməkdaşlıq proqramı ikitərəfli münasibətlərin sistemli şəkildə genişləndirilməsi üçün əsas "Yol xəritəsi" rolunu oynayır.

Son dövrdə ticarət dövriyyəsində artım müşahidə olunur. Belə ki, 2025-ci ilin ilk 10 ayı ərzində ticarət dövriyyəsi ötən ilin eyni dövrü ilə müqayisədə 94 faizdən çox artıb.

İclas zamanı iqtisadi əlaqələrin daha da genişləndirilməsi, ticarət dövriyyəsinin şaxələndirilməsi və işgüzar dairələr arasında əməkdaşlığın dərinləşdirilməsi üçün bir sıra əhəmiyyətli razılaşmalar əldə edilib. Tərəflər Qırğızıstan ərazisində ticarət-logistika mərkəzinin yaradılması imkanlarının araşdırılmasını, biznes missiyalarının təşkilini və məlumat mübadiləsinin gücləndirilməsini, həmçinin COP29 çərçivəsində irəli sürülmüş "Yaşıl keçid" təşəbbüslərində əməkdaşlığı müzakirə ediblər. Habelə investisiya və sənaye sahələrində mühüm əməkdaşlıq istiqamətləri müəyyən olunub.

Görüşdə Azərbaycan–Qırğızıstan İnkişaf Fondunun fəaliyyəti yüksək qiymətləndirilib, birgə investisiya layihələrinin genişləndirilməsi, AZPROMO ilə Qırğızıstan Ticarət-Sənaye Palatası arasında Azərbaycan-Qırğızıstan Biznes Şurasının yaradılması, İssık-Kul gölü sahilində beşulduzlu hotelin tikintisinin dəstəklənməsi, həmçinin kurort şəhərinin yaradılması layihəsinin nəzərdən keçirilməsi kimi məsələlər razılaşdırılıb.

Sənaye zonaları və azad iqtisadi zonalar üzrə təcrübə mübadiləsinin təşkili də tərəflərin diqqət mərkəzində olub. Turizm sahəsində əməkdaşlığın gücləndirilməsi məqsədilə turizm şirkətlərinin əlaqələndirilməsi, birgə turpaketlərin hazırlanması, sərgi və festivallar üzrə məlumat mübadiləsi, sağlamlıq turizmi üzrə əməkdaşlıq kimi istiqamətlər müəyyən edilib. Bakı-Bişkek-Bakı hava reyslərinin turizm axınına müsbət təsiri xüsusi vurğulanıb.

Tərəflər kənd təsərrüfatı sahəsində tərəflər virussuz tinglərin istehsalı üzrə təcrübə mübadiləsi, intensiv balıqçılıq, balıqçılıq və akvakultura sahələrində birgə təlimlər, baytarlıq və fitosanitar nəzarəti üzrə əməkdaşlığın genişləndirilməsi, damazlıq heyvanların ticarəti və aqrosığorta sistemlərinin inkişafı kimi geniş spektrli fəaliyyət istiqamətlərini razılaşdırıblar.

İclasda enerji sahəsində "2024-2025-ci illər üzrə Yol Xəritəsi"nin icrası, SOCAR-la "Qırğızıstanneftegaz" arasında əməkdaşlığın genişləndirilməsi, Qırğızıstanın "Mərkəzi Asiya - Azərbaycan yaşıl enerji dəhlizi" layihəsində iştirakı kimi məsələlər üzrə qarşılıqlı fəaliyyətin davam etdirilməsinə dair razılıq əldə olunub.

Nəqliyyat sahəsində isə tərəflər Orta Dəhlizin rəqəmsallaşdırılması, gömrük prosedurlarının sadələşdirilməsi, Çin-Qırğızıstan-Özbəkistan dəmir yolu layihəsinin region üçün perspektivləri, Bakı limanının imkanlarından istifadə və tranzit keçidlərin artırılması məsələlərini müzakirə ediblər.

Humanitar və təhsil sahələrində, universitetlər arasında əməkdaşlıq, tələbələr üçün illik təqaüd kvotaları, "Study in Azerbaijan" proqramında iştirak, müəllim mübadiləsi, dil mərkəzlərinin yaradılması, akademik araşdırmaların birgə təşkili və kitabxanalararası virtual platformaların yaradılması ilə bağlı fikir mübadiləsi aparılıb.

Daha sonra Komissiyanın 7-ci iclasının Qırğız Respublikasında keçirilməsi barədə razılıq əldə olunub və tarixlərin diplomatik kanallar vasitəsilə müəyyənləşdiriləcəyi bildirilib.

Sonda Baş nazirin müavini Samir Şərifov və Qırğız Respublikası Nazirlər Kabineti sədrinin müavini Bakıt Torobayev Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyanın 6-cı iclasının Protokolunu imzalayıblar.

***XQ***

# Şahin Mustafayevin İran diplomatı ilə görüşü



**Dekabrın 8-də Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev İran İslam Respublikasının xarici işlər naziri Seyid Abbas Əraqçinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Görüşdə Azərbaycan-İran dövlətlərarası münasibətlərinin müxtəlif istiqamətlərdə inkişafı təqdir edilib, xüsusilə ikitərəfli siyasi dialoqun dinamikasından məmnunluq ifadə olunub.

Bu kontekstdə cari ilin aprelində İran Prezidentinin Azərbaycana rəsmi səfərinin iki ölkə arasında tarixən dostluq və mehriban qonşuluq kimi möhkəm təməllər üzərində qurulan ikitərəfli münasibətlərin inkişafında yeni səhifə açdığı vurğulanıb.

Görüş zamanı Azərbaycan-İran qarşılıqlı faydalı əməkdaşlığının gündəliyində duran aktual məsələlər, həmçinin ticarət-iqtisadi, nəqliyyat, enerji, su təsərrüfatı, humanitar və digər sahələrdə əlaqələrin inkişaf perspektivləri müzakirə olunub.

Azərbaycan və İran ərazisindən keçən beynəlxalq nəqliyyat-tranzit dəhlizlərinin inkişafı, o cümlədən regionun tranzit potensialının genişləndirilməsi istiqamətində həyata keçirilən birgə layihələrin icrası ilə bağlı məsələlərə xüsusi diqqət yetirilib.

***XQ***

*Xuntaçıların məhkəməsi*

# Ermənilərin hərbi cinayətlərinə hüquqi qiymət verilir

**Azərbaycan Respublikası Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi dekabrın 8-də davam etdirilib.**





Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) təqsirləndirilən şəxs bildiyi dildə, yəni, rus dilində tərcüməçi, habelə müdafiəsi üçün dövlət hesabına vəkillə təmin olunub.

Hakim Zeynal Ağayev prosesdə ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə və zərərçəkmiş şəxslərin hüquqi varislərinə məhkəmə heyətini, dövlət ittihamını müdafiə edən prokurorları, tərcüməçiləri və s. təqdim edib, habelə onların qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Ardınca zərərçəkmiş şəxslərin ifadələri dinlənilib. Nuran Qasımov ifadəsində Laçında düşmənin ərazilərimizə hücumu nəticəsində ayağından xəsarət aldığını söyləyib. O, dövlət ittihamçısı Vüsal Abdullayevin suallarına cavabında hadisə zamanı ondan başqa yaralananların olduğunu da deyib. Əlimuxtar İbrahimov ifadəsində özündən əvvəl ifadə vermiş N.Qasımovla birlikdə xəsarət aldığını bildirib. O, dövlət ittihamçısı Təranə Məmmədovanın suallarına cavabında diqqətə çatdırıb ki, həmin vaxt ondan başqa da bir neçə şəxs xəsarət alıb.

Pənah Əliyev ifadəsində Laçında düşmən təxribatı nəticəsində başından xəsarət aldığını deyib. O, Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun suallarına cavabında hadisə zamanı bir neçə şəxsin müxtəlif dərəcəli bədən xəsarətləri aldığını bildirib.

Baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin suallarını cavablandıran Əsgər Bəylərov Laçında düşmən təxribatı nəticəsində qapalı kəllə-beyin travması aldığını söyləyib. Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimlinin suallarını cavablandıran Ülvi Rəhimov Laçında düşmənin hücumu nəticəsində qolundan yaralandığını söyləyib.

Dövlət ittihamçısı Fuad Musayevin suallarını cavablandıran Elvin Səlimov Laçında düşmənin ərazilərimizə hücumu zamanı baş nahiyəsindən və əlindən xəsarətlər aldığını söyləyib. Samir Məmmədov da Laçında düşmən təxribatı nəticəsində yaralandığını deyib.

Məhkəmə prosesi digər zərərçəkmiş şəxslərin ifadələrinin elan olunması ilə davam etdirilib. Belə ki, iş üzrə zərərçəkmiş şəxs qismində tanınmış bir qrup şəxs əvvəlki proseslərdə məhkəməyə müraciət ünvanlayaraq iclaslarda üzrlü səbəbdən iştirak edə bilmədiklərini, ibtidai istintaq zamanı verdikləri ifadələrini təsdiqlədiklərini bildirən ərizələr göndəriblər. Ötən məhkəmə iclaslarında tərəflər həmin ifadələrin məhkəmədə elan olunmasına etiraz etməyiblər.

Sənədlərin elan olunması zamanı təqsirləndirilən şəxs Ruben Vardanyan vəsatətlə çıxış edib. O, cinayət işi ilə bağlı bəzi sənədlərlə, o cümlədən sorğularla tanış olmaq istədiyini söyləyib.

R.Vardanyanın müdafiəçisi Emil Babışov vəsatətin təmin olunmasını məhkəmədən xahiş edib. Baş prokurorun böyük köməkçisi Vüsal Əliyev vəsatətə münasibət bildirərək deyib ki, ittiham tərəfi təqsirləndirilən şəxsin müdafiəçisinin və ya onun özünün sözügedən sənədlərlə tanış olmasına etiraz etmir.

Məhkəməyə sədrlik edən Z.Ağayev vəsatətlə bağlı bildirib ki, müdafiə tərəfi bu həftə ərzində həmin sənədlərlə tanış ola bilər və onlara buna dair zəruri şərait yaradılacaq.

Məhkəmənin növbəti iclası dekabrın 9-na təyin olunub.

***XQ***

# Cənubi Qafqazda yeni geosiyasi nizam

(əvvəli 1-ci səhifədə)

Məhz bu səbəbdən, Ermənistanla Azərbaycan arasındakı proses "müzakirə–saziş–tədbir" ardıcıllığı ilə irəliləyə bilmir. Burada həm sosial şüuru dəyişmək, həm də yeni siyasi mədəniyyət formalaşdırmaq lazımdır. Elə buna görə danışıqlarda paralel olaraq akademik dairələr, ekspert platformaları, media və ictimai institutların iştirak etdikləri hibrid model işə salınır. Belə bir model dövlətin siyasi iradəsini vətəndaş cəmiyyətinin yumşaq gücü ilə birləşdirir, cəmiyyəti sülh gündəminə tədricən uyğunlaşdırır və tərəflərin sosial psixologiyası arasında körpü yaradır.

Mövcud reallıq fonunda region nə tam şəkildə postmünaqişə mərhələsindədir, nə də postsülh dönəminə daxil olub. Postmünaqişə vəziyyətindən fərqli olaraq, indi söhbət təkcə atəşkəsin qorunmasından getmir; tərəflər sərhədləri razılaşdırır, iqtisadi əlaqələri genişləndirir, nəqliyyat-kommunikasiya xətlərini açır, uzunmüddətli sabitliyi təmin edəcək institusional çərçivə yaradır. Eyni zamanda, postsülh mərhələsindən fərqli olaraq, emosional konsensus hələ tam formalaşmayıb, xüsusilə Ermənistan cəmiyyətinin yeni reallığı qəbul etməsi vaxt tələb edir.

Deməli, Cənubi Qafqaz hazırda keçid dövrünü yaşayır. Müharibə bitib, lakin sülhün sosial dayaqları yeni qurulur. Siyasi sənədlər mövcuddur, amma onların cəmiyyətlər tərəfindən mənimsənilməsi hələ proses halındadır. Diplomatik iradə var, lakin bu iradənin sosial legitimliyə çevrilməsi üçün ardıcıl dialoq, qarşılıqlı inam və yeni regional davranış kodu formalaşdırılmalıdır. Hazırkı mənzərə regionu klassik postmünaqişə çərçivəsindən çıxarır və onu postsülhün inşasına gedən yeni siyasi mərhələnin astanasına gətirir.

Buradan ikinci sual yaranır ki, bəs regional liderlik anlayışı hansı yeni məsuliyyətlər yaradır? Regional liderlik iddiası Azərbaycanın Cənubi Qafqazda formalaşan yeni geosiyasi nizamda həm imkanlarını, həm də öhdəliklərini genişləndirir. Liderlik regionun təhlükəsizlik, iqtisadi və kommunikasiya balansını dayanıqlı şəkildə tənzimləmə bacarığı kimi başa düşülür. Belə bir durumda Azərbaycan özünü regional nizamın qurucusu və davamlılığının təminatçısı kimi təqdim etməli olur.

Yeni məsuliyyətlərin əsas istiqamətləri isə aydın görünür. Birincisi, iqtisadi tranzitə nəzarət – Şərq–Qərb və Şimal–Cənub koridorlarında Azərbaycanın rolunun artması həm marşrutların təhlükəsizliyini, həm də




region ölkələrinin iqtisadi inteqrasiyasını təmin etməyi zəruriləşdirir. İkincisi, təhlükəsizlik arxitekturasının koordinasiyası – postmünaqişə dövründə Bakı regional təhlükəsizliyin əsas təyinedici aktoruna çevrilib və bunlar həm balanslaşdırıcı siyasət, həm də risklərin idarə olunması mexanizmlərinin yaradılmasını tələb edir. Üçüncüsü, kommunikasiya xətlərinin tənzimlənməsi Azərbaycan üçün regional məsuliyyət xarakteri daşıyır. Nəhayət, sülhün institusionallaşdırılması – davamlı sabitlik qarşılıqlı öhdəlikləri hüquqi və iqtisadi mexanizmlərlə möhkəmləndirməklə mümkündür.

Elə bu kontekstdə Bakının Ermənistana neft və taxıl tranzitini təklif etməsi Azərbaycanın regional liderlik fəlsəfəsini əyani şəkildə nümayiş etdirir: iqtisadi asılılıq yaratmadan qarşılıqlı faydaya əsaslanan əməkdaşlıq modeli qurmaq, rəqabət dinamikasını qarşılıqlı inteqrasiya ilə əvəzləmək və bu yolla siyasi riskləri minimuma endirmək. Bütün bunlar siyasi baxımdan həm Ermənistanın iqtisadi dayanıqlılığının artırılması yolu ilə radikalizmin zəiflədilməsinə, həm də regionda uzunmüddətli sabitliyin rasionallaşdırılmasına xidmət edir. İqtisadi qarşılıqlı asılılıq mexanizmi münaqişə sonrası bölgələrdə sülhü möhkəmləndirməyin ən etibarlı vasitələrindən biri kimi qəbul olunur və Azərbaycan bu modelin Cənubi Qafqaza tətbiqinə çalışır.

Bəs regional kommunikasiyaların açılması geosiyasi xəritəni necə dəyişə bilər? Regional nəqliyyat xətlərinin tam açılması Cənubi Qafqazda geosiyasi xəritəni yenidən çəkir. Zəngəzur dəhlizi 4 böyük geoiqtisadi məkanı birləşdirən strateji arteriya kimi çıxış edir – Mərkəzi Asiya resurs bazarını Xəzər hövzəsi üzərindən Qara dəniz və Aralıq dənizi limanlarına bağlayan, həm Şərq–Qərb, həm də Şimal–Cənub istiqamətlərini eyni anda canlandıran çoxvektorlu şəbəkə. Deməli, Cənubi Qafqaz tədricən marşrutların kəsişməsi nöqtəsindən "iqtisadi hub" modelinə keçir, bu isə regionun geosiyasi çəkisini yüksəldir və onu böyük güclərin rəqabət xəritəsində daha strateji mövqeyə gətirir.

Bütün bunlar sülhü davamlı edə bilərmi? Əlbəttə, regional inteqrasiya sülhü daha davamlı edə bilər, lakin bu proses yalnız infrastrukturun qurulması ilə tamamlanmır. Davamlı sülhün başlıca şərti üçpilləli mexanizmdir: siyasi saziş, iqtisadi inteqrasiya və sosial etimad birlikdə işləməlidir. Zəncirin bir halqası qırıldıqda sistem bütövlükdə sabitliyini itirir.

Hazırda siyasi tərəfdə ciddi irəliləyiş var – danışıqlar ritmi intensivləşib, gündəmdə konkret hüquqi sənədlər mövcuddur. İqtisadi əməkdaşlıq xətti də genişlənməkdədir; tərəflər infrastruktur və logistika məsələlərində daha praqmatik yanaşma nümayiş etdirirlər. Lakin sosial etimad hələ zəifdir və əslində, elə bu da sülhün ən həssas elementidir. Ermənistan cəmiyyətində psixoloji keçidin baş verməsi – yəni sülhü siyasi güzəşt deyil, normal regional həyatın zəruri tələbi kimi qəbul etmək – hələ formalaşmayıb. Məhz buna görə Bakı rəsmi danışıqlarla yanaşı, humanitar və vətəndaş cəmiyyəti kanallarının da işə salınmasını vacib hesab edir.

Xarici aktorların prosesə təsiri nədir? Xarici aktorların Cənubi Qafqaz sülh prosesində rolu ikili xarakter daşıyır: onlar həm vasitəçi, həm də prosesin həssaslığını artıran faktor kimi çıxış edə bilirlər. ABŞ-ın son mərhələdəki diplomatik fəallığı müəyyən mənada effektiv oldu, çünki Vaşinqton regional nizamın formalaşmasında sabitlik və proqnozlaşdırıla bilənlik axtarırdı. Lakin Bakı açıq mesaj verdi: sülh kənardan diktə edilən format deyil və regionun gələcəyi yalnız region dövlətlərinin iradəsinə əsaslana bilər.

Xarici güclərdən gələn bəzi bəyanatlar, xüsusilə də Ermənistanı "psixoloji dəstək" xətti ilə cəsarətləndirməyə hesablanmış ritorika əks-effekt yaradır və danışıqları geri çəkir. Elə bu səbəbdən Bakı ikitərəfli formatı optimal yol kimi seçib. Söhbət üçüncü tərəfin siyasi maraqları ilə yüklənməyən, daha rasionallaşdırılmış danışıqlar modelindən gedir. Maraqlısı budur ki, ABŞ prosesi məhz buna görə irəlilədə bildi: balanslı mövqe saxlandı, tərəflərin maraqları paralel xəttə düşdü və danışıqlarda texniki irəliləyiş əldə olundu. Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev qeyd edib ki, "Vaşinqton Bəyannaməsini tez-tez Cənubi Qafqaz üçün "Kemp Devid sülh modeli" adlandırıram. Əlbəttə, hər bir münaqişə, hər bir geosiyasi kontekst fərqlidir. Amma əminəm ki, bu sazişin təsiri də oxşar olacaq".

Xatırladaq ki, Kemp Devid sazişi Yaxın Şərq diplomatiyasında dönüş nöqtəsi hesab olunur. 1978-ci ildə ABŞ Prezidenti Cimmi Karterin vasitəçiliyi ilə Misir Prezidenti Ənvər Sədat və İsrail Baş naziri Menaxem Begin arasında imzalanan bu sənəd regional təhlükəsizlik arxitekturasının tam yenilənməsi idi. Kemp Devid modelinin əsas xüsusiyyəti iki elementdən ibarət idi: birincisi, tərəflərin uzun illər davam etmiş hərbi-siyasi qarşıdurmadan çıxarılması; ikincisi isə sülhü iqtisadi əməkdaşlıq və qarşılıqlı tanınma prinsipləri ilə möhkəmləndirmək. Məhz buna görə Hikmət Hacıyevin paraleli təsadüfi deyil. O, Kemp Devid modelinin Cənubi Qafqaz üçün mahiyyətini belə izah edir: liderlərin siyasi iradəsi + beynəlxalq təminat + iqtisadi qarşılıqlı asılılıq + təhlükəsizlik mexanizmləri kombinasiyası sülhü geridönməz edən strukturdur. Vaşinqton Bəyannaməsinin də eyni formulu tətbiq etməsi prosesin davamlılıq potensialını artırır.

Cənubi Qafqazda sülh artıq konkret konturları formalaşmaqda olan siyasi reallıqdır. Bu reallıq üç əsas sütuna söykənir və onların hər biri prosesin davamlılığı üçün ayrı-ayrılıqda zəruridir. İlkin olaraq, siyasi razılaşmaların sabitləşdirilməsi. Vaşinqton formatı hər nə qədər müvəqqəti platforma sayılsa da, regional arxitekturanın hüquqi çərçivəsinin əsas elementlərini müəyyənləşdirir. İkincisi, iqtisadi inteqrasiyanın gücləndirilməsi. Sülh real iqtisadi dividendlərlə möhkəmlənir. İqtisadi maraqlar üst-üstə düşdükcə, siyasi risklər azalır.

Nəhayət, üçüncüsü cəmiyyətlərarası etimadın qurulması. Bütün sənədlər və iqtisadi layihələr uzunmüddətli sülh üçün yalnız infrastruktur rolunu oynayır. Əsas məsələ so-



sial–psixoloji baryerlərin aradan qaldırılmasıdır. Ermənistan cəmiyyətinin yeni regional reallığı qəbul etməsi, Azərbaycan cəmiyyətində isə postmünaqişə görüşlərinin postsülh təfəkkürü ilə əvəzlənməsi vacibdir. Azərbaycan diplomatiyasının vurğuladığı kimi, sülh yalnız hökumətlər arasında deyil, xalqlar arasında imzalandıqda davamlı olur.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Avropa İttifaqında güc balansı dəyişir



*(əvvəli 1-ci səhifədə)*

### Miqrasiya böhranı

Miqrasiya böhranı artıq on ildən çoxdur ki, Avropa cəmiyyətinin siyasi gündəmində aparıcı mövzudur. 2015-ci ildən etibarən qitəyə yönələn miqrant axınları sosial gərginlikləri artırdı, təhlükəsizlik narahatlıqlarını yüksəltdi, iqtisadi qeyri-müəyyənliyi dərinləşdirdi və demoqrafik diskussiyaları kəskinləşdirdi. Bu şərait sağ populist hərəkatlara geniş meydan açdı. Sağ qüvvələr özlərini "xalqın səsi" kimi təqdim edərək mərkəz partiyaları "qətiyyətsizlik"də ittiham etdi, sərt miqrasiya xəttini əsas siyasi alternativ kimi göstərdilər. Nəticədə bu gün artıq Parlamentdə formalaşan sağ blok real güc mərkəzi kimi çıxış edir.

Yeni miqrasiya qanunları üzərində müzakirələrdə də ziddiyətlər müşahidə olunur. Əsas çətinlik Avropanın humanitar identiteti ilə dəyişən siyasi reallıqlar arasındakı balanssızlıqdır. Bu kontekstdə ən çox müzakirə olunan məsələlərdən biri "təhlükəsiz üçüncü ölkə" konsepsiyasıdır. Konsepsiyaya görə, sığınacaq axtaran şəxslər onların heç bir bağlılığı olmayan ölkəyə göndərilə bilər və həmin ölkə Aİ tərəfindən təhlükəsiz hesab olunursa, Avropa dövlətləri öz humanitar öhdəliklərini qismən yerinə yetirilmiş sayır.

Bu yanaşma Avropanın onilliklər boyu formalaşdırdığı humanitar imicə ciddi zərbə kimi qiymətləndirilir. Çünki Aİ hər zaman sığınacaq hüququnun qorunmasını öz ideoloji fundamenti kimi təqdim edib. Maraqlıdır, təhlükəsiz ölkə kriteriyaları necə müəyyən ediləcək? Bu ölkələrin siyasi sabitliyi, hüquq sistemi və insan hüquqları üzrə göstəriciləri kim tərəfindən qiymətləndiriləcək?

### Təhlükəsiz ölkələr

"Təhlükəsiz ölkələr" siyahısının təsdiqi də sərtləşdirilən miqrasiya qaydalarının tərkib hissəsidir. Siyahı müəyyən ölkələrdən gələn şəxslərin sığınacaq müraciətlərinin sürətlə rədd edilməsinə imkan yaradır və beləliklə, onların həyatının real təhlükə altında olması fərziyyəsi zəiflədilir. Bu siyasəti ən çox müdafiə edən ölkələrdən biri İtaliyadır.

Çünki Aralıq dənizi vasitəsilə Avropaya daxil olan miqrant yükünün böyük hissəsini təkbaşına daşıyan Roma uzun illərdir miqrasiya təzyiqinin əsas mərkəzi olub. Bu səbəbdən İtaliya daha sərt qaydaların ümum–Avropa səviyyəsində tətbiqini öz milli maraqlarının qorunması kimi qiymətləndirir.

### Sərtləşdirmənin pərdəarxası

Avropada miqrasiya qaydalarını sərtləşdirmək istəyinin arxasında bir-birinə bağlı sosial, siyasi və təhlükəsizliklə əlaqəli çoxsaylı amillər dayanır. Son on ildə qitəyə miqrasiya axınının artması cəmiyyətlərdə narahatlıq yaradıb və seçici davranışını dəyişib. Bir çox avropalı sosial xidmətlərin, mənzil bazarının və səhiyyə sisteminin artan yüklə üzləşdiyini düşünür və bunu siyasi dairələrdən daha sərt nəzarət tələb etməklə əlaqələndirir. Xüsusilə 2015-ci il böhranından sonra formalaşan "miqrasiya yorğunluğu" ictimai rəydə Aİ-nin mövcud mexanizmlərinin effektiv olmadığına dair təsəvvürü gücləndirib.

Təhlükəsizlik məsələsi də prosesdə mühüm rol oynayır. Avropada baş verən bəzi terror hadisələrinin miqrant qrupları ilə əlaqələndirilməsi sərhədlərin açıq qalmasının riskləri barədə müzakirələri artırıb. Yunanıstan və İspaniya kimi ölkələr ədalətli bölüşdürmə mexanizmlərinin işləmədiyini bildirir və sərtləşmənin həm daxili sabitlik, həm də ümum–Avropa nizamı üçün zəruri olduğunu vurğulayırlar. Bu fonu daha da çətinləşdirən amillər arasında Yaxın Şərqdə müharibələr, Afrikada siyasi çevrilişlər və iqlim dəyişmələrinin yaratdığı məcburi köçlər də var.

Aİ rəhbərliyi hesab edir ki, qarşıdakı illərdə yeni miqrasiya dalğaları qaçılmaz olacaq və sərt qaydalar tətbiq edilməsə, Avropanın institusional imkanları bu təzyiqi qarşılaya bilməyəcək.

Əslində, məsələ daha dərindir. Sadə dillə desək, Avropa öz ideoloji əsaslarını yenidən nəzərdən keçirməyə məcburdur. Onilliklər boyu qurulan humanitar narrativ qlobal miqyasda cazibəsini qorusa da, daxili siyasi arxitekturadakı çatlar artıq bu modelin əvvəlki kimi işlək olmadığını nümayiş etdirir. Yeni siyasi reallıq Avropanı bir paradoksun mərkəzinə gətirib, dəyərlər ilə təhlükəsizlik arasındakı tarazlıq daha incə və daha həssas xəttə çevrilib.

Miqrasiya böhranı qitənin liberal siyasətinin ən zəif nöqtəsini üzə çıxardı və göstərdi ki, idealların qorunması ilə sosial stabilliyin saxlanılması arasında sərhəd bəzən qəti addımlar tələb edir. Amma problem ondadır ki, bu addımlar atıldıqca, Avropa özünün ideoloji köklərindən uzaqlaşdığı görüntüsü yaradır və bu görüntü daxildən parçalanmanı artırır, beynəlxalq arenada suallar doğurur.

"Qoca qitə" uzun illər normativ güc kimi fəaliyyət göstərib, yeni gücünü hərbi və ya iqtisadi vasitələrdən çox, dəyərlərə əsaslanan sistemlə təsdiqləyib. Lakin sərtləşdirilən miqrasiya siyasəti, xüsusilə də "təhlükəsiz üçüncü ölkə" kimi mexanizmlər Avropanın özünə yaratdığı bu imici təhlükə altına alır. Bu gün kontinentdə kompromis mədəniyyətinin zəifləməsi yeni bloklaşma dövrünün başlanğıcından xəbər verir.

Beləliklə, proses Avropanın daxili inteqrasiyasını da sual altında qoyur. Əgər siyasi qütbləşmə bu templə dərinləşməyə davam edərsə, federalist və suverenist xətlər arasında qarşıdurma daha da kəskinləşəcək. İttifaq daxilində onsuz da mövcud olan şimal–cənub, qərb–şərq iqtisadi və siyasi parçalanmaları yeni ideoloji bölünmələrlə üst-üstə düşərək inteqrasiyanın gələcəyini daha mürəkkəbləşdirəcək.

***Nəzrin ELDARQIZI***
***XQ***

# "Rəqəmsal müstəmləkəçiliy"ə qarşı ümumtürk qalxanı

## *Dezinformasiya ilə mübarizədə səylər birləşir*

**Müasir dünya nizamının rəqəmsal transformasiyaya uğraması və informasiya texnologiyalarının həndəsi silsilə ilə inkişafı nəticəsində sərhədlər fiziki anlayışdan virtual müstəviyə keçib. Bu, milli dövlətlərin suverenliyi anlayışına tamamilə yeni məzmun qazandırmışdır. Nəzərə alaq ki, informasiya axınının saniyələr içində qlobal ictimai rəyi manipulyasiya etmək, cəmiyyətləri daxildən parçalamaq və hətta siyasi rejimləri dəyişdirmək gücünə malik olduğu indiki mərhələdə informasiya təhlükəsizliyi hərbi təhlükəsizlik qədər kritik əhəmiyyət daşıyır.**

Türk Dövlətləri Təşkilatı müstəvisindəki son proseslər və xüsusilə mediada dezinformasiyaya qarşı vahid regional strategiyanın hazırlanması istiqamətində atılan qətiyyətli addımlar da qlobal çağırışlara, mümkün xaos və anarxiya təmayüllərinə verilən adekvat, strateji reaksiya kimi qiymətləndirilməlidir. Çünki qlobal texnoloji platformaların, transmilli sosial şəbəkə nəhənglərinin milli qanunvericilik bazalarından və yerli tənzimləmə mexanizmlərindən effektiv şəkildə yan keçərək, fəaliyyət göstərmələri suveren dövlətləri, faktiki olaraq, rəqəmsal müstəmləkəçilik təhlükəsi ilə üz-üzə qoymuşdur.

Mövcud reallıq imperativ şəkildə diktə edir ki, yalan məlumat, saxta xəbər və dezinformasiya artıq lokal xarakter daşımaqdan uzaqdır və həmin fenomen həm Şərqə, həm də Qərbə bərabər dərəcədə təsir göstərən, cəmiyyətləri qütbləşdirməyə, dövlət institutlarına etimadı sarsıtmağa və xarici siyasət kurslarını hədəf almağa yönəlmiş qlobal problemdir.

Belə bir şəraitdə, həmçinin, nəhəng platformalar transmilli korporasiyalar kimi fəaliyyət göstərərək, milli hökumətlərin tənzimləmə cəhdlərinə müqavimət göstərir, mövcud alqoritmləri vasitəsilə hansı məlumatın populyarlaşacağını, hansının isə kölgədə qalacağını müəyyənləşdirirlər. Həmin alqoritmik diktatura milli informasiya məkanını qorumaq istəyən dövlətlər üçün ciddi başağrısına çevrilir.

Qırğız Respublikasının Mədəniyyət, İnformasiya və Gənclər Siyasəti Nazirliyinin İnformasiya Siyasəti Departamentinin baş mütəxəssisi Zarina Kalmuratova mövcud vəziyyəti şərh edərkən, dövlətlərin beynəlxalq rəqəmsal platformalarda məlumatların yayılması miqyasına qarşı həssaslığını xüsusi qeyd edir və o, "Euronews" telekanalına müsahibəsində "YouTube" və "Instagram" kimi çoxsaylı platformaların mövcudluğunu, orada müxtəlif şəxslərin yalan məlumatlar yaydıqlarını və dövlətlərin bununla bağlı təsirli tədbirlər görə bilmədiklərini vurğulamışdır.

Z.Kalmuratovanın şərhi əsas problemi, yəni məzmunun hansısa ölkənin yurisdiksiyasından kənara çıxan qlobal platformalar vasitəsilə yayıldıqda milli qanunların tətbiqinin çətinliyini qabardır və durum




Qırğızıstan üçün də keçərlidir. Ona görə də orada məhdudiyyətlər xüsusilə kəskin xarakter daşıyır. Ancaq təkbaşına heç bir dövlət həmin rəqəmsal nəhənglərlə bərabər səviyyədə danışıqlar aparmaq və onları milli qaydalara tabe etdirmək gücündə deyil. Deməli, Türk Dövlətləri Təşkilatının kollektiv gücü və vahid strategiyası həlledici amil kimi meydana çıxır. Axı yüz yetmiş milyondan çox əhalini əhatə edən vahid rəqəmsal bazarın tələbləri texnoloji şirkətlər tərəfindən gözardı edilə bilməz.

Dezinformasiya ilə mübarizədə vahid strategiyanın formalaşdırılması prosesi spontan şəkildə yaranmamışdır və təşəbbüs son illərdə keçirilən ardıcıl, məqsədyönlü toplantıların məntiqi nəticəsidir. Belə ki, prosesin institusional təməli təşkilata üzv dövlətlərin media və informasiya üzrə məsul nazirlərinin və yüksək vəzifəli şəxslərinin iştirakı ilə reallaşan toplantılarda qoyulmuşdur. Bu baxımdan xüsusilə Bakıda keçirilən görüşlər – Türk Dövlətləri Təşkilatının Media və informasiya üzrə işçi qrupunun on ikinci iclası və nazirlərin yeddinci konfransı vurğulanmalıdır. Adıçəkilən tədbirlər fərqli siyasi sistemlərə malik ölkələr arasında vahid media siyasətinin işlənib hazırlanmasını hədəfə çevirmişdir.

Həmin təşəbbüs olduqca mürəkkəb sualları gündəmə gətirir. Bunlardan ən vacibi haqlı tənqid məkanını məhdudlaşdırmadan vətəndaşların saxta xəbərlərdən mühafizəsininin təşkili, dövlətlərin qlobal platformalara təsir imkanlarının artırılması və regional formatın ayrı-ayrı ölkələrin təkbaşına həll edə bilmədiyi problemləri nizamlamasıdır.

Əvvəlki dövrlərə nəzər saldıqda, 2022-ci ilin mayında İstanbulda düzənlənən Türk Dövlətləri Təşkilatının Media və İnformasiya üzrə Məsul Nazirlərin və Yüksək Vəzifəli Şəxslərin dördüncü toplantısı strateji yol xəritəsinin cızılmasında mühüm rol oynamışdır. Həmin toplantıda Türkiyə Respublikası Prezidenti Administrasiyasının Kommunikasiya İdarəsinin sədri Fəxrəddin Altun tərəfindən irəli sürülən "Həqiqət uğrunda mübarizə" doktrinası Türk dünyasının dezinformasiya ilə mübarizəsinin ideoloji bazasını formalaşdırmışdır.

Fəxrəddin Altun qlobal media inhisarlarının yaratdığı rəqəmsal faşizmə qarşı birgə müqavimətin vacibliyini vurğulayaraq, ortaq kommunikasiya modelinin yaradılmasını təklif etmişdir. Prosesin davamı olaraq 2023-cü ilin əvvəlində Daşkənddə və daha sonra Bişkekdə keçirilən işçi qrupu görüşləri niyyətlərin konkret sənədlərə və fəaliyyət planlarına çevrilməsini təmin etmişdir.

Qırğızıstanın paytaxtında təşkil olunan Rəqəmsal İnkişaf Forumu çərçivəsində Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüraliyev rəqəmsal əsrin yalnız təhdidlərlə məhdudlaşmadığını, həm də əməkdaşlıq üçün yeni imkanlarla dolu olduğunu qeyd edərək texnoloji inteqrasiyanın vacibliyini ön plana çəkmişdir.

*(ardı 8-ci səhifədə)*

# Cənub qonşumuzla münasibətlərin önəmi yüksəlir

*Qarşılıqlı faydaya, ortaq maraqlara əsaslanan Azərbaycan–İran əməkdaşlığı*



**Siyasi proseslərin sürətlə dəyişdiyi Cənubi Qafqazda bir çox dövlətlər dialoq kanallarını bərpa etmək üçün müxtəlif formatlar sınaqdan keçirsə də, son aylarda regionda ən real yaxınlaşma məhz Azərbaycan–İran xəttində müşahidə olunur. Çünki bu proseslərin arxasında həm Tehranda yeni siyasi idarəetmə fəlsəfəsinin formalaşması, həm də Bakının uzun müddətdir təmkinlə qoruduğu konstruktiv qonşuluq kursu dayanır. Elə buna görə də ötən ilin iyulundan, İranda Məsud Pezeşkianın Prezident seçilməsindən bu yana qarşılıqlı hörmətə və etimada əsaslanan münasibətlərin inkişafı daha sistemli və ardıcıl xarakter almağa başlayıb.**

Məsud Pezeşkianın seçki kampaniyası dövründə səsləndirdiyi mesajlar, ardınca regional siyasətdə "sakitləşdirici ton" yaratmaq cəhdləri Azərbaycan–İran xəttinə əlavə dinamika gətirdi. Bu, Bakı–Tehran xətti üçün yeni siyasi pəncərənin formalaşmasına etibarlı zəmin yaratdı. Tərəflər emosional ritorikanı kənara qoyub, praqmatik əməkdaşlıq modelinə keçmək imkanı qazandılar. Üstəlik, onun bu il aprelin 28-də Bakı səfəri tərəflərin gələcək əməkdaşlıq modelinin əsas konturlarını müəyyənləşdirdi. Tehran və Bakı bu ziyarəti yeni siyasi dövrün başlanğıcı kimi qiymətləndirdi. Səfər çərçivəsində Prezident İlham Əliyev mətbuata bəyanatında İran Prezidentinin Bakıya gəlişini "dostluq və qardaşlığın yüksək səviyyədə təzahürü" kimi qiymətləndirdi, imzalanan sənədlərin iki ölkə münasibətlərinə yeni siyasi məzmun verdiyini xüsusi vurğuladı. Eyni gün keçirilən Azərbaycan–İran biznes forumunda imzalanan birgə Bəyanat, ticarət, nəqliyyat və energetika üzrə sənədlər göstərdi ki, tərəflər artıq sadəcə gərginliyi azaltmağı yox, iqtisadi inteqrasiyanı dərinləşdirməyi hədəfləyirlər. Elə həmin forumda 2025-ci il iki ölkə arasında rəsmi olaraq "Azərbaycan–İran İli" kimi qeyd edilməyə başlandı.

Məhz belə bir mərhələdə İranın xarici işlər naziri Abbas Əraqçinin ötən gün Bakıya səfəri gündəliyi növbəti dəfə aktuallaşdırdı. Çünki səfərin məzmunu göstərdi ki, münasibətlər sadəcə bərpa olunmur, həm də yeni mərhələyə qədəm qoyur, daha dərinə gedən əməkdaşlıq mexanizmləri formalaşır və hər iki paytaxt bundan sonrakı prosesləri strateji planlama səviyyəsində koordinasiya etməyə hazırdır. İlk olaraq Prezident İlham Əliyevin qəbulunda olan İran XİN başçısı səfərin əhəmiyyətini xüsusi vurğulayaraq məmnunluğunu ifadə etdi. Elə görüş zamanı dövlət başçısının səsləndirdiyi fikirlər də Tehranla əlaqələrin artıq aktiv fazaya keçdiyini açıq şəkildə göstərdi. Prezident qeyd etdi ki, xalqlarımızın tarixi birlik xətti bu gün daha praqmatik əməkdaşlıq müstəvisinə çevrilib və Məsud Pezeşkianın hakimiyyətə gəlişindən sonra əlaqələrin intensivləşməsi xüsusi məmnunluq doğurur.

Əraqçinin səfəri, bir tərəfdən, Tehranda hazırkı hökumətin Azərbaycanla münasibətləri prioritet elan etməsinin real nəticəsi kimi dəyərləndirilir. Digər tərəfdən isə bu səfər yeni siyasi komandanın Cənubi Qafqazda güc balansı yaratmaq yox, sabitlik formalaşdırmaq istəyini nümayiş etdirir. Bu, xüsusilə də ABŞ vasitəçiliyi ilə Azərbaycan və Ermənistan arasında imzalanmış sülh sazişi, regionun tranzit xəritəsini yenidən müəyyən edən TRIPP və İran və Rusiyanın kənara sıxışdırılması ilə bağlı narahatlıqlar fonunda daha qabarıq görünür. Tehran bu reallıqda özünü proseslərin kənarında qalan oyunçu kimi yox, Azərbaycanla əməkdaşlıq üzərindən yeni geosiyasi koordinatlar quran tərəfdaş kimi təqdim etməyə çalışır.

İranın xarici işlər naziri Abbas Əraqçinin həmkarı Ceyhun Bayramovla görüşü də öz məzmununa görə kifayət qədər məhsuldar xarakter daşıdı. Nazirlərin mətbuata açıqlamaları göstərir ki, nəqliyyat layihələrindən enerji sahəsində əməkdaşlığa, iqtisadi platformalardan regional təhlükəsizlik formatlarınadək demək olar ki, bütün istiqamətlər üzrə artıq konkret yol xəritələri formalaşdırılıb. Ceyhun Bayramov çıxışında bildirdi ki, iki ölkə arasında ticarət dövriyyəsi 2024-cü ildə 650 milyon dollara çatıb, cari ilin ilk on ayında isə 520 milyon dollarlıq ticarət həcmi qeydə alınıb. Nazir həmçinin əlavə etdi ki, mövcud rəqəmlər real potensialı tam əks etdirmir və ticarət həcminin daha da artırılması istiqamətində ardıcıl addımların atılması nəzərdə tutulur.

Bu hədəfin arxasında konkret infrastruktur layihələri dayanır. Araz çayı üzərində inşa olunan Ağbənd–Kəlalə avtomobil körpüsü həmin layihələr içində xüsusi çəkisi olan simvolik obyektə çevrilib. Körpünün inşası 2022-ci ildə imzalanmış hökumətlərarası Sazişə əsaslanır və Azərbaycanın Zəngilan rayonu ilə İranın Qolestan vilayətini birləşdirən yeni tranzit xətt kimi nəzərdə tutulur. Azərbaycan tərəfi körpünün texniki işlərinin 2025-ci ilin sonunadək başa çatacağını, gömrük-keçid məntəqələrinin isə gələn ilin birinci rübündə tam hazır olacağını açıqlayıb. İranın Bakıda səfiri Möctəba Dəmirçilunun körpünün Novruz bayramına qədər istismara veriləcəyi barədə fikirləri də layihəyə verilən xüsusi önəmi göstərir. Faktiki olaraq bu keçid həm Azərbaycan–İran ticarətini, həm də Azərbaycan–İran–Rusiya tranzit xəttini gücləndirən "Araz dəhlizi"nin əsas halqalarından birinə çevrilir.

Əlaqələrin emosional-siyasi zərbəsini yumşaldan məqam isə Əraqçinin başçılıq etdiyi nümayəndə heyətinin Bakıya səfəri çərçivəsində Şəhidlər Xiyabanına gələrək Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda canından keçmiş Vətən övladlarının xatirələrini ehtiramla yad etməsi oldu. Bu, 2023-cü ildə Azərbaycanın Tehrandakı səfirliyinə silahlı hücumdan sonra yaralanmış etimad böhranını arxada qoymaq istiqamətində atılan addımların məntiqi davamı kimi dəyərləndirilə bilər. Onu da bildirək ki, həmin hücumu törədən şəxsin bu ilin mayında İranda edam edilməsi, hadisəyə hüquqi-siyasi qiymət verilməsi gərginliyin dərinləşməsinin qarşısını aldı və dialoqun bərpasına zəmin yaratdı.

Nəticə etibarilə, Pezeşkian dövrü Azərbaycan–İran münasibətlərinə yeni siyasi çalar gətirib. Əvvəllər gərginlik və qarşıdurmanı qidalandıran ritorikanın yerini getdikcə praqmatik yanaşma, qarşılıqlı maraqları nəzərə alan dialoq və regiondakı böyük güclərin yaratdığı riskləri birgə idarə etmək cəhdi tutur. Əraqçinin Bakı səfəri də təsdiqlədi ki, iki paytaxt bu gün Cənubi Qafqazda sabitlik arxitekturasının əsas dayaqlarından birinə çevrilmək niyyətini konkret addımlarla möhkəmləndirir. Əgər bu dinamika ardıcıllıqla davam edərsə, yaxın illərdə Azərbaycan–İran xətti təkcə ikitərəfli əməkdaşlığın uğur nümunəsi kimi yox, həm də regionda formalaşan yeni təhlükəsizlik və tranzit modelinin strateji sütunlarından biri kimi dəyərləndiriləcək. Artıq diqqət tərəflər arasında etimadın səviyyəsinə deyil, mövcud geosiyasi fürsət pəncərəsindən maksimum necə faydalanacaqlarına yönəlir.

***Tacir SADIQOV***
***XQ***

### *Ekspert rəyi*



**Məsiağa MƏHƏMMƏDİ,**
**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin baş məsləhətçisi**

İranın xarici işlər naziri Abbas Əraqçinin Azərbaycana səfəri, ilk növbədə Tehranın Bakı ilə əlaqələrə verdiyi xüsusi əhəmiyyətin göstəricisidir. Bunu səfər ərəfəsində keçirdiyi mətbuat konfransında İran XİN sözçüsü İsmayıl Bəqayi də vurğulayıb. O da qeyd olunmalıdır ki, Abbas Əraqçi Bakıya səfərə gəlməzdən əvvəl Azərbaycanla münasibətlərin İran üçün önəmi barədə ayrıca məqalə yazıb və həmin məqalə rəsmi mətbuatda dərc olunub. Həmin məqalədə o, səfərin ikitərəfli münasibətlərdə yeni və parlaq səhifə açmaq məqsədilə gerçəkləşdiyini vurğulayıb. O, İran-Azərbaycan münasibətlərinin sadəcə qonşuluğa və coğrafi yaxınlığa deyil, çoxəsrlik tarixi ənənələrə, müştərək mədəni irsə və mənəvi dəyərlərə söykəndiyini vurğulayıb. Buna görə o yazıb ki, Bakıya hazırkı səfəri adi diplomatik missiya deyil, iki ölkə arasında tarixi qohumluq bağlarını yeniləmək və möhkəmləndirmək cəhdidir.

Əraqçi həmçinin qeyd edib ki, Qarabağ münaqişəsinin həllindən sonra Cənubi Qafqazda yeni şərait yaranıb, regionda sülh, əməkdaşlıq, təhlükəsizlik və inteqrasiya üçün geniş imkanlar və qızıl fürsətlər meydana çıxıb. Bu imkanlar region ölkələrinin həyati maraqları əsasında kənar qüvvələrin müdaxiləsi olmadan istifadə edilməlidir.

Əraqçinin hazırkı səfərini son aylar, xüsusən İran Prezidenti Məsud Pezeşkianın Azərbaycana səfərlərindən sonra ikitərəfli əlaqələrdə yaşanan pozitiv dinamikanın davamı kimi qiymətləndirmək olar. İki ölkə arasında istər nəqliyyat-logistika, istərsə də iqtisadi-ticarət əlaqələrinin inkişafı istiqamətində mühüm razılaşmalar əldə olunub, burada xüsusən Şimal-Cənub və Araz dəhlizləri ilə bağlı anlaşmalar qeyd olunmalıdır. Əraqçinin səfəri, görünür, həm də bu razılaşmaların icra müstəvisinə daşınmasına dair rəsmi Tehranın əzmini nümayiş etdirmək və təsdiqləməkdir. Lakin aydındır ki, ikitərəfli əməkdaşlıqla bağlı məsələlərin uğurlu həlli xeyli dərəcədə regional proseslərə dair ümumi yanaşma və mövqelərin formalaşmasından asılıdır. Odur ki, səfər zamanı bu yöndə müzakirələrin və fikir mübadiləsinin aparıldığı da şübhə doğurmur.

Regional kontekstdən baxıldıqda, son vaxtlar İranın qonşu ölkələrlə əlaqələrin inkişafına verdiyi önəm xüsusi qeyd olunmalıdır. İrana qarşı tətik mexanizminin (snapback) işə salınmasından sonra Tehran buna sanksiyaların təsirinin azaldılması üçün uzunmüddətli strategiya kimi baxır. Bu çərçivədə son vaxtlar İranın Azərbaycanın Türkiyə və Pakistan kimi müttəfiqləri ilə əlaqələrinin sıxlaşdığını qeyd etmək lazımdır. Yayılan məlumatlara görə, yaxın vaxtlarda Türkiyə prezidentinin İrana səfəri gözlənilir, lap yaxın günlərdə isə İran Prezidentinin Qazaxıstana səfəri baş tutacaq. Bu paradiqma daxilində İranın Azərbaycanla əlaqələri yeni səviyyəyə qaldırmaq səyləri anlaşılandır, eyni zamanda, Azərbaycanın da maraqlarına uyğundur.

# "Rəqəmsal müstəmləkəçiliy"ə qarşı ümumtürk qalxanı

***(əvvəli 7-ci səhifədə)***

Lakin strateji dönüş nöqtəsi kimi, 2024-cü ilin iyul ayında Azərbaycanın mədəniyyət paytaxtı Şuşada keçirilən ikinci Şuşa Qlobal Media Forumunu xüsusi qeyd etmək lazımdır. Yalan məlumatların ifşası və Dezinformasiyaya qarşı mübarizə mövzusuna həsr olunmuş həmin mötəbər tədbirdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyev tərəfindən səsləndirilən fikirlər regional strategiyanın əsas sütununu təşkil edir. Hikmət Hacıyev 44 günlük Vətən müharibəsi və sonrakı antiterror əməliyyatları dövründə Azərbaycana qarşı həyata keçirilən sistemli dezinformasiya kampaniyalarını, psixoloji müharibə elementlərini və informasiya terrorunu konkret faktlarla diqqətə çatdırmışdır və informasiya təhlükəsizliyinin təmin olunmasının hərbi təhlükəsizlik qədər vacib olduğunu vurğulayaraq, Türk dövlətlərini vahid narrativ formalaşdırmağa və hücumçu proaktiv diplomatiya yürütməyə çağırmışdır. Strategiyanın praktiki müstəviyə keçməsində 2023-cü ilin noyabrında İstanbulda keçirilən media sammiti və orada Türk Xəbər Agentlikləri Alyansının təsis edilməsi haqqında qərarın qəbulu inqilabi addım hesab edilməlidir. Çünki Türkiyənin Anadolu, Azərbaycanın AZƏRTAC, Qazaxıstanın Kazinform, Qırğızıstanın Kabar və Özbəkistanın UzA agentliklərinin rəhbərlərinin imzaladığı sənəd xəbər axınının Qərb agentliklərinin filtrindən keçmədən birbaşa mənbədən mənbəyə ötürülməsini təmin edən mexanizmdir.

İndiki dövrdə beynəlxalq ictimai rəy əsasən Qərb mediasının formalaşdırdığı narrativlər əsasında idarə olunur və Türk dövlətləri haqqında yaradılan stereotiplər, erməni lobbisi və ya digər dairələrin yaydığı qərəzli yanaşmalar regionun reallıqlarını təhrif edir. Buna görə də ortaq televiziya kanallarının, rəqəmsal resursların və kinematoqrafiya məhsullarının yaradılması Türk dünyasının həqiqətlərini, mədəni zənginliyini və siyasi mövqeyini dünyaya alternativsiz şəkildə çatdırmağa imkan verəcəkdir. Asadjon Xodjayevin Daşkənddəki çıxışında vurğuladığı kimi, ən mükəmməl texnoloji baryer belə istifadəçi məlumatı analiz etmək qabiliyyətinə malik deyilsə, effektsiz qalacaqdır və strategiya çərçivəsində TDT ölkələrinin təhsil sistemlərinə media savadlılığı fənninin inteqrasiyası, jurnalistlərin ixtisasının artırılması üçün mübadilə proqramlarının genişləndirilməsi və vətəndaş cəmiyyətinin prosesə cəlb edilməsi nəzərdə tutulur. Maraqlı məqam ondan ibarətdir ki, Türk dünyasının həmin təşəbbüsü Qərbə qarşı yönəlmiş bir izolyasiya cəhdi olmaqdan uzaqdır, əksinə, qlobal informasiya məkanının sağlamlaşdırılmasına verilən töhfədir. Çünki yalan məlumat və dezinformasiya bu gün Qərb demokratiyalarını da daxildən sarsıdan, seçkilərə müdaxilə edən və sosial gərginlik yaradan problemdir.

Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə formalaşdırdığı qlobal şəbəkə və Türkiyənin NATO üzvü kimi Qərb mediası ilə əlaqələri TDT-nin səsini həm Qlobal Cənubda, həm də Qlobal Şimalda eşitdirməyə imkan verir və nəticə etibarilə Türk Dövlətləri Təşkilatının mediada dezinformasiyaya qarşı hazırladığı regional strategiya sadəcə texniki tənzimləmə və ya bürokratik prosedur toplusu çərçivəsindən kənara çıxır. Həmin sənəd XXI əsrin hibrid müharibələrində sağ qalmaq, milli suverenliyi qorumaq və gələcək nəsillərə sağlam informasiya mühiti ötürmək üçün hazırlanan təhlükəsizlik doktrinasıdır və qlobal texnoloji platformaların nəzarətsiz hökmranlığına və alqoritmik imperializmə qarşı milli dövlətlərin təkbaşına müqavimət göstərməsi getdikcə qeyri-mümkün hala gəlir. Yalnız birgə iradə, Hikmət Hacıyev, Fəxrəddin Altun, Kubanıçbek Ömüraliyev və digər rəsmilərin nümayiş etdirdiyi strateji baxış rəqəmsal əsrin yaratdığı təhdidləri neytrallaşdıra bilər.

Bütün bu proseslərin fonunda Türk Dövlətləri Təşkilatının təşəbbüsü ilə yaradılan vahid informasiya strategiyası təkcə bir müdafiə mexanizmi olaraq qalmır, həm də gələcəyin informasiya cəmiyyətinin formalaşmasında mühüm rol oynayacaq proqressiv model kimi çıxış edir. Şuşada keçirilən forumda iştirak edən qırx doqquz ölkənin nümayəndələri, o cümlədən beynəlxalq media ekspertləri və strateji araşdırma mərkəzlərinin rəhbərləri Türk dünyasının bu təşəbbüsünü diqqətlə izləyir və bu təcrübədən yararlanmaq istəyirlər ki, bu da TDT-nin qlobal arenada artan nüfuzunun və təsir gücünün bariz göstəricisidir. Xüsusilə vurğulamaq lazımdır ki, rəqəmsal platformaların milli dövlətlərin suverenliyinə meydan oxuduğu bir dövrdə Türk dövlətlərinin bu birgə addımı digər regional təşkilatlar üçün də nümunə təşkil edə və gələcəkdə qlobal rəqəmsal idarəçilik sisteminin formalaşmasına təsir edə biləcək mühüm amilə çevrilə bilər.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Paşinyan katalikosun toxunulmazlığına son qoyur

*Kilsə siyasi alət mövqeyindən dini inanc statusuna qaytarılır*

**Ermənistanda kilsə ilə hakimiyyət arasında 2020-ci ilin sonundan başlayan ziddiyyətlər son aylarda daha açıq və kəskin mərhələyə qədəm qoyub. Lakin prosesi diqqətlə izlədikcə, aydın görünür ki, baş nazir Nikol Paşinyan siyasi meydanda təşəbbüsü ələ alıb. O, həm dövlət strukturlarının verdiyi rıçaqları, həm ictimai rəyin dəstəyini, həm də beynəlxalq tərəfdaşların mövqelərini öz xeyrinə yönəldərək kilsə rəhbərliyinə qarşı mübarizədə üstünlük qazanıb. Paşinyanın ardıcıl və nəzarətli addımları fonunda kilsə strukturlarında parçalanma, mövqe anlaşılmazlığı və müqavimət zəifliyi açıq şəkildə hiss olunur. Bu gün Ermənistanda prosesləri diktə edən tərəf kilsə yox, məhz hökumətdir və Paşinyan mövzunu öz siyasi gündəminin bir parçasına çevirərək əvvəlkindən daha güclü situasiya yaradıb.**



Bunun ən bariz göstəricisi noyabrın 27-də bir qrup yepiskor və arxiyepiskopun Paşinyanla görüşməsi, iki gün sonra isə həmin din xadimlərinin bütün ermənilərin katolikosu, patriarx II Qaregini istefaya çağıran bəyanat imzalamaları oldu. Aydın görünür ki, kilsə daxilində fikir birliyi mövcud deyil. Dekabrın 7-də isə Ermənistan prezidenti Vaaqn Xaçaturyan, parlament sədri Alen Simonyan, səhiyyə naziri Anait Avanesyan, xarici kəşfiyyat xidmətinin rəhbəri Kristine Qriqoryan, hakim "Mülki müqavilə" fraksiyasının rəhbəri Ayk Koncoryan və iqtidarı təmsil edən deputatlar baş nazir Paşinyanla birlikdə Gümrüdəki Müqəddəs Məryəm ana kilsəsinə gəliblər. Bir müddət öncə Paşinyanla görüşən və katolikos II Qareginə qarşı çıxış edən bir neçə arxierey də liturgiyada iştirak edib. Onların arasında Ararat yeparxiyasının rəhbəri, arxiyepiskop Navasard Kçoyan, Masiatsotn yeparxiyasının rəhbəri, yepiskop Gevork Saroyan, Erməni Apostol Kilsəsinin Baltikyanı ölkələrdəki yeparxiyasının rəhbəri, arxiyepiskop Vazgen Mirzəxanyan, kilsənin Armavir yeparxiyasının rəhbəri, yepiskop Sion Adamyan da olub. Mərasimi Erməni Apostol Kilsəsinin Armavir yeparxiyasının ruhanisi, keşiş Mkrtıç Muşadyan aparıb.

Bu arada N.Paşinyan erməni kilsələrində Ermənistan dövlət bayraqlarının asılmasını təklif edib. O, bu istiqamətdə fikirlərini sosial şəbəkədə canlı yayımda zamanı açıqlayıb. Paşinyan bildirib ki, belə təcrübə bir çox ölkələrdə mövcuddur və bayraq həm girişdə, həm də kilsənin interyerində asıla bilər. O, həmçinin bazar günü ibadətlərindən əvvəl dövlət himninin oxunması təklifini təkrarlayıb. Baş nazirin sözlərinə görə, bu təşəbbüs "ali dövlət"ə istinadla başlayan liturgiyanın mətni ilə uyğun gəlir. Paşinyanın fikrincə, himnin ifası "ali" və "dünyəvi" dövlətlər arasındakı əlaqəni vurğulamalıdır.

Nikol, dünən, həmçinin erməni apostol kilsəsinin "bərpası" üzrə yol xəritəsi təklif edib. O, "Facebook" səhifəsində yazıb: "Ktriç Nersisyanın vəzifədən kənarlaşdırılmasından sonra erməni apostol müqəddəs kilsəsinin bərpası üzrə yol xəritəsi hazırlanıb. Katolikosluğun müvəqqəti rəhbərinin seçilməsi kilsənin qüvvədə olan mexanizmlərin məntiqinə uyğun şəkildə həyata keçirilməlidir. Kilsənin qayda kodeksi qəbul ediləcək. Burada aşağıdakılar əks olunmalıdır:

– EAK ruhanilərinin dürüstlük qaydaları və onların təminat mexanizmləri;

– EAK-ın maliyyə şəffaflığı və onun təminat mexanizmləri;

– EAK-ın apolitik olması zərurəti və onun təminat mexanizmləri;

– EAK fəaliyyətinin Ermənistanın vergi qanunvericiliyinə uyğunluğu və onun təminat mexanizmləri.

Öz növbəsində, Ermənistan Respublikasının qanunvericiliyi zəmanət verəcək ki, EAK fəaliyyətindən əldə edilən və dövlət büdcəsinə ödənilən vergi və rüsumlar tam şəkildə geri qaytarılacaq. Ruhanilər üçün elə sosial təminatlar və onların təminat mexanizmləri müəyyən olunmalıdır ki, onlar yığım pensiya sistemi, gəlir vergisinin qaytarılması, sosial kreditlər və ümumi tibbi sığorta imkanlarından tam şəkildə yararlana bilsinlər". Paşinyan sonda qeyd edib ki, bütün ermənilərin katolikosunun seçilməsi yeni qayda kodeksinə uyğun həyata keçiriləcək.

***

Eçmiədzin ana taxtının isə dekabrın 10-12-də katolikos II Qareginin rəhbərliyi altında keçirilməsi planlaşdırılan arxiereylər şurasının iclasını təxirə saldığı məlum olub. Bu barədə kilsənin yaydığı bəyanatda bildirilib. Eçmiədzin bunu "ruhanilərə qarşı repressiyalarla" əlaqələndirib. "Ermənistandakı vəziyyəti, xüsusən də ruhanilərə qarşı repressiyaları (həbslər də daxil olmaqla) nəzərə alaraq və yepiskopların xahişinə cavab olaraq, bütün erməni katolikosunun rəhbərliyi altında arxiereylər şurasının iclası müvəqqəti olaraq təxirə salınıb", – deyə bəyanatda bildirilib. Qeyd edək ki, iclasın çağırılması qərarı II Qareginin təşəbbüsü ilə qəbul edilmişdi. Onu da bildirək ki, arxiereylər şurası xristian kilsəsinin ən qədim idarəetmə qurumlarından biridir və erməni apostol kilsəsinin iyerarxik taxtlarının yepiskoplarını birləşdirir.

Dünən, həmçinin Kilikiya Böyük Evinin katolikosu I Aram yenə də katolikos II Qareginə qahmar çıxıb. O, Kipr Respublikasına səfəri zamanı Ermənistan hakimiyyətini "kilsənin daxili işlərinə qarışmamağa və parçalanma toxumu səpmək cəhdlərindən çəkinməyə" çağırıb. Bəyanatda erməni apostol kilsəsini xarici və daxili təhdidlərdən qorumağın milli prioritet olduğu bildirilib. I Aram qeyd edib ki, son aylarda Eçmiədzin ana taxtı ətrafında baş verən narahatedici hadisələri yaxından izləyir, vəziyyəti sakitləşdirmək və kilsə daxilində parçalanmanın qarşısını almaq üçün tərəflər arasında qarşılıqlı anlaşmanı təşviq etmək üçün müxtəlif vasitələrə əl atır. O hesab edir ki, Ermənistan rəhbərliyi kilsənin, millətin və vətənin məhvinə səbəb ola biləcək konstitusiyaya zidd addımlardan imtina etməlidir. I Aram həmçinin, Eçmiədzin ana taxtına müraciət edərək, katolikos II Qareginin ətrafında birləşməyə və kilsənin göstəriş və prinsiplərinə sadiq qalmağa çağırıb.

***

Beləliklə, aydın olur ki, Ermənistanda kilsə-hakimiyyət qarşıdurması artıq sırf dini müstəvini aşaraq dövlətçilik məsələsinə çevrilib. Son ayların gedişatı göstərir ki, Paşinyan bu prosesdə yalnız müdafiə mövqeyində qalmayıb, əksinə, strateji təşəbbüsü ələ keçirərək kilsənin uzun illər toxunulmaz sayılan səlahiyyətlərini ardıcıl şəkildə məhdudlaşdırmağa nail olub. Paşinyanın atdığı addımların mahiyyəti sadədir: dövlətin dünyəvi xarakterini möhkəmləndirmək, kilsənin siyasi prosesləri diktə etmək imkanlarını minimuma endirmək və ictimai rəyin dəstəyi ilə Eçmiədzinin real təsir gücünü azaltmaq.

Bu gün Ermənistan cəmiyyətində kilsəyə münasibətdə inamsızlıq və yorğunluq açıq görünür. Ruhanilərin korrupsiya və intim qalmaqalları, illərdir davam edən maliyyə şəffaflığı problemi və siyasi proseslərə cəlb olunmaları kilsənin əsl simasını ortaya qoyur. Paşinyanın bayraq və himn təşəbbüsü, kilsənin vergi öhdəliklərinin qanuniləşdirilməsi, ruhanilərin dürüstlük kodeksi və apolitiklik mexanizmlərinin yaradılması ilə bağlı təklifləri sadəcə simvolik addımlar deyil, kilsənin, necə deyərlər, dövlət içində dövlət kimi davranmasına son qoymağa yönəlmiş planlı siyasətdir.

### *Ekspert rəyi*



**İlyas HÜSEYNOV,**
**politoloq**

Mövcud proseslər göstərir ki, Paşinyan kilsəyə qarşı mübarizədə siyasi üstünlüyü tam şəkildə ələ alıb. Kilsənin zəif tərəflərini – daxili parçalanma, maliyyə qeyri-şəffaflığı və siyasi fəaliyyəti sistemli şəkildə hədəfə alan hökumət bu gün təşəbbüsün yeganə sahibidir. Yol xəritəsi kilsənin dövlət içində paralel institut kimi möhkəmlənməsinə son qoyur və onu sırf dini struktura çevirir. Eçmiədzin isə hələlik strategiya ortaya qoya bilmir, bəyanatlarla kifayətlənir və müdafiə mövqeyi tutmaqla kifayətlənir. Reallıq budur ki, Ermənistanda kilsə-hakimiyyət balansı pozulub və bu balansın yeni istiqamətini Paşinyan müəyyənləşdirir.

Katolikosluğun iclası təxirə salaraq "repressiyalar" bəhanəsinə sığınması da situasiyada kilsənin müdafiə mövqeyində olduğunu göstərir. Halbuki real mənzərə başqa cürdür. Kilsə öz daxili böhranını hökumətin üzərinə atmağa çalışır. II Qaregini müdafiə edən I Aramın çağırışları da effekt vermir, çünki Kilikiya katolikosluğunun nüfuzu yoxdur və Ermənistan daxilində baş verən proseslərə təsir imkanları məhduddur. Bütövlükdə götürdükdə Paşinyanın apardığı xətt dövlətin öz legitim funksiyalarını geri alması kimi qiymətləndirilməlidir.

Kilsənin daxilindəki parçalanma, yepiskopların ziddiyyətli mövqeləri və II Qareginə qarşı səslənən çağırışlar Paşinyanın əlini daha da gücləndirir. Bir qrup arxiereyin hökumətlə birlikdə liturgiyada iştirakı isə Eçmiədzinin monolit olmadığını, kilsə daxilində ciddi narazılıq qatının formalaşdığını bildirir. Paşinyanın "kilsənin bərpası üzrə yol xəritəsi" isə açıq şəkildə göstərir ki, o, təkcə mövcud katolikosu deyil, bütün strukturun köhnəlmiş idarəetmə modelini hədəfə alıb. Maliyyə şəffaflığı, apolitiklik, vergi öhdəlikləri, ruhanilərin sosial təminatı və yeni seçki prosedurları kilsəni müstəqil dövlət gücündən çıxarıb, sırf dini institut statusuna qaytarmaq məqsədi daşıyır. Bu isə Eçmiədzin üçün məğlubiyyət kimi görünə bilər, amma dövlət üçün normallaşma deməkdir.

***Səxavət HƏMİD***
***XQ***

# "Enerji gətirən" içkilər, yoxsa sağlamlığa vurulan sağalmaz yaralar?!

## *Qida təhlükəsizliyi üzərində "maye bəla" kabusu*

**Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) son açıqlaması bir daha göstərdi ki, qida təhlükəsizliyi istehsal və idxal nəzarəti məsələsi olmaqla bərabər, həm də ictimai sağlamlığı, xüsusilə də gənc nəslin sağlamlığına birbaşa zərbə vuran kompleks sahədir. Agentliyin ölkəyə idxal edilən "Nitro Max" enerji içkilərində qanunvericiliklə istifadəsinə icazə verilməyən sildenafil maddəsinin aşkarlandığını bildirməsinin həm ekspertlər, həm də adi vətəndaşlar arasında ciddi narahatlıq yaratması məhz bunun bariz nümunəsidir.**




AQTA mütəxəssislərinin müəyyənləşdirdiyi uyğunsuzluqlar nəticəsində ümumi sayı 4 min 800 ədəd olan məhsulun xüsusi poliqonda məhv edilməsi inzibati tədbir olmaqla yanaşı, həm də ölkədə qida təhlükəsizliyi sisteminin işləkliyinin və təhlükələrə operativ reaksiyasının göstəricisidir. Lakin məsələ bununla bitmir. Bu, eyni zamanda, diqqəti daha geniş ictimai problemə – enerji içkilərinə olan marağın sürətlə artmasına, onların tərkibindəki təhlükəli maddələrə və ən əsası, tələb-təklif balansını diktə edən sosial davranışlara yönəldir.

Tibb mütəxəssislərinin bildirdiklərinə görə, "Nitro Max" enerji içkilərinin tərkibindəki sildenafil maddəsi müəyyən klinik vəziyyətlərdə həkim nəzarəti altında istifadə olunan dərman vasitəsidir. Onun təsirsiz, təhlükəsiz və ya adi bir qida əlavəsi kimi qəbul olunması kökündən yanlış yanaşmadır. Preparat qan dövranına, ürək-damar sisteminə və orqanizmin təbii fizioloji reaksiyalarına ciddi təsir göstərir. Ümumiyyətlə, enerji içkiləri yüksək dozada kofein – 100 millilitrdə 30-50 milliqram olan stimullaşdırıcıların konsentrat kokteylidir. Mütəxəssislər qeyd edirlər ki, belə içkinin bir bankası espressoya (ikiqat üyüdülmüş qəhvə dənələrindən yüksək təzyiq altında qaynar su keçirilməklə hazırlanan, sıx və aromatik italyan qəhvəsi) bərabərdir.

Ekspertlər bildirirlər ki, həkim nəzarətindən kənar qəbul edilən sildenafil isə arterial təzyiqin qəflətən enməsi, ürək ritminin pozulması, görmə və eşitmə qabiliyyətinin zəifləməsi, həyati təhlükəli infarkt və insult risklərinin artması, allergik şok kimi ağır fəsadlarla nəticələnə bilər. Enerji içkilərinin tərkibində belə bir maddənin aşkarlanması isə ikiqat təhlükəlidir. Çünki istehlakçı məhsulun tərkibində bu maddənin olduğunu bilmir. O, içkini, adətən, özünün fiziki gərginlik, yorğunluq və zəiflik anlarında, başqa sözlə, orqanizmin ən həssas vaxtında qəbul edir. Bu fakt ölkədə idxal nəzarətinin vacibliyini və hər bir məhsulun laborator müayinədən keçməsinin nə qədər həyati əhəmiyyət daşıdığını bir daha diqqətə çatdırır.

Bəs enerji içkilərinin geniş istehlakçı rəğbəti qazanması nə ilə bağlıdır? Ekspertlər vurğulayırlar ki, uzun illərin xəbərdarlığına baxmayaraq, bu məhsulların alıcıları azalmaq əvəzinə, getdikcə artır. Bunun əsas səbəblərindən biri müasir həyat ritminin insanlardan daha çox fiziki və psixoloji enerji tələb etməsi ilə əlaqədardır. Başqa sözlə, yüksək sosial nəticə gözləntiləri insanlarda qısamüddətli enerji əldə etmək istəyi yaradır. Bundan savayı, istehsalçı tərəfindən enerji içkiləri istehlakçılara "güc", "sürət", "fəallıq", "davamlılıq" kimi mesajlarla təqdim edilir. Reklamlarda idmançılar, məşhurlar və gənclərdən istifadə olunması isə məhsulun, necə deyərlər, cazibəsini daha da artırır.

Təsadüfi deyil ki, bir sıra dövlətlərdə, o cümlədən Danimarka, Fransa, Norveç, Avstriya və Yeni Zelandiyada enerji içkilərinin satışı tamamilə dayandırılıb. Yeri gəlmişkən, bu ölkələrdə enerji içkiləri "ölüm kokteyli" adlandırılıb. AQTA-nın qüvvədə olan "Enerji içkiləri üçün müvəqqəti sanitar normalar və qaydalar"ında bu məhsulların yalnız 18 yaşdan yuxarı şəxslərə satılması qərara alınıb. Amma buna baxmayaraq, yeniyetmələrin supermarketlərdə sərbəst şəkildə enerji içkiləri almalarına indiyədək heç bir qadağa qoyulmayıb. Eyni zamanda, belə bir vəziyyət həm adi vətəndaşlar, həm də dövlət məmurları üçün hər zaman ciddi narahatlıq mənbəyinə çevrilib. Həkimlər tərəfindən çox miqdarda enerji içkiləri qəbulunun qəfil ürək dayanmasına səbəb ola biləcəyi barədə dəfələrlə xəbərdarlıq edilib.

Tədqiqatlar göstərir ki, enerji içkilərinin tərkibindəki güclü maddələrin təsiri ilə beyin fəaliyyətinin həddindən artıq stimullaşdırılması baş verir və onun müntəzəm istehlakı beyindəki neyronları zədələyir. Nəticədə beyin bu cür güclü stresdən xilas ola bilmir və vaxtından əvvəl aşınmaya məruz qalır. Buna görə də psixiatrlar tərəfindən enerji içkilərində istehsalçıdan asılı olaraq dəyişən təhlükəli amfetamin konsentrasiyaları barədə xəbərdarlıq edilir. Bildirilir ki, bu stimulyatorların həddindən artıq istifadəsi kəskin psixoz və sayıqlama (dumanlı şüur, diqqətin, qavrayışın, düşüncənin və emosiyaların pozulması) da daxil olmaqla ciddi ruhi pozğunluqlara gətirib çıxara bilir.

Ekspertlərin müşahidəsinə əsasən, enerji içkisi qəbul etdikdən sonra, həqiqətən, fəallığın artması müşahidə olunur. Lakin 3-4 saatdan sonra kritik mərhələ başlayır, psixiatriyada həddindən artıq narahat yorğunluq adlandırılan bir vəziyyət yaranır, insanın yuxu prosesi pozulur. Enerji içkilərinin asılılıq yaratması isə xüsusilə narahatedicidir. Bu içkilərin tərkibində asılılığa səbəb ola biləcək maddələr – amfetamin, taurin və kofein var. Amfetamin metamfetaminlə, yəni "şüşə" ilə eyni maddə qrupuna aiddir. Yəni əslində, bunlar narkotik birləşmələrdir.

Bu gün enerji içkiləri ilə əlaqədar risklərin ən böyük qurbanı məhz gənclərdir. Onların psixoloji və fizioloji sistemləri hələ tam formalaşmadığı üçün stimullaşdırıcı maddələrə reaksiya daha sərt olur.

Mütəxəssislərin fikrincə, hər hansı qadağaya baxmayaraq, uşaqların asanlıqla enerji içkisi alması bu məsələyə valideyn nəzarətinin zəif olmasından və bu istiqamətdə risklərin artmasından xəbər verir. Müşahidələrə əsasən, yeniyetmələrin enerji içkilərini bəzən "zərərsiz" qazlı içki kimi qəbul etmələri də ciddi narahatlıq doğurur. Bu məsələdə satış məntəqələrinin üzərinə məsuliyyət düşür. Belə ki, qanun 18 yaşından aşağı şəxslərə enerji içkilərinin satışına icazə vermir. Lakin praktika göstərir ki, bu tələb çox zaman formal xarakter daşıyır. Şübhəsiz ki, dövlət tərəfindən nəzarət mexanizmləri də gücləndirilməli, laborator analiz imkanları genişləndirilməli, məhsulların tərkib məlumatlarının şəffaflaşdırılması həyata keçirilməlidir.

AQTA tərəfindən "Nitro Max" energetik içkilərində qanunvericiliklə istifadəsinə icazə verilməyən sildenafil maddəsinin aşkarlanması göstərdi ki, qida təhlükəsizliyi sistemində güclü nəzarət mexanizmləri olsa da, bazarda mövcud risklərin qarşısını almaq üçün daha dərin islahatlara ehtiyac var. Ona görə də enerji içkilərinin tərkibinin və təhlükəsizlik tələblərinin sərtləşdirilməsinə, müxtəlif ölkələrdə qadağan edilən maddələrin siyahısının araşdırılaraq milli qanunvericiliyə inteqrasiya edilməsinə zəruri ehtiyac duyulur.

Beləliklə, bu gün enerji içkiləri bir çox ölkələrdə ictimai sağlamlıq üçün bir nömrəli təhlükələr sırasındadır. Azərbaycanın "Nitro Max"la bağlı tədbirləri göstərir ki, dövlət qurumları qida təhlükəsizliyi ilə əlaqədar istənilən məsələyə məsuliyyətli şəkildə reaksiya verir. Lakin problem təkcə bir məhsulun məhv edilməsi ilə həll olunmur. Bu səbəbdən həm cəmiyyət, həm valideynlər, həm də dövlət qurumları insan sağlamlığı yönündə daha məsuliyyətli davranmalıdır. Qida təhlükəsizliyi mütəxəssis və laboratoriya məsuliyyəti ilə bərabər, eyni zamanda, cəmiyyətin sağlam gələcəyini gerçəkləşdirən strateji prioritetdir.

***Vaqif BAYRAMOV***
***XQ***

*Ekspert rəyi*



**Eyyub HÜSEYNOV,**
**Azad İstehlakçılar Birliyinin sədri**

Qida Təhlükəsizliyi Agentliyi əhalinin sağlamlığını nəzərə alaraq, enerji içkilərinin tərkibinin yaxşılaşdırılması üçün müəyyən standartlar qəbul edib. Bunun nəticəsidir ki, hazırda ölkənin əmtəə bazarına daxil olan bu məhsulların əksər hissəsinin tərkibində təhlükəli, öyrəşdirici maddələr xeyli azalıb. Bununla belə narahatlıq doğuran məsələlər hələ tam aradan qaldırılmayıb. Məsələn, enerji içkilərindən uşaqların da istifadə etməsi hallarına rast gəlinir. Həmin içkilərin qablaşdırması üzərində bu məhsulların 18 yaşına çatmayan uşaqlara və hamilə qadınlara satışı məsləhət görülmədiyi qeyd olunur. Zəifə, xəstə üçün zərərli olan bir içki güclü, sağlam adama xeyir edə bilərmi? Əlbəttə, yox! Ona görə də birmənalı şəkildə enerji içkiləri insanlarda asılılıq yaratmaqla bərabər, həm də onların orqanizmlərini məhv edir.

Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi bu sahədə mühüm addım ataraq, təxminən, 4 il əvvəl enerji içkilərinin yerli istehsalı və xaricdən idxalı üçün standart qəbul edilib. Həmin standart tərkibində asılılıq yaradan maddələrin miqdarının minimuma endirilməsini tələb edir. Ölkədə istehsal olunan və xaricdən gətirilən bu cür içkilər minimum öyrəşdirici maddələrə – taurin, kafein və s. malikdir.

Təsadüfi deyil ki, belə (qazlı, rənglənmiş) içkilərin məktəb bufetlərində satışı da qadağandır. Müəllimlər, valideyn komitələri bu sahədə fəal olmalı və elə etməlidirlər ki, evlərdə bu içkilərin izi olmasın, uşaqlar kiçik yaşlarından belə içkilərə öyrəşməsinlər. Ümumiyyətlə, bütün qazlı və rənglənmiş içkilər arzuolunmazdır.

Beləliklə, az miqdarda enerji içkiləri bədənə nəzərəçarpacaq dərəcədə enerji verə bilər, lakin təsiri qısamüddətlidir. Enerji artımına əlavə olaraq, onlar əhval-ruhiyyənin və ümumi rifahın yaxşılaşmasına kömək edir. İstisna hallarda, təcili ehtiyac yarandıqda, məsələn, uzun müddətli avtomobil idarə edərkən içkinin bir bankasını içmək məqbuldur. Lakin kofein dozasının 200 milliqramdan çox olması ciddi sağlamlıq problemlərinə gətirib çıxarır. Ən çox yayılmış yan təsirlər arasında ürək döyüntüsünün artması və yuxusuzluğun yaranmasıdır. Xüsusilə narahatlıq doğuran məqam bu simptomların yalnız uşaqlarda deyil, həm də enerji içkilərinin yetkin istehlakçılarında baş verməsidir ki, bu da enerji içkilərinin, bütövlükdə, insan orqanizmi üçün potensial təhlükəsini göstərir.

*Ekspert rəyi*



**Məhsəti HÜSEYNOVA,**
**sağlam qidalanma mütəxəssisi**

Enerji içkiləri kimyəvi maddələrdən və vitaminlərdən, eləcə də minerallardan istifadə olunaraq hazırlanır. Bu içkilərin tərkibindəki yüksək şəkər və kofein orqanizmin funksiyalarını pozur. Müvafiq standartlarda istehsal olunan enerji içkiləri də sağlamlığa faydalı deyil. Onların da digər rəngli, qazlı içkilər kimi zərərləri var. Eyni zamanda, təbii olmayan jenşen, yaxud quarana kimi maddələrdən istifadə olunur və içdikdə orqanizmə heç də enerji vermir. Əksinə, orqanizmin günlük enerjisini 10-15 dəqiqə ərzində süni şəkildə "oyadır", aktivləşdirir və bir müddətdən sonra enerji birdən-birə aşağı düşür. Belə olduqda isə insanlarda həmin içkilərə asılılıq yaranır.

Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi enerji içkiləri ilə bağlı mütəmadi araşdırmalar aparır. Təxminən, 30 içkidən nümunə götürülür, yalnız 5-i enerji içkisi standartlarına uyğun olur, digərləri də rəngli, qazlı içkilərdir. Amma onların tərkibində də bu gün satışda olan monopotassium, glutamate adlı maddələr var.

Enerji içkiləri, xüsusilə, 18 yaşa qədər uşaqlarda əqli inkişafın qarşısını alır, yaddaşsızlıq, alzheimer kimi xəstəliklərə səbəb olur. Bu gün məktəblilərdə qazlı, rəngli içkilərə tələbat var. Onların tərkibində süni dadlandırıcılar, kofeinin yüksək olması orqanizmin zəhərlənməsinə, dişlərin çürüməsinə, kalsium əskikliyinə gətirib çıxarır. Ümumiyyətlə, yaşdan asılı olmayaraq bunlardan birdəfəlik imtina etmək lazımdır. Çünki onlardan istifadə edən orta yaşlı insanlar da ürək tutmasından əziyyət çəkir. Enerji içkiləri həddindən artıq şəkərli olduğuna görə qaraciyər piylənməsinə səbəb olur.

Tərkibindəki jenşen cinsi yetişkənlik zamanı düzgün inkişafın qarşısını alır, orta yaşlarda cinsi fəaliyyəti zəiflədir. Bu da gələcəkdə sonsuzluğa, uşaqların xəstə doğulmasına səbəb olur. Bununla yanaşı, daha bir aldadıcı məqam həmin içkilərin tərkibində B qrup vitaminlərin çox olması ilə bağlıdır. Bu, yanlışdır.

Hər bir şəxs normal şəkildə qidalanarsa, bu vitaminləri təbii şəkildə ala bilər. İçkinin üzərində yazılanlar heç də onun tərkibini əks etdirmir, bunlar sadəcə biznes marağı və hiylədir. Xüsusilə hamilə, südverən qadınlar, yeniyetmələr, yaşlılar, diabet xəstəliyi, həzm problemi və böyrək çatışmazlığı olanlar bu içkilərdən uzaq durmalıdırlar.

# Şəhid ailələri və qazilər "YAŞAT" Fondunun himayəsində

**Azərbaycanda şəhid və müharibə əlillərinə diqqət dövlətin sosial siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir. Şəhid ailələrinin və Vətənin müdafiəsində iştirak edən şəxslərin maddi-sosial vəziyyətinin yaxşılaşdırılması vətəndaş cəmiyyətinin də diqqət mərkəzindədir.**

Dövlət davamlı olaraq bu istiqamətdə ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycanda şəhid ailələrinə, qazilərə və müharibədən əziyyət çəkmiş insanlara göstərilən diqqət digər dövlətlər üçün nümunəvi sayıla bilər. Bu istiqamətdə geniş dövlət dəstəyi mexanizmləri formalaşdırılmış, onlar hərtərəfli dövlət qayğısı ilə əhatə olunmuşlar.

Prezident İlham Əliyevin 8 dekabr 2020-ci il tarixli Fərmanı ilə yaradılan "YAŞAT" Fondunun əsas məqsədi şəhid ailələrinin və hərbi əməliyyatlar nəticəsində əlilliyi müəyyən olunmuş şəxslərin sosial müdafiəsi sahəsində dövlət tərəfindən həyata keçirilən tədbirlərə əlavə dəstək verilməsidir.

5 illik fəaliyyətinə dair mətbuat konfransında "YAŞAT" Fondunun rəhbəri, Qarabağ qazisi Elvin Hüseynov hesabat xarakterli təqdimatla çıxış edib. Təqdimatda "YAŞAT" Fondu tərəfindən müvafiq istiqamətlərdə şəhidlərimizin ailə üzvləri və müharibə əlilləri üçün həyata keçirilən dəstək tədbirləri, reallaşdırılan layihələrə dair statistik məlumatlar əks olunub. Bildirilib ki, yarandığı beş il ərzində "YAŞAT" Fondunun büdcəsindən dörd fəaliyyət istiqaməti üzrə 93 milyon 622 min manat vəsait xərclənib.

E.Hüseynovun sözlərinə görə, bu günədək 18 min 566 şəxsin 93 min 897 müraciəti təmin edilib. İndiyədək "YAŞAT" Fondu tərəfindən 67 layihə həyata keçirilib. Həmin layihələrdə 29 min 136 nəfər iştirak edib.

2020-ci il sentyabrın 27-dən sonra dünyaya gələn 120 şəhid övladı ilə bağlı "YAŞAT" Fondu tərəfindən "Onlar bizə əmanət" layihəsi həyata keçirilib. Layihə çərçivəsində yeni doğulmuş şəhid övladlarının zəruri xərclərinin qarşılanması məqsədilə 1000 manat məbləğində maddi yardım edilib və şəhid övladlarının adına 5 min manat məbləğində depozit hesabı açılıb.

Hər iki valideynini itirən 7 şəhid övladının adına 5 min manat məbləğində depozit hesabı açılıb. Bunlara Bərdə və Gəncə terrorunda valideynlərini itirmiş uşaqlar da daxildir.

Fond rəhbəri daha sonra qeyd edib ki, beş il ərzində "YAŞAT" Fondunun büdcəsindən məişət şəraitinin yaxşılaşdırılması istiqaməti üzrə 42 milyon 246 min 250 manat vəsait xərclənib. Məişət şəraitinin yaxşılaşdırılması istiqaməti üzrə şəhid ailə üzvlərinin 5 min 563, itkin ailə üzvlərinin 6 və yaralıların 7 min 37 müraciəti olmaqla, ümumilikdə, 12 min 606 müraciət təmin edilib.




Təhsil, peşə hazırlığı və yaradıcı potensialın inkişafı istiqamətində xərclərin ödənilməsi istiqaməti üzrə Fond tərəfindən xərclənən vəsait 5 milyon 952 min 970 manat təşkil edib. Həmin vəsaitin 1 milyon 381 min 242 manatı yaradıcı potensialın inkişafı üzrə həyata keçirilən layihələr üçün tərəfdaşlar tərəfindən ödənilib.Təhsil, peşə hazırlığı və yaradıcı potensialın inkişafı xərcləri istiqaməti üzrə şəhid ailə üzvlərinin 1 450 və yaralıların 280 müraciəti olmaqla, ümumilikdə, 1 730 müraciət təmin edilib.

Akkreditasiya olunmuş ali təhsil müəssisələrinə qəbul olmuş şəhid ailələrinin üzvlərinə və Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən olunmuş hərbi qulluqçulara "YAŞAT" Fondu tərəfindən birdəfəlik pul mükafatı – 2 min manat təsis edilərək, ümumilikdə, 266 şəxsin (187 şəhid ailə üzvü və 79 müharibə əlili) hesabına vəsait köçürülmüşdür. Müalicə və psixoloji dəstək xərclərinin ödənilməsi istiqaməti üzrə Fond tərəfindən xərclənən vəsait 37 milyon 911 min 765 manat təşkil edib. Belə ki, bu istiqamət üzrə şəhid ailə üzvlərinin 51 min 325, itkin ailə üzvlərinin 4 və yaralıların 25 min 934 müraciəti olmaqla, ümumilikdə, 77 min 263 müraciət təmin olunub.

193 şəxs müalicə edilməsi məqsədilə Türkiyə Respublikasına göndərilib, onlardan 184-ü müharibə əlili, 9-u isə şəhid ailəsi üzvüdür. Hazırda 1 müharibə əlilinin müalicəsi Türkiyə Respublikasında davam edir.

Fond tərəfindən istehlak kreditləri və digər borc öhdəliklərinin qarşılanması istiqaməti üzrə xərclənən vəsait 7 milyon 11 min 408 manat təşkil edib. İstehlak kreditləri və digər borc öhdəliklərinin qarşılanması istiqaməti üzrə şəhid ailə üzvlərinin 918, itkin ailə üzvlərinin 3 və yaralıların 1 379 müraciəti olmaqla, ümumilikdə, 2 min 300 müraciət təmin edilib.

Sözsüz ki, bütün bunlar "YAŞAT" Fondu tərəfindən dövlətimizin humanizm prinsiplərinə, ölkəmizin ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən olunmuş hərbi qulluqçulara və şəhid olmuş şəxslərin ailə üzvlərinə xüsusi həssas münasibətin növbəti əyani təzahürüdür.

***Müşfiq MİRZƏ***
***XQ***

# Ələt Azad İqtisadi Zonası: Azərbaycandan dünyaya açılan böyük qapı

## *Şərq–Qərb və Şimal–Cənub dəhlizləri bu ünvanda qovuşur*



**Hazırda dünya iqtisadiyyatında gedən geosiyasi və texnoloji dəyişikliklər fonunda Azərbaycan öz inkişaf strategiyasını yeni reallıqlara uyğunlaşdırır. Ölkəmizin iqtisadi inkişaf xəritəsində son illərin ən iddialı layihələrindən biri də Ələt Azad İqtisadi Zonasının yaradılması idi.**

Azad Zona getdikcə regionun mühüm sənaye və logistika qovşağına çevrilir. Azad Zonanın əhəmiyyəti artdıqca, ölkəyə nə vəd etdiyi, hansı texnoloji və sənaye transformasiyasını hədəflədiyi, investorlar üçün hansı üstünlükləri yaratdığı və ən əsası, Azərbaycanın gələcək iqtisadi modelində hansı rolu oynadığı barədə suallar daha da aktuallaşır. Məhz bu suallara cavab tapmaq üçün **Ələt Azad İqtisadi Zonasının Səlahiyyətli Qurumunun İdarə Heyətinin sədri Valeh Ələsgərovla** həmsöhbət olduq.

***– Ələt Azad İqtisadi Zonası artıq Azərbaycanın yeni nəsil iqtisadi inkişaf modelinin "lokomotivi" hesab olunur. ƏAİZ-in əsas hədəfi və üstünlükləri nədən ibarətdir?***

– Bizim hədəfimiz investorun gəlməsi və simvolik fəaliyyət göstərməsi ilə məhdudlaşmır. Bizim başlıca məqsədimiz yüksək əlavə dəyər yaradan, ixracyönümlü istehsalla məşğul olan investorların Azad Zonaya cəlb edilməsidir. İxracyönümlü dedikdə Azad Zonada istehsal edilən məhsulların ən azı 75 faizinin Azərbaycan Respublikasından kənara ixrac edilməsi nəzərdə tutulur.

"İnvestoru cəlb etmək" elə bir anlayışdır ki, çoxları bunu sadəcə bölgəyə xarici şirkətlərin marağını artırmaq kimi düşünür. Amma proses çox daha geniş və kompleksdir. Cəlb etmək dedikdə investorun qeydiyyatdan keçməsi, müəssisə yaratması, istehsala başlaması, daha vacibi burada uzunmüddətli iqtisadi dəyər yaratması nəzərdə tutulur. Əslində, "cəlb etmək" həm də qarşılıqlı etimadın qurulması ilə də bağlıdır. İnvestorun gözləntisi budur ki, risklər minimal, prosedurlar şəffaf olsun, dövlət dəstəyi görünsün və hiss edilsin.

Bununla yanaşı, infrastrukturun hazırlanması üçün mühitin sabitliyi də önəmli faktorlardandır. Bizim vəzifəmiz həmin gözləntiləri qarşılayan mühit yaratmaqdır. Prosesi mərhələ-mərhələ təsvir etsək, əvvəlcə investor məlumatlandırılır, bazar araşdırması aparır, Azad Zonanı qiymətləndirir, tərəfimizdən təqdim olunan şəraitlə tanış olur, ölkənin siyasi-iqtisadi sabitliyini dəyərləndirir, nəhayət, qərar verir və burada öz biznesini qurur. Əgər son mərhələyə çatırıqsa, deməli, biz investorda güvən hissi aşılamağı bacarmışıq. Şübhəsiz, bu hər iqtisadi zonanın bacaracağı məsələ deyil. Prosesdə həm idarəetmə modeli, həm hüquqi çərçivə mütləqdir. Ələt Azad İqtisadi Zonası bu komponentlərin hamısını özündə birləşdirir.

***– Bəs Ələt Azad İqtisadi Zonasında əsas meyarlar necə müəyyən edilib? İnvestorlardan gözləntilər nədir?***

– Biz sahələri məhdudlaşdırmırıq, çünki müasir iqtisadi zonaların uğurunu təmin edən əsas xüsusiyyətlərdən biri sektor çevikliyidir. Yəni investorun hansı sahədə fəaliyyət göstərəcəyini əvvəlcədən diktə etmək düzgün deyil. Belə ki, bu bir növ iqtisadiyyatı daraltmaq kimi səslənir. Lakin əsas və dəyişməz bir şərt var ki, yaradılan müəssisə beynəlxalq standartlara uyğun olmalıdır. Bu nə deməkdir? Yəni keyfiyyət standartları, beynəlxalq standartların tələbləri, texniki normaları, təhlükəsizlik standartları, istehsal prosesinin təhlükəsizliyi, ekoloji standartlar, ətraf mühitə təsirin minimallaşdırılması məsələsinə diqqət yetirilməlidir.

Biz elə bir zona yaratmaq istəyirik ki, burada fəaliyyət göstərən hər bir müəssisə həm regional, həm də qlobal səviyyədə rəqabət aparan istehsalçı olsun. Azad Zonanın missiyası da ixracyönümlü sənaye yaratmaqdır. Ona görə də prioritet sahələr - yüksək texnologiyalar, alternativ enerji avadanlıqları, elektromexanika, kimya sənayesinin müasir seqmentləri, metal emalı və müasir sənaye komponentləri, aviasiya və logistika ilə bağlı məhsullar - buna müvafiq formalaşır. Əgər investor həmin prinsiplərə uyğundursa, bizim üçün onun hansı sahədə çalışmasının heç bir fərqi yoxdur. Əsas məsələ istehsalın səviyyəsi, məhsulun keyfiyyəti və yaratdığı əlavə dəyərdir.





***– Yüksək texnologiyalar və yeni bacarıqlar məsələsinə xüsusi toxundunuz. Azad Zona bu baxımdan Azərbaycan vətəndaşlarına nə vəd edir?***

– Bəli, əvvəl də qeyd etdiyim kimi, insan kapitalının yenilənməsi və inkişafı strategiyamızın ən önəmli istiqamətlərindən biridir. Hətta bu gün Ələt Azad İqtisadi Zonası Azərbaycan üçün yeni nəsil sənaye məktəbidir, deyə bilərik. Hazırda buradakı şirkətlərdə çalışan bir mühəndis sabah öz innovativ şirkətini qura bilər. Bu, bizim üçün strateji məqsəddir. Çünki zaman keçdikcə, Azad Zona həm də yerli startapların və sənaye təşəbbüslərinin lokomotivinə çevriləcək. Ələt modelinin ən mühüm fəlsəfələrindən biri odur ki, yerli iqtisadiyyat bu zonadan kənarda qalmamalıdır.

Əksinə, biz istəyirik ki, yerli şirkətlər Azad Zonada yaranan iqtisadi ekosistemin əsas iştirakçısına çevrilsin. Məsələn, burada yüksək texnoloji avadanlıq istehsal edən bir müəssisə qurulursa, həmin müəssisənin kabel, metal konstruksiyalar və başqa avadanlıqlar, materiallar, xidmətlər təchiz edən onlarla yerli subpodratçıya ehtiyacı olacaq. Belə olan halda, yerli şirkətlər yeni bazara çıxış əldə edir, keyfiyyət standartlarını yüksəltməyə məcbur olur, texnologiya transferi baş verir, bütün istehsal zəncirində perspektivli imkanlar açılır. Qeyd etdiyim mexanizm ölkə iqtisadiyyatını genişləndirən ən effektiv yollardan biridir.

Azad Zona əslində, Azərbaycan sənayesinin modernləşmə platformasıdır. Yəni buradan başlamış yeni istehsal mədəniyyəti tədricən ölkənin bütün sənaye sektoruna yayılacaq.

***– Logistika üstünlükləri baxımından Azad Zonanın regionda hansı üstünlüyü var?***

– Ələt Azad İqtisadi Zonasının ən güclü tərəflərindən biri məhz logistika baxımından bənzəri olmayan coğrafi mövqedir. Ölkələr adətən ya dənizə çıxışı, ya dəmir yolu, ya da hava limanı ilə fərqlənirlər. Azad Zonanın üstünlüyü odur ki, burada hər üçü eyni nöqtədə birləşir. Məhz bu üstünlük regionda analoqu olmayan bir logistik qovşaq yaradır. Xatırladım ki, Azad Zonanın ərazisində dəniz limanı var, dəmir yolu xətləri keçir, avtomobil yolları birləşir, yaxın zamanda beynəlxalq yük hava limanı fəaliyyətə başlayacaq.

Belə olan halda, istehsal olunan məhsulun istənilən ölkəyə ən qısa zamanda çıxarılması, komponentlərin gətirilməsinin sürətlənməsi, istehsal zəncirinin kəsilməsi, logistika xərclərinin azalması mümkündür. Nəzərə almalıyıq ki, investor üçün ən qiymətli şey vaxtdır. Vaxtın pulla ölçüldüyü müasir istehsal sistemlərində sürət rəqabət deməkdir. Azad Zona da bu sürəti təqdim edir.

***– İnfrastrukturun hazır olması investorun psixologiyasına necə təsir edir?***

– Bir çox ölkələrdə belə bir problem var ki, investor gəlir, amma əsas infrastruktur olmadığı üçün illərlə gözləməli olur. Bu isə investora böyük ziyan vurur, çünki o həm vaxt itirir, həm də qeyri-müəyyənliklə üzləşir. Biz bu problemi kökündən aradan qaldırdıq. Daha dəqiq desəm, investor gəlməmişdən əvvəl bütün infrastruktur artıq tam hazır vəziyyətdə olur. Elektrik enerjisi çəkilib, su təchizatı hazırdır, qaz xətləri qurulub, telekommunikasiya tam işlək vəziyyətdədir, yol və logistika sistemi formalaşdırılıb, inşaat üçün hazırlıq prosesi tamamlanıb və s.

Bir məqamı da vurğulayım ki, bu yanaşma dünyada uğurlu iqtisadi zonaların əsas prinsipidir. "Made in Azerbaijan" markasının dəyərini qorumaq üçün məhsulların real istehsal prosesinin ölkə daxilində həyata keçirilməsi vacibdir. Yığım müəssisələri qısamüddətli təsir yaradır, lakin dərin istehsal həm insan kapitalını inkişaf etdirir, həm yerli komponent bazasını gücləndirir, həm də ixrac potensialını artırır. Üç element birlikdə Azad Zonanın sənaye modelini tamamlamaqla Azad Zonanı planlı şəkildə qurulmuş, inteqrasiya olunmuş, dayanıqlı iqtisadi ekosistemə çevirir.




***– Prezident İlham Əliyevin Ələt Azad İqtisadi Zonasının yaradılması və fəaliyyətinin təşkili haqqında fərmanında dəyişiklik hansı zərurətdən yarandı? Ümumiyyətlə, bu zonanı yaxın illərdə hansı yeniliklər və funksional imkanlar gözləyir?***

– Həmin dəyişiklikdə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tərtib etdiyi "Bakı şəhər Qaradağ rayonu Ələt qəsəbəsinin inzibati ərazisində kənd təsərrüfatı təyinatlı torpaqlar kateqoriyasına aid, dövlət mülkiyyətində olan ərazidən Ələt Azad İqtisadi Zonasına ayrılması nəzərdə tutulan (V hissə) 1453,09 hektar torpaq sahəsinin yerquruluşu planı"na əlavə olunacaq.

Məhz bu sahə Azad Zonada ağır sənaye üçün xüsusi zonanın yaradılmasını vahid sənaye strategiyasının tərkib hissəsinə çevirir. Yəni artıq metallurgiya, kimya və böyük həcmli istehsal sahələri kimi kompleks layihələr üçün konkret ərazi ayrılıb. Müəssisələrin ekoloji və texnoloji tələbləri fərqli olduğu üçün onların ayrıca zonada yerləşdirilməsi həm təhlükəsizlik, həm də istehsal səmərəliliyi baxımından ən düzgün yanaşmadır.



Digər tərəfdən, Ələt Azad İqtisadi Zonasında multimodal karqo hava limanının inşası ilə bağlı layihənin icrasına artıq başlanılıb. Tikinti 2026-cı ildə tamamlanacaq və liman 2027-ci ilin əvvəlində fəaliyyətə başlayacaq. Hava limanı illik 500 min ton yükaşırma potensialına malikdir və rəqəm 2 milyon tona qədər artacaq. Yeni hava limanı isə bu modelin logistika sütunudur.

***– Ələt Azad İqtisadi Zonasına daha çox hansı ölkələr maraq göstərir? Bu coğrafiya nəyi göstərir?***

– Artıq ərazidə çoxşaxəli investor portfeli formalaşıb və bunun coğrafiyası qlobaldır. Hazırda Çin şirkətləri genişmiqyaslı layihələr - xüsusilə, günəş panelləri və enerji avadanlıqları üzrə layihələr həyata keçirir. Avropa şirkətləri müxtəlif sahələrdə, o cümlədən mühəndislik və mexanika sahələri üzrə maraq göstərir. Hindistan şirkətləri istehsalatyönümlü layihələrlə çıxış edir. Türkiyə şirkətləri infrastruktur və sənaye sahələrində aktivdir. Rusiya və İsrail şirkətləri yüksək texnoloji layihələrdə iştirak edirlər.

Bu müxtəliflik də müəyyən məna ifadə edir ki, Azad Zona artıq qlobal investisiya məkanına çevrilməkdədir. Əgər bir zonaya müxtəlif iqtisadi bloklardan – Avropa, Asiya, Yaxın Şərq, Şimali Amerikadan eyni anda maraq gəlirsə, bu, həmin zonanın geoiqtisadi önəmini göstərən ən ciddi göstəricidir.

***– Azad Zonanın iqtisadi modeli Azərbaycana nə gətirəcək?***

– Layihə Azərbaycanın yeni sənaye fəlsəfəsinin formalaşmasına yönəlib. Burada tətbiq olunan model istehsalda keyfiyyətin yüksəlməsinə, yeni texnologiyaların ölkəyə daxil olmasına, insan kapitalının yenilənməsinə, yerli şirkətlərin inkişaf imkanlarının genişlənməsinə və ixrac potensialının artmasına səbəb olur. Bütün bunlar birlikdə ölkəni regional sənaye mərkəzinə çevirən güclü sistem yaradır.

Azad Zona eyni zamanda idarəetmə mədəniyyətinin dəyişməsinə təkan verir, çünki burada şəffaflıq, çeviklik, sürət və investora yönəlmiş yanaşma əsas prinsip kimi tətbiq olunur. Həmin yanaşma uzunmüddətli dövrdə yeni sənaye qruplarının formalaşmasına, yerli sahibkarların beynəlxalq səviyyəyə çıxmasına, qeyri-neft sektorunun güclənməsinə və Azərbaycan brendinin qlobal bazarlarda möhkəmlənməsinə şərait yaradır. Ona görə də Azad Zona, əslində, ölkənin növbəti 30–40 illik inkişaf trayektoriyasını müəyyən edən strateji platforma kimi də qiymətləndirilə bilər.

Burada formalaşan istehsal mədəniyyəti və idarəetmə yanaşması Azərbaycanda bilgi əsaslı, ixracyönümlü, innovativ iqtisadiyyatın daha geniş inkişafını təmin edir və ölkəni gələcəyin ixracyönümlü sənaye mərhələsinə daşıyır.

***Söhbəti hazırladı:***
***Nurlan ABDALOV***
***XQ***

# Avropanın Azərbaycan qazına tələbatı artır

*“Qoca qitə” ölkəmizin alternativ enerji mənbələrinə də böyük maraq göstərir*



**Avropa İttifaqının bu yaxınlarda qəbul etdiyi qərar yeni istiqamət axtarışını göstərir. Diqqəti alternativ enerji mənbələrinə yönələn “qoca qitə” nəzərdə tutulan mənfəəti əldə edə bilməyəcəyini yaxşı anlayır. Məhz bu səbəbdən mövcud geosiyasi vəziyyətdə enerji sahəsində əməkdaşlığın inkişafı üçün yollar axtarılır.**

Belə bir dönüş Avropa üçün həm iqtisadi, həm siyasi, həm strateji aspektlərdə təmkinli yenidən qurulma tələb edir. Bu şəraitdə diqqət yeni təminatçı ölkələrə – infrastruktura, tranzit imkanlarına və sabit tədarük sisteminə sahib regionlara yönəlir. Bu regionlardan biri Azərbaycandır. Rusiya qazından imtina Avropada enerji bazarını yenidən formalaşdıracaq. Bu boşluğu doldurmaq üçün enerji tədarükçüsü axtaran Avropa Azərbaycanın qaz ehtiyatlarına, strategiyasına və coğrafi mövqeyinə xüsusi maraq göstərir.

Bu il Azərbaycanda əmtəəlik qaz hasilatının 38,6 milyard kubmetr səviyyəsində olacağı proqnozlaşdırılır ki, bu da 2024-cü ilin göstəricisinə uyğundur. 2026-cı ildə Azərbaycanda qaz hasilatının ümumi həcminin 48 milyard 437 milyon kubmetr təşkil edəcəyi gözlənilir. Bunun 38 milyard 8,4 milyon kubmetri əmtəəlik qazın payına düşəcək.

Ümumiyyətlə, 2025-ci ilin yanvar–sentyabr aylarında Azərbaycanda 37 milyard 794 milyon kubmetr təbii qaz hasil edilib. Bu həcmin 29 milyard 46,4 milyon kubmetri əmtəəlik təbii qazın payına düşüb. Hesabat dövründə təbii qaz hasilatı 1,8 faiz, əmtəəlik qaz hasilatı isə 2,8 faiz artıb.

Neft hasilatında da vəziyyət ürəkaçandır. Bu ilin yanvar-sentyabr ayları üzrə məlumatlara əsasən, respublikada 20,7 milyon ton neft (kondensatla birlikdə) hasil edilib. Hasilatın 12 milyon tonu “Azəri-Çıraq-Günəşli”nin, 2,9 milyon tonu (kondensat) “Şahdəniz”in, 0,4 milyon tonu (kondensat) “Abşeron” yatağının payına düşüb. SOCAR üzrə neft (kondensatla birlikdə) hasilatı 5,4 milyon tona yaxın təşkil edib.

Azərbaycan enerji resursları və infrastruktur baxımından Avropaya sabit, uzunmüddətli tədarük təmin edə biləcək nadir ölkələrdən biridir. Belə ki, ölkəmizin qaz tədarükü sahəsində imkanları Avropanın alternativ qaz mənbəyinə çevrilməsi üçün real əsas yaradır. Avropanın enerji planlarında köklü dəyişikliklər bu potensialı aktuallaşdırır. Xüsusilə, Şərqi Avropa ölkələri – əvvəllər Rusiya qazından asılı olanlar – indi alternativ mənbələr axtarışındadır. Bu istiqamətdə Azərbaycan daha çox diqqətə layiq tərəf olaraq irəli çıxır.

Bu qlobal dönüş Azərbaycanın üzərinə regionda sabit enerji tədarükçüsü kimi öz imicini möhkəmləndirmək missiyası qoyur. Belə bir rol Avropanın enerji təhlükəsizliyini gücləndirmək, Aİ ölkələrinin maraqlarına uyğun tədarük təminatı formalaşdırmaq, həmçinin geoiqtisadi münbitlik deməkdir.

Uzun illərdir davam edən Azərbaycan – Aİ enerji əməkdaşlığının bundan sonrakı fazası aktivliyi ilə yadda qalacaq. Təsadüfi deyil ki, Rusiyanın enerji orbitindən kənarda qalan ölkələrin ilk müraciət etdiyi ölkə məhz Azərbaycandır. Məsələn, Azərbaycan Serbiyaya qaz tədarükünə 2024-cü ilin yanvarında başlayıb. Müqavilədə illik 400 milyon kubmetr həcmində qaz tədarükü nəzərdə tutulurdu ki, bu da 2027-ci ilə qədər 1 milyard kubmetrə çatdırılacaq.

Əvvəllər Belqrad Azərbaycanla uzunmüddətli müqavilə imzalamaqdan yayınaraq, Rusiya qazına üstünlük verən qiymət fərqlərinə diqqət yetirir və qiymətlərin aşağı salınmasını tələb edirdi. İndi Avropa İttifaqının Rusiyanın enerji resurslarından tamamilə imtina etmək qərarından sonra Serbiya enerji strategiyasını yenidən istiqamətləndirmək məcburiyyətində qalıb.

### *Ekspert rəyi*



**İlham ŞABAN,**
**Neft Araşdırmaları Mərkəzinin rəhbəri**

**Avropa İttifaqının ötən həftə qəbul etdiyi qərara əsasən, təşkilat 2027-ci il sentyabrın 30-dan etibarən Rusiyadan qaz alışını tamamilə dayandıracaq. Əgər 2026-cı ildə müəyyən səbəblərdən anbarlarda qaz ehtiyatını 90 faiz səviyyəsində toplamaq mümkün olmazsa, bu müddət 1 noyabra qədər uzadıla bilər.**

Ancaq Avropa İttifaqı 2027-ci ilin sonuna qədər Rusiya ilə qaz ticarətini tam kəsmək niyyətini ortaya qoyub. Dekabrın 15-də sözügedən sənəd Avropa İttifaqına üzv 27 ölkənin energetika nazirləri tərəfindən təsdiqləndikdən və Avropa Komissiyasının bülletenində dərc olunduqdan sonra hüquqi qüvvəyə minəcək.

Bəs, Azərbaycan Avropanın enerji təchizatında rolunu necə genişləndirə bilər? Hazırda Azərbaycanın əlavə qaz həcmi yoxdur. Abşeron yatağının ikinci fazası üzrə hasilat davam etsə də, layihə gücünə çatmayana qədər əlavə ixrac potensialımız məhdud olaraq qalır. Başqa sözlə, mövcud həcmdə artıq maksimuma çatmışıq.

Buna görə də cənab Prezident İlham Əliyev bu il çıxışlarında vurğulayıb ki, Azərbaycan 2030-cu ilə qədər qaz ixracını təxminən 8 milyard kubmetr artırmaq imkanına malik olacaq.

Ümid yatağında hasilatın artırılması (hazırda yeni qiymətləndirmə quyusunun qazılması davam edir). Lakin bu proseslər sabah və ya bir neçə ay sonra baş verəcək məsələ deyil – ən azı 1–5 il, daha real halda isə 3 il vaxt tələb edir. Ümumilikdə, Azərbaycan Avropanın enerji təhlükəsizliyinə, xüsusilə də Rusiya qazından daha çox asılı olan ölkələrə müəyyən töhfə verir.

Lakin məsələn, Macarıstan və Slovakiya kimi iri istehlakçıların tələbatının tam ödənilməsi yaxın perspektivdə mümkün deyil. Onlara maksimum 1 milyard kubmetr civarında qaz təmin etmək olar, halbuki bu ölkələrin illik tələbatı bununla müqayisədə xeyli böyükdür.

Bu səbəbdən, məsələyə daha real yanaşmaq vacibdir. Digər tərəfdən, Azərbaycan Dövlət Neft Şirkəti üçüncü ölkələrdən qaz alaraq həmin ölkələrin təchizatına kommersiya əsaslı dəstək göstərə bilər. Bu, tamamilə normal və beynəlxalq praktikaya uyğun mexanizmdir.

***N.ABDALOV***
***XQ***

**“Yaşıl Enerji Dəhlizi Enerji Şirkəti” Böyük Britaniya şirkəti ilə Anlaşma Memorandumu imzalayıb. Energetika Nazirliyindən bildirilib ki, Anlaşma Memorandumu energetika naziri Pərviz Şahbazovla Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Fergus Auld arasında keçirilən görüşdə imzalanıb.**

# Azərbaycandan Britaniyaya “yaşıl enerji” dəhlizi



Görüşdə “Yaşıl Enerji Dəhlizi Enerji Şirkəti” (GECO) və Böyük Britaniyanın “Xlinks” şirkəti də təmsil olunub. Memorandumu GECO şirkətinin icraçı direktoru Fərhad Məmmədov və “Xlinks” şirkətinin icraçı direktoru Ceyms Hamfrey imzalayıblar.

Sənəd iki şirkət arasında sualtı kabel layihələri və əlaqədar infrastruktur sahəsində əməkdaşlıq imkanlarının araşdırılması, məlumat mübadiləsi, texniki qiymətləndirmələrin aparılması kimi məsələləri ehtiva edir. Memorandum hüquqi öhdəlik yaratmır və hazırda GECO “Yaşıl Enerji Dəhlizi” layihəsinin texniki-iqtisadi əsaslandırması mərhələsindən sonrakı dövr üzrə potensial tərəfdaşlarla danışıqlar aparır.

Azərbaycanla Birləşmiş Krallıq arasında enerji əməkdaşlığının inkişafı ilə bağlı məsələlər müzakirə edilib. Uzunmüddətli enerji tərəfdaşlığının “yaşıl enerji”, “Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi” və innovasiyaların tətbiqi üzrə genişləndirilməsi ətrafında fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, GECO “Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında imzalanmış yaşıl enerjinin inkişafı və ötürülməsi Sazişi”nin icrası məqsədilə dörd ölkənin təmsil olunduğu Birgə Müəssisədir. “Xlinks” şirkəti isə irimiqyaslı bərpa olunan enerji və uzaq məsafəli ötürmə xətləri layihələri üzrə ixtisaslaşmış Böyük Britaniya şirkətidir. Şirkətin texniki heyəti Böyük Britaniya-Norveç arasında 720 km uzunluğunda və 1.4 QVt ötürmə gücü olan “North Sea Link” (Şimal Dənizi Linki) və Böyük Britaniya-Danimarka arasında 765 km uzunluğunda və 1.4 QVt ötürmə gücü olan “Viking Link” (Vikinq Linki) interkonnektorlarının inşasında təcrübəyə malikdir.

***XQ***

# “Gömrük–Biznes Forumu 2025: Dialoq və Etimad”

**“Gömrük–Biznes Forumu 2025: Dialoq və Etimad” mövzusunda keçirilən forumda Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov, Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırov, bp-nin Xəzər regionunda kommunikasiya və xarici əlaqələr üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli, eləcə də digər rəsmi şəxslər iştirak edibilər.**




Məclis zamanı gömrük işi sahəsində həyata keçirilən rəqəmsal alətlərin, eləcə də xarici ticarət əməliyyatlarının tənzimlənməsi və sadələşdirilməsi istiqamətində gömrük və aidiyyəti dövlət orqanlarının birgə reallaşdırdığı layihələr təqdim olunub, o cümlədən biznes subyektlərinin iştirakı ilə gömrük prosedurları və əməliyyatları üzrə müzakirələr aparılıb həyata keçirilib.

Qeyd edək ki, biznes nümayəndələri ilə əməkdaşlığın daha da genişləndirilməsi, gömrük sahəsində həyata keçirilən yeniliklərin ictimaiyyətə çatdırılması məqsədilə dövlət qurumlarının nümayəndələrinin, xarici ticarət iştirakçılarının, ekspertlərin və tərəfdaşların iştirakı ilə hər il Dövlət Gömrük Komitəsi ənənəvi “Gömrük–Biznes Forumu” təşkil edir.

***XQ***

# bp-nin insan hüquqlarına maarifləndirici dəstəyi

**Beynəlxalq İnsan Hüquqları Günü ərəfəsində Azərbaycan dilində yenicə nəşr olunmuş “İnsan Hüquqları. Ensiklopediya” kitabının təqdimatı keçirilib.**

Azərbaycanda bu sahədə ilk olan dərslik yerli universitetlərin hüquq fakültələrinin tələbə və müəllimləri üçün əhatəli vəsaitdir. Ensiklopediyaya insan hüquqlarının həm nəzəri, həm də praktiki aspektlərini əhatə edən mindən çox müddəa daxildir. Dosent Zaur Əliyevin müəllifi olduğu ensiklopediya bp-nin Azərbaycanda hüquq təhsilinin keyfiyyətinin artırılmasına dəstək məqsədilə hazırlanmış və dərc edilmiş altı hüquq dərsliyindən ibarət geniş layihəsinin bir hissəsidir. Qeyd edək ki, bu dərsliklərin 5-i cari ilin iyun ayında ictimaiyyətə təqdim edilmişdi.

Dərsliklər tələbələr, müəllimlər, alimlər, hüquq mütəxəssisləri, insan hüquqları müdafiəçiləri, beynəlxalq münasibətlər üzrə mütəxəssislər, magistr və doktorantlar, mediatorlar, eləcə də ictimai və siyasi fikir adamları da daxil olmaqla geniş auditoriya üçün nəzərdə tutulub. Ümumi dəyəri 230 min manat olan layihə 6 kitabın hazırlanması, nəşri və idarə edilməsi də daxil olmaqla bütün mərhələləri əhatə edir. İcraçı isə “Müasir Beynəlxalq Hüquq və Davamlı İnkişaf” ictimai birliyidir.




Xatırladaq ki, layihəyə “Beynəlxalq tibb hüququ. Xüsusi hissə”, “Azərbaycan Respublikasının mediasiya hüququ. Ümumi Müddəalar”, “Mediasiya hüququ. Xüsusi hissə”, “Beynəlxalq publik hüquq kursu. Ümumi hissə”, “Beynəlxalq publik hüquq kursu. Xüsusi hissə” “İnsan Hüquqları. Ensiklopediya” kitabları daxildir.

***XQ***

# Aqroparklara 2,4 milyard manatlıq yatırım




**Son dövrlər Azərbaycanda yaradılan 53 aqroparka 2,4 milyard manatlıq investisiya yatırılıb. Bunu kənd təsərrüfatı nazirinin müşaviri Zaur Əliyev “Gömrük–Biznes Forumu 2025: Dialoq və Etimad” adlı tədbirdə bildirib.**

Onun sözlərinə görə, aqroparklar artıq uzun illər Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq yaradılmış böyük istehsal müəssisələridir və bu aqroparklara dövlət tərəfindən 690 milyon manat dəyərində dəstək olub.

Zaur Əliyev qeyd edib ki, bir növ xarici ticarətin formalaşması və artımına bu güzəştlər, dəstək mexanizmləri, həmçinin yanaşmalar, böyük və müasir təsərrüfatlar müsbət təsir göstərib.

***XQ***

*I Türkoloji Qurultay – 100*

# 100 il əvvəldən gələn səslər

## *Ən maraqlı məruzələrin icmalı və şərhi*

**I Ümumittifaq Türkoloji Qurultaya Sovet İttifaqının türkdilli respublikaları, bölgələrinin elmi və ictimai təşkilatlarını təmsil edən 111 nümayəndə, 20 nəfər xarici qonaq qatılmışdır. Ümumi 131 nəfərin içərisində türk xalqlarının nümayəndələri çoxluq təşkil etsə də, burada rusların, almanların, fransızların, macarların, ukraynalıların da türkoloqları iştirak edirdilər.**

**Alman alimi Teodor Menzel sonralar qurultay haqqında yazdığı memuarda qeyd edirdi ki, üzvlər ümumilikdə üç qrupa bölünürdü: elmi işçilər, siyasi xadimlər, təhsil işçiləri və yazarlar. Peşə bölgüsü haqqında yazırdı: Elmlər Akademiyasının 3 həqiqi üzvü, 18 professor, 5 dosent, 2 həkim, 1 diplomat, 1 hüquqşünas, 22 müəllim, 4 ədəbiyyatçı, 14 redaktor və jurnalist, 2 tələbə, 17 siyasətçi, 42 nümayəndənin peşəsi qeydə alınmamışdır. Əlavə olaraq 19 nümayəndə xüsusi dəvətlə iştirak etmiş, digərləri isə müxtəlif cəmiyyətləri təmsil etmişlər.**

**Qurultay 27 fevraldan davamlı olaraq məruzələrin dinlənilməsinə, türkologiyanın elmi məsələlərinin müzakirəsinə başlayıb. Bu, təkcə bir toplantının deyil, bütöv bir elmi dövrün başlanğıcı idi. Qurultayın materialları və stenoqrafik hesabatlardan məlum olur ki, 17 iclas keçirilmiş, 38 məruzə dinlənilmişdir. Səmədağa Ağamalıoğlu, Teodor Menzel qurultayın tanınmış türkoloq V.V.Radlovun, Türkiyə nümayəndələri isə İsmayıl bəy Qaspıralının şərəfinə keçirilməsini təklif etmişlər.**

**Nəticədə hər iki şəxsə həsr olunmasına qərar verilmişdir. Qurultayda 20-dən artıq görkəmli rus aliminin iştirakı xüsusi qeyd olunmalıdır. Milli mənsubiyyət fərqinə baxmayaraq, toplantıda nümayiş etdirdikləri səmimiyyət, elmi vicdan və intellektual məsuliyyət, təqdim etdikləri yüksək səviyyəli elmi məruzələri sanki onları türk xalqının bir nümayəndəsinə, bu böyük mədəniyyətin ayrılmaz parçasına çevirmişdi. Onların milli sərhədləri aşan iştirakı, məruzələrinin dərinliyi və obyektivliyi qurultayın ümumi elmi yükünü və nüfuzunu daha da artırmışdı.**

**Qurultaya dəvət olunmuş tanınmış türkoloqlar maraqlı məruzələrlə çıxış etmişlər: Bartold "Türk xalqlarının tarixinin öyrənilməsinin müasir vəziyyəti və yaxın vəzifələri", Borozdin "Tatar mədəniyyəti sahəsində ən son elmi kəşflər", Qubaydullin "Türk-tatar xalqlarında tarixi ədəbiyyatın inkişafı", Rudenko "Türk tayfalarının etnoqrafiyasının öyrənilməsinin müasir vəziyyəti və yaxın vəzifələri", Messaroş "Anadolu və balkan türklərinin etnoqrafiyasının müasir vəziyyəti və yaxın gələcəkdəki vəzifələr", Çobanzadə "Türk ləhcələrinin yaxın qohumluğu haqqında", Poppe "Altay dillərinin qarşılıqlı qohumluğu məsələsinin tarixi və müasir vəziyyəti", Genko "Türk dillərinin yafəs dilləri ilə münasibəti haqqında", Aşmarin "Türkologiyanın keçmişi və indiki vəziyyəti haqqında bəzi qeydlər", Malov "Qədim türk dillərinin öyrənilməsi", Samoyloviç "Türk dillərinin öyrənilməsinin müasir vəziyyəti və yaxın perspektivləri", Çursin "Qafqaz türklərinin etnoqrafik öyrənilməsində yaxın vəzifələr", Müller "Türk xalqlarının təsviri sənəti haqqında", Ömərov "Türk dillərinin öyrənilməsi metodlari", Açaryan "Türk və erməni dillərinin qarşılıqlı təsiri", Şerba "Orfoqrafiyanın əsas prinsipləri və onların sosial əhəmiyyəti", Zifeld-Simumyagi "Türk dillərində elmi terminologiyanın yaranma prinsipləri haqqında", M.F.Köprülzadə "Türk xalqlarının ədəbi dillərinin inkişafı" və s.**

**Ən maraqlı məruzələrin icmalını və şərhini XQ-nin oxucularına təqdim edirik.**



*Nadir MƏMMƏDLİ,*
*AMEA Nəsimi adına Dilçilik İnstitutunun direktoru, filologiya elmləri doktoru, professor*

Akademik Bartold "Türk xalqlarının tarixinin öyrənilməsinin müasir vəziyyəti və yaxın vəzifələri" adlı məruzəsində qeyd edir ki, türkologiya sahəsinə aid edilən elmi fənlər arasında türk tayfaları və xalqlarının tarixi xüsusi yer tutur. Yaşadıqları tarixi dönəmlər boyu türklər, cüzi istisna ilə, öz dillərində tarixi ədəbiyyatlarını yarada bilməmişlər. Əlbəttə ki, köçəri türk tayfalarının tarixi mədəni qonşuları tərəfindən bizə məlumdur; türklər fəth etdikləri ölkələrdə məskunlaşaraq oturaq həyata keçib, türk sülalələrinin hakimiyyəti altında mədəni dövlətlər yaratmışdılar, lakin orada yaşamış məğlub xalqın mədəniyyəti o qədər güclü olmuşdur ki, ədəbi dili, xüsusən nəsr dili kimi həmin dil işlənmişdir.

Şərqi Asiyada, əsasən Monqolustanda yaşamış və ehtimal ki, X əsrdə oradan sıxışdırılaraq çıxarılmış türklərin tarixi birmənalı olaraq, bizə Çin mənbələrindən məlum olmuşdur. Biz Orta Asiyanın qərb hissəsində məskunlaşmış və müsəlman mədəniyyətinin təsiri altına düşmüş türklər haqqındakı məlumatları ərəb, əsasən isə fars mənbələrindən alırıq. Bundan əlavə, orta əsrlərdə Türküstanda, demək olar ki, ümumiyyətlə, heç bir tarixi ədəbiyyat olmayıb, yaxud ən azından bizə heç biri çatmayıb. Məsələn, Orta Asiya monqol xanlarının, o cümlədən Teymur və onun davamçılarının, varislərinin tarixi yalnız İran ərazisində yazılmış əsərlərə əsasən məlum olmuşdur. Daha əhəmiyyətli tarixi ədəbiyyat yalnız XVI əsrdə – özbəklərin dövründə ortaya çıxmışdı.

Özbəklər tərəfindən yaradılmış 3 xanlıq: Buxara xanlığında – işgüzar üslub və tarixi ədəbiyyat dili, cüzi istisnalarla, fars dilindən; Xivə xanlığında – Orta Asiya türkcəsi; Kokand xanlığında – bəzən türk dilində yazılsa da, daha çox fars dilindən istifadə edilmişdir. Bütün türk dövlətləri arasında yalnız Osmanlı İmperiyasının tarixini daha çox türk tarixi mənbələrinə əsaslanaraq öyrənmək mümkündür. Lakin Osmanlı tarixçilərinin dilində ərəb və fars sözləri çoxluq təşkil etdiyindən, türk xalqının əksəriyyəti üçün, demək olar ki, anlaşılmazdır və türkoloqu bir o qədər də cəlb etmir.

İranşünas kimi (monqol dövrünə kimi İran tarixini əsasən xarici: ərəb və yunan mənbələrinə görə öyrənə bilirik), türkoloq da nadir hallarda tarixçi olur. Türk xalqlarının tarixini öyrənmək üçün türkoloq olmaq kifayət etmir, maraqlandığın dövrdən asılı olaraq, eyni zamanda, sinoloq, ərəbşünas, iranşünas olmaq vacibdir. Mənim işim türk xalqlarının tarixinin ümumi tablosunu əks etdirmək deyil, mən qısa bir oçerkdə indiki zamanda əlçatan mənbələrin xarakteri, tədqiqat üsulları və növbədə duran suallar barədə məlumat verməyə çalışıram.

Məlum olduğu kimi, XIX əsrin sonu Orxon tarixi yazılı abidələrinin kəşfi və oxunması üçün açarın tapılması türkologiya tarixinin ən əlamətdar dövrüdür. Mən türk dilinin ən qədim yazılı tarixi abidəsinin əhəmiyyətindən danışmayacağam. Dilçilik baxımından əhəmiyyəti ilə yanaşı, VIII əsr türklərinin özləri barədə verdikləri məlumat kimi, tarixçilər üçün də önəm daşıyır və Çin mənbələrinin məlumatlarını yetərincə tamamlayır. Belə ki, danimarkalı dilçi Tomsen tərəfindən yazıların oxunması üçün açarın tapılmasından 30 il keçməsinə baxmayaraq, iş hələ də tamamlanmamış və bir çox yerdə yazıların oxunuşu, izahlar hələ də mübahisəli qalmaqdadır. Dili bilmədən, mövcud tərcümələrə istinadən yazılardan tarixi mənbə kimi istifadə etmək cəhdləri adətən, tamamilə yanlış tarixi nəticələrə gətirib çıxarıb. Orxon yazıları özlərini türklər adlandıran və VI əsrdə tarix səhnəsinə çıxmış xalqın ilk nümayəndələrinə aiddir; yazı abidələrinin kəşfindən əvvəl də bu xalqın türk əsilli olmasına şübhə yox idi. Ola bilər ki, bu dil VI əsrdən əvvəl də mövcud idi, lakin o zaman türk dili adlandırılmırdı.

Avropa alimləri türklərin Çin tarixində yaşamış bu və ya hər hansı bir köçəri tayfa ilə qohumluğu və oxşarlığına dair Çin mənbələrində verilən məlumatlara əsaslanaraq, bunlardan hansının dil etibarilə türk ola biləcəyini müəyyənləşdirməyə cəhd etmişlər. Son vaxtlar professor Pelyonun Çin ədəbiyyatında aşkar etdiyi material bu cəhdləri daha tutarlı elmi əsaslar üzərində qurmağa imkan verir. Çinlilər bu köçəri xalqların bəziləri üçün lüğətlər tərtib etmişlər; professor Pelyo 1925-ci ilin payızında Leninqradda oxuduğu mühazirəsində e.ə. I əsrdə meydana çıxmış və IV-V əsrlərdə şimali Çinə hakim olmuş sanbi xalqının dili üzrə tərtib edilmiş bir lüğəti yada salmışdır. Baxmayaraq ki, Avropa alimləri, xüsusilə, sanbilərin heç vaxt türk əsilli olduqlarını qəbul etməmiş, Avropa tarixində məşhurlaşmış sələfləri olan hunları türk hesab etmişlər, bu lüğət professor Pelyonun sözlərinə görə, açıq-aşkar sanbilərin türk olduğunu göstərir.

Professor Pelyo məqalələrinin birində XII əsrədək şimali Çində hakim olmuş və ölkəyə adını vermiş çinlilərin lüğəti barədə qeyd etmişdir; çinlilər hər şeydən əvvəl tunquz əsilli adlandırılıblar, lakin bu lüğət onların dilinin monqol dili olduğunu göstərir. Pelyonun fikrincə, VI əsr türklərinin sələfləri olan avarlar monqol əsillidirlər. Göründüyü kimi, professor Pelyonun əlində olan material o qədər əhəmiyyətlidir ki, onu nəşr və tədqiq etmədən hər hansı bir dövrə aid xalqın kökü, mənşəyi barədə nəticə çıxarmaqdan çəkinmək lazımdır.

Görünür, müəyyən tarixi nəticələrə dilçilik araşdırmalarının təsir göstərməsi qaçılmazdır. Artıq uzun müddətdir ki, dilçilər arasında türk dilləri sırasında xüsusi yer tutan və digər türk xalqları tərəfindən anlaşılmayan yakut dili ilə yanaşı, çuvaş dili ətrafında da mübahisələr yaranmışdır. Bəzi türkoloqlar bu fərqliliyi türklərin finlər ilə qarışması ilə izah etməyə çalışmış, digərləri isə bu fərqi türk dillərinin inkişaf mərhələsinin erkən dövrünə dair qalıqları kimi görürdülər.



Şübhəsiz ki, N.N.Poppenin araşdırmaları daha çox sonuncu fikri təsdiqləyir. N.Poppe türk şivələri ilə monqol dilini müqayisə edərək belə bir nəticəyə gəlmişdir ki, çuvaş dili heç birinə aid deyil və ya bu bağlılığın üçüncü qolu kimi, ya da türk dillərinin hələ formalaşmadığı dövrün qalıqları kimi qəbul edilməlidir.

Zaman baxımından bu linqvistik faktı tarixi materiallar ilə müqayisə edərkən çuvaşları Orta Asiyadan Avropaya ilk köç hərəkatının əsas nümayəndələri olan hunların qalıqları kimi qəbul etməliyik. Belə olan halda, görünür ki, macar dilindəki türk elementləri, həmçinin ərəb coğrafiyaşünaslarının sözlərinə görə, X əsr Orta və Aşağı Volqaboyu mövcud olmuş həm türk, həm də fin dillərindən fərqlənən xüsusi dil – bulqar və xəzərlərin dili ilə də əlaqələndirilməlidir. Beləliklə, e.ə. III əsrdə Çin tarixində meydana çıxmış hunları çuvaşların qədim tarixi əcdadları kimi qəbul etməliyik.

İlkin olaraq Çin, daha sonra müsəlman mənbələrində qeyd olunan türk xalqları sırasına əvvəl Yenisey çayının yuxarı sahillərində, sonradan tədricən cənub-qərbə – Cetiysu vilayətinə və ya Semireçye (Yeddi çay – N.M.) tərəfə hərəkət etmiş və hazırda orada yaşayan qırğızlar da daxildir. Çin mənbələrinə əsasən qırğız dilinə dair bildiklərimiz bu dilin xarakterik türk dili olmasına, lakin antropoloji xüsusiyyətlərinə görə türk mənşəli olmamasına dəlalət edir (məsələn: açıq rəngli saç). Bu halda, Çin və müsəlman mənbələrinin məlumatları əsasən, qeyd olunan antropoloji xüsusiyyətləri nəzərə almaqla tam şəkildə təsdiqini tapır, qırğız və slavyanlar arasında mənşə etibarilə qohumluq əlaqələrinin olduğu düşünülürdü. Hər halda, antropoloji xüsusiyyətlərin mövcudluğunu isbatlayan və sonrakı yüzilliklərdə tamamilə yoxa çıxmış fakt qarşımızdadır.

Çin mənbələrində müxtəlif transkripsiyalarda "qırğız" sözünə "türk" sözündən daha əvvəl rast gəlinir. Professor Pelyo bu transkripsiyalardan ən qədimi olan "qyanqun"u monqol dilində "qırkun" sözünün tək halda işlənmiş forması kimi izah edir. Bu, çinlilərin qırğızlar haqqında məlumatı monqollardan əldə etdiklərinə işarə edir. Digər bir transkripsiyanın yanlış oxunuşu "xakas" sözünü yaratmışdır – əvvəllər qırğızların yaşadığı həmin ərazidəki Yenisey türkləri özlərini xakas adlandırıblar. Qədim türklərin mədəni səviyyələri barədə yazılı mənbələrlə yanaşı, digər arxeoloji materiallar da var. İndiyədək bu materialların öyrənilməsində irəliləyiş nisbətən azdır; bütün hallarda arxeoloji materialın yazılı mənbələr tərəfindən ya tam, ya da yetərincə işıqlandırılmaması, xüsusilə fərdi kateqoriyaya aid əşyaların tarixlərinin dəqiqləşdirilməməsi çətinlik törədir.

Bu mənada görkəmli alimlər belə səhv nəticələrə gəlmişlər – Çin və bir çox Qərb mənbələrinə əsasən müəyyən məlumatlar olsa da, Radlov Orxon-Yenisey abidələrinin oxunuşundan əvvəl nə Yenisey yazılarının, nə də daş abidələrin türklərə mənsub olduğunu düşünürdü. Rodlovun qənaətinə görə, arxeoloji materiallar və yazılı mənbələr arasında digər ziddiyyətli hallar da vardır, çinlilər türklərdə cənazənin yandırılması adətinin mövcud olduğunu deyirlər. Radlov tərəfindən qazıntı aparılmış türklərə məxsus məzarlarda meyitin yandırılmasına dəlalət edən əlamət aşkar edilməmişdir. Belə ki, sonralar belə məzarlar tapılmışdır – Çin mənbələrinin verdiyi məlumatlar o qədər aydın və dəqiqdir ki, onları şübhə altına almaq çətindir.

1925-ci ildə Orxon abidələrinin yerləşdiyi yerdə professor Vladimirsov tərəfindən aparılmış qazıntılar dəqiq tarixi qeyd olunmasa da, bir sıra mühüm tapıntılar, o cümlədən VII əsrə aid türk döyüşçüsünün heykəlinin aşkar edilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Son dövrlərdə P.K.Kozlovun monqol-Tibet ekspedisiyası zamanı aparılan arxeoloji qazantılar zamanı abidələrin tarixləndirilməsində indiyə qədər mövcud üsulların etibarsız olduğu tam şəkildə üzə çıxmışdır. Tədqiqatçılar Xan sülaləsinə aid dəmir sikkələr ilə birlikdə tapılan əşyaları ilkin olaraq e.ə. sonu – e. I əsrinə aid etməyə meyil etmişlər; belə ki, əşyalar arasında yunan təsirini bəlli edən, eləcə də Qərb və Uzaq Şərq arasında təxmin ediləndən daha erkən və geniş mədəni əlaqələrin olduğunu aşkar edən nümunələr tapılmışdır. Çin mədəniyyətinin tədqiqatçıları, xüsusilə professor Pelyo və antik mədəniyyət bilicisi V.F.Farmakovski ekspedisiya zamanı əldə edilən tapıntıların daha sonrakı dövrə aid olduğunu sübut edən dəlillər ortaya qoymuşlar.

Qırğızlar cənub-qərbə doğru hərəkətdən əvvəl Şərqə – Monqolustana doğru irəliləmişlər, onlar təxminən 840-cı ildə Şərqi türklərin sonuncu köçəri Uyğur dövlətini məhv etmişlər. Bu hərəkat türklərin fəthetmə istiqamətinin əksinə – qərbdən şərqə doğru olan nadir yürüşlərdən biri kimi maraq doğurur, çünki türklərin bütün hərəkatları, demək olar ki, şərqdən qərbə doğru istiqamətdə olurdu. Bu hadisə, eyni zamanda, qırğız xalqının Orta Asiyanın siyasi tarixində oynadığı yeganə rolu idi (ruslar tərəfindən yanlış olaraq bu adı almış digər xalqı deyil, əlbəttə ki, özünü qırğız adlandıran xalqı nəzərdə tuturam).

Qırğızların özləri üçün bu cəhd böyük nəticələr verməmişdir, artıq X əsrin əvvəllərində monqol əsilli çinlilər tərəfindən sıxışdırılıb çıxarılmışdılar, yalnız bu fakt, görünür ki, türklərin Orta Asiyanın şərqindən qərbə doğru hərəkət etməsi üçün böyük əhəmiyyət kəsb etmişdir. Onlar əksər türk xalqının din birliyini təşkil edən İslamı könüllü surətdə qəbul etdilər. Bizə, təbii ki, türklərin tarixi, əsasən müsəlman mənbələrindən məlumdur, burada Çinlə həmsərhəd erkən dövr türk dövlətlərinin tarixi, məlum olduğu kimi, son zamanlar yeni mənbələrin – X əsrin sonuna aid "Tuman əlyazması" adlı fars coğrafi əsərinin, Gərdizinin XI əsrə aid tərtib etdiyi fars tarixi, həmçinin XI əsrin II yarısına aid və daha əski mənbələrə istinadən Bağdadda Mahmud Kaşğari tərəfindən ərəb dilində tərtib edilmiş və türk xalqları, onların məskunlaşdıqları ərazilər, o dövrdə türklərə aid olan şəhərlər və s. barədə geniş coğrafi və etnoqrafik məlumatları əks etdirən türk ləhcələrinə dair əsərin aşkara çıxarılması nəticəsində bir çox məsələ yeni elmi əsaslarla öyrənilmişdir. Lakin mənbələrə tənqidi yanaşma üsulları hələ tam şəkildə müəyyən edilməmişdir. Müsəlman ədəbiyyatının, o cümlədən coğrafi əsərlərə mənbəşünaslıq baxımından yetərincə diqqət ayrılmırdı.

Əgər X əsr müəllifinin əsərində hər hansı bir coğrafi məlumat varsa, bu heç də həmin dövrün faktlarına uyğun gəldiyi demək deyil; adətən, müəlliflər özlərindən əvvəlki müəlliflərin yazılarına istinad etmədən daha əski dövr məlumatı kimi təkrar edirlər. Bu baxımdan, X əsr müəllifinin yazdıqlarını həmin dövrün reallıqları ilə əlaqələndirmək bəzən səhv nəticələr verir.

Çin mənbələrindən məlum olur ki, Monqolustandan sıxışdırılıb çıxarılmış uyğurlar Çin Türküstanı ilə həmsərhəd, indiki Turfan, Gücən və digər şəhərlərin yerləşdiyi ərazidə dövlət yaratmışdılar; XIII əsr müsəlman müəllifləri həmin ərazilərdə uyğurların yaşadıqlarını qeyd edir, lakin IX–X əsrlərin coğrafi ədəbiyyatında uyğurların əvəzinə hər yerdə "toquzqular" (türk dilində tokuz-oğuz – "doqquz oğuz") adı çəkilir. Bu adın tərkibində "uyğur" deyil, "oğuz" sözü var, bu ad uyğurlara deyil, onların əcdadları olan və Orxon yazılarında adları çəkilən qədim türklərə məxsusdur.

Bu ziddiyyəti izah etmək üçün çox səy göstərilmişdi, belə ki, "oğuz" və "uyğur" sözlərinin eyni mənşədən olduğunu iddia edir, bu sözlərin fərqini ayrı-ayrı türk ləhcələrinin fonetik xüsusiyyətləri ilə izah etməyə çalışmışlar. Bundan başqa, ərəb əlifbasında "toquzquz" sözü hələ uyğurlar Çin Türküstanında olmadıqları vaxtdan var idi; Çin mənbələrindən məlum olur ki, uyğurlardan əvvəl ora tokuz-oğuzların bir qismi köç etmiş, sonradan şərqə doğru gedərək Çinin sərhəd hissələrində məskunlaşmışlar. Çox güman, tokuz-oğuzlar orada yaşadıqları zaman ərəblər Çin Türküstanı ilə tanış olmuşlar və IX əsrin 2-ci yarısından uyğurların ora gəlişinə məhəl qoymadan, ənənəvi olaraq bu bölgədə yaşayanlara eyni ad verilmişdir. Yeganə olaraq, ərəb mənbələri içərisində Orta Asiyaya dair bizə gəlib çatan müəllifin – Mahmud Kaşğarinin ərazi və yerli əhali ilə şəxsi tanışlığı əsasında yazdığı əsərdir ki, burada da tokuzquzlar deyil, uyğurlardan bəhs olunur.

Ümumiyyətlə, Mahmud Kaşğarinin əsəri Orta Asiyanın mədəni tarixi və coğrafiyasını öyrənmək üçün çoxlu yeni materiallar təqdim etmişdir; lakin Mahmud Kaşğaridən sonra da bir çox məsələlər hələ aydınlaşdırılmayıb.

Bizim üçün indi əlçatan olan mənbələrdə belə Orta Asiyanın qərb hissəsində türklərin mədəni tarixinin əsas faktı – onların tədricən islamın və fars-müsəlman mədəniyyətinin təsirinə düşməyi izah edilmir. Xüsusilə Çin Türküstanında aparılmış arxeoloji araşdırmalar sayəsində, türklərin islamdan əvvəlki mədəni tarixi bizə yaxşı məlum olduğundan, bu məsələ daha da mürəkkəbləşir.

Qərbdən dini təbliğat başlamazdan əvvəl türklərin şərqi iranlıların – soqdilərin mədəni təsiri altında olduqları bizə artıq məlumdur. Əvvəllər güman edildiyi kimi, türklər suriyalı xristianlara deyil, məhz soqdilərə borcludurlar. Onların əlifbası "uyğur əlifbası" adlandırılmışdır, bəlkə də bu, Orxon yazısı ilə əlaqəlidir ki, türkcə dini ədəbiyyat (buddist, manixey və xristian) olmuşdur; türklərin fars təsiri başlamazdan əvvəl həm xalq, həm də bədii poeziya ənənəsi və hətta saray şairlərinin olduğunu Mahmud Kaşğaridən öyrənmişik.

Türklərin islamı müsəlmanlar tərəfindən silah gücünə deyil, könüllü qəbul etdikləri diqqətəlayiqdir. Türklərin islamın təsiri altında olması isə bu dinin mədəni hadisə olduğunu bir daha sübut edir. Biz xristianlığı və ya buddizmi qəbul etmiş heç bir müsəlman xalqı tanımırıq, lakin bir sıra buddist və xristian xalqının islamı qəbul etdiyini bilirik.

Türklərin Ön Asiyaya yönəlmiş fəth hərəkəti hələ İslamdan əvvəlki dövrdə başlanmış və islamı qəbul etdikdən sonra daha böyük uğurla davam etmişdir. Xəlifələrin və İran hökmdarlarının xidmətində yüksələn türk mənşəli sərkərdələr tərəfindən yaradılmış çoxsaylı sülalələrdən başqa, monqol dövründən əvvəl iki mühüm dövlət formalaşmışdır ki, onların yaranması islamı qəbul etmiş türklərin fəth hərəkatı ilə bağlı idi: Səlcuq sultanlarının imperiyası və Qaraxanilər dövləti. Birincinin tarixi bizə daha yaxşı məlumdur, fəthçi xalqın oğuzlar olduğunu bilirik, bir zamanlar Monqolustanda hökm sürmüş və islamı qəbul etdikdən sonra "türkmən" adlandırılmışlar. Qaraxanilərin isə hansı türk tayfasından törəndiyi hələ də tam müəyyənləşdirilməyib; hətta o dövrdə yaşamış Mahmud Kaşğari belə bu barədə məlumat vermir, yalnız Qaraxanilər dövründən bəhs edir.

***(ardı var)***

# Leyla və Arzu Əliyevalar Banqladeşdə





**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva Banqladeş Xalq Respublikasının paytaxtı Dəkkə şəhərinə səfər ediblər.**

Səfər çərçivəsində Leyla Əliyeva və Arzu Əliyeva dekabrın 7-də Banqladeş Müvəqqəti Hökumətinin Baş müşaviri, dünyaşöhrətli iqtisadçı, Nobel Sülh Mükafatı laureatı professor Məhəmməd Yunusla görüşüblər.

Görüşdə Prezident İlham Əliyevin ən səmimi salamları Baş müşavir M.Yunusa çatdırılıb. Onun sonuncu dəfə 2024-cü ilin noyabrında COP29-da iştirak daxil olmaqla, müxtəlif illərdə Azərbaycana çoxsaylı səfərlər etdiyi, bir neçə dəfə Azərbaycan Prezidenti ilə görüşdüyü və ölkəmizdə hər zaman xoş qarşılandığı vurğulanıb. Azərbaycanın Banqladeşlə daim dostluq əlaqələrinə malik olduğu, müxtəlif formatlarda uğurla əməkdaşlıq etdiyi diqqətə çatdırılıb.

Məhəmməd Yunusa Leyla Əliyevanın və Arzu Əliyevanın Dəkkədə fəaliyyət göstərən valideyn himayəsindən məhrum olmuş və kimsəsiz uşaqlar üçün müəssisəni ziyarət etdikləri barədə məlumat verilib.

Heydər Əliyev Fondunun və IDEA İctimai Birliyinin Banqladeşin müvafiq təşkilatları ilə birgə humanitar, sosial, gənclər və könüllülər, ətraf mühit və təbiətin mühafizəsi kimi sahələrdə əməkdaşlıqda, həmçinin birgə layihələr həyata keçirməkdə maraqlı olduğu qeyd edilib.

Baş müşavir Məhəmməd Yunus ölkəmizə çoxsaylı səfərləri zamanı Azərbaycan Prezidenti ilə görüşlərini hər zaman məmnunluqla xatırladığını bildirib, öz növbəsində onun da salamlarını dövlətimizin başçısına çatdırmağı xahiş edib.

M.Yunus Azərbaycanın müxtəlif sahələrdə böyük nailiyyətlər əldə etdiyinin şəxsən şahidi olduğunu deyib, Banqladeşlə əməkdaşlığın inkişafı və praktiki dəstək proqramlarının icrası üzrə göstərilən səylərə görə dərin təşəkkürünü bildirib.

***





**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva Banqladeş Xalq Respublikasına səfər çərçivəsində paytaxt Dəkkə şəhərində yerləşən valideyn himayəsindən məhrum olmuş və kimsəsiz qız uşaqları üçün müəssisəni ziyarət ediblər.**

"Shorkari Shishu Poribar" (Dövlət Uşaq Evi) adını daşıyan bu müəssisənin rəhbərliyi və müəllim-tərbiyəçi heyəti qonaqlara qurumun fəaliyyəti barədə ətraflı məlumat verib. Bildirilib ki, Banqladeş Sosial Xidmətlər İdarəsinin nəzdində fəaliyyət göstərən və müxtəlif mənbələrdən könüllü ianələr hesabına maliyyələşən müəssisədə 130-dan çox uşaq daimi əsasda yaşayır. Onlara təhsillə yanaşı, gələcək həyata hazır olmaları üçün peşə təlimləri keçirilir və iş bacarıqları öyrədilir.

Sonra Leyla Əliyeva və Arzu Əliyeva uşaq evinin şəraiti və ehtiyacları, o cümlədən yataqxanası və tədris otaqlarının vəziyyəti ilə tanış olub, müəllim heyəti və uşaqlarla səmimi söhbət ediblər. Onlara Azərbaycan dövlətinin qlobal səviyyədə daim rəhbər tutduğu humanizm prinsipindən çıxış edərək Heydər Əliyev Fondu vasitəsilə müxtəlif ölkələrdə sosial layihələr həyata keçirdiyi barədə məlumat verilib, müəssisə ilə yardım proqramının icrası məsələsi müzakirə olunub.

Sonda uşaq evinin şagirdləri Azərbaycandan gələn qonaqlar qarşısında Banqladeş xalq mahnılarından və rəqslərindən ibarət proqramla çıxış ediblər.

*Beynəlxalq konfrans*

# "İslam dünyasında süni intellekt indeksinin təqdimatı"






**Dekabrın 8-də Heydər Əliyev Mərkəzində "İslam dünyasında süni intellekt indeksinin təqdimatı" beynəlxalq konfransının açılışı olub. Heydər Əliyev Fondunun, Elm və Təhsil Nazirliyinin təşkilatçılığı və ICESCO-nun tərəfdaşlığı ilə keçirilən konfransın məqsədi İslam dünyasında süni intellekt üzrə əməkdaşlığı gücləndirmək, süni intellektin etik, sosial və iqtisadi təsirlərini müzakirə etməkdir. Süni intellektin inkişaf trendlərinin elmi əsaslarla ölçülməsi üçün hazırlanmış "İslam dünyasında süni intellekt indeksi" sənədi də ilk dəfə Bakı konfransında təqdim olunub.**

Konfransın açılışında çıxış edən Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva bildirib ki, süni intellekt (AI) artıq gündəlik həyatın mühüm bir hissəsinə çevrilib. Onun sözlərinə görə, bu sahə böyük imkanlar yaratmaqla yanaşı, yeni suallar və məsuliyyətlər də ortaya çıxarır. Cəmiyyətin süni intellektin təsirini düzgün qiymətləndirməsinin, gənclərin risklərdən qorunaraq bu texnologiyanın imkanlarına yönləndirilməsinin vacibliyi xüsusi qeyd olunub.

Heydər Əliyev Fondunun vitse-prezidenti diqqətə çatdırıb ki, Azərbaycan bu istiqamətdə ardıcıl addımlar atır. 2025–2028-ci illər üçün Milli Süni İntellekt Strategiyası çərçivəsində milli süni intellekt ekosisteminin qurulması, dövlət xidmətləri üçün Azərbaycan dilində AI modelinin hazırlanması, dövlət qurumları üçün standartların müəyyənləşdirilməsi və Süni İntellekt Akademiyasının yaradılması nəzərdə tutulur.

Azərbaycanın elm və təhsil naziri Emin Əmrullayev çıxışında bildirib ki, süni intellekt artıq həyatımıza, iş fəaliyyətimizə və öyrənmə proseslərimizə təsir göstərir. Süni intellekt daha güclü, daha ədalətli və fərdi öyrənənlərə uyğunlaşdırılmış təhsil sistemlərinin qurulması üçün böyük potensiala malikdir. Lakin bu texnologiyadan məsuliyyətlə, etik prinsiplərə uyğun və düşünülmüş şəkildə istifadə olunmalıdır.









ICESCO-nun Baş direktoru Səlim bin Məhəmməd əl-Malik çıxışında qeyd edib ki, bəşəriyyət yeni bir mərhələnin – süni intellekt dövrünün astanasındadır. Süni intellekt artıq strateji hədəfə çevrilib: onu qəbul edənlər inkişafı sürətləndirir, ona qarşı çıxanlar isə tərəqqinin başqa istiqamətlərdə getdiyini görür və geridə qalacaqlar.

Sonra konfrans çərçivəsində ICESCO və Həmdan Bin Rəşid Əl Maktum Fondunun 4-cü birgə "Həmdan-ICESCO" mükafatının təltif edilmə mərasimi keçirilib. Heydər Əliyev Fondu İslam dünyası və digər ölkələrdə məktəblərin tikinti-bərpasına yönələn təhsil və sosial dəstək üzrə layihələrinə görə bu mükafatla təltif olunub.

Konfrans daha sonra "Təhsildə innovasiya: süni intellektin İslam dünyasında təsiri və imkanları" mövzusunda panel müzakirələrlə davam edib. Digər paneldə çıxış edən qonaqlar süni intellekt sahəsində ölkələrarası əlaqələndirmənin gücləndirilməsinin, etik və sosial-iqtisadi aspektlərin araşdırılmasının, dayanıqlı və inklüziv texnoloji inkişafın təmin olunmasının önəmini vurğulayıblar

Konfransın sonunda İslam dünyasında süni intellekt indeksi üzrə Bakı Bəyannaməsi qəbul edilib.

Qonaqlar konfrans çərçivəsində Heydər Əliyev Mərkəzində təqdim olunan "Mənim dənizlərim, mənim okeanlarım" koloji sərgisinə baxıblar.

***

**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva konfrans çərçivəsində ICESCO-nun Baş direktoru Səlim bin Məhəmməd əl-Maliklə görüşüb.**

ICESCO-nun Baş direktoru yenidən Azərbaycanda olmaqdan məmnunluğunu bildirib, süni intellekt indeksinin təqdimatı ilə bağlı beynəlxalq tədbirin Bakıda yüksək səviyyədə təşkilinə görə minnətdarlığını ifadə edib. Leyla Əliyeva ölkəmizə davamlı dəstəyinə və mədəniyyətimizin təşviqinə istiqamətlənən tədbirlərə görə ICESCO-ya minnətdarlığını çatdırıb.

Sonda Heydər Əliyev Fondu ilə ICESCO arasında Nigerin üç regionunda münaqişədən zərər çəkmiş qadınların imkanlarının genişləndirilməsi və sosial inklüzivlik istiqamətində həyata keçirilən layihə ilə bağlı saziş imzalanıb.

***

**Leyla Əliyeva həmin gün Həmdan Bin Rəşid Əl Maktum Fondunun ali sədri Şeyx Rəşid bin Həmdan bin Rəşid Əl Maktum ilə də görüşüb.**

"İslam dünyasında süni intellekt indeksinin təqdimatı" konfransında iştirakdan məmnunluğunu bildirən Şeyx Rəşid bin Həmdan bin Rəşid Əl Maktum süni intellekt üzrə tədbirlərin, bu sahədə əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətini vurğulayıb. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva hər iki qurum arasında əməkdaşlıq perspektivlərinin vacibliyini diqqətə çatdırıb. O, Heydər Əliyev Fondunun fəaliyyəti dövründə təhsil və sosial sahələrə hər zaman önəm verdiyini qeyd edib, Fondun "Həmdan-ICESCO" mükafatı ilə təltif olunmasına görə minnətdarlığını ifadə edib.

***XQ***

# Heydər Əliyev və azərbaycançılıq qaynaqları

*Ulu öndər Cəlil Məmmədquluzadə irsinə yüksək qiymət verirdi*



**Bir neçə gün əvvəlin söhbətidir. Keçmiş Hüsü Hacıyev, indiki Ceyhun Hacıbəyli küçəsindən Süleyman Tağızadə küçəsinə tərəf dönüb, vaxtilə "Sovetski" adlanan məhəllədə ensiz, dar küçə ilə üzüyuxarı piyada qalxmağa başladım. Böyük ustadımız Cəlil Məmmədquluzadənin Ev-Muzeyinə tərəf gedirdim. Bu məfkurə ocağı Azərbaycanın ovaxtkı rəhbəri Nəriman Nərimanovun görkəmli ədibə hədiyyə etdiyi 5 otaqlı mənzildə yerləşir. Mirzə Cəlil həyatının son 12 ilini (1920-1932-ci illər) ailəsi ilə bu evdə yaşayıb.**

Muzeyə doğru gedərkən qeyri-ixtiyari addımlarımı yavaşıdıb ətrafa boylanır, ədəbiyyatımızın və publisistikamızın böyük klassikinin bir vaxtlar hər gün buradan ötüb keçdiyini, nəfəsinin bu köhnə küçə və binalara hopduğunu düşünürdüm. Mirzə Cəlilin ev-muzeyini bu il artıq 4-cü dəfədir ki, ziyarət edirdim. **Muzeyin direktoru Yeganə Məmmədovanın** "Siz bu ocaqdan ən çox yazan jurnalistsiniz" sözlərini xatırlayıb qəlbimdə bir az da qürurlandım.

Bir an ürəyimdən keçdi ki, dolu bədənli, ürəyi xəstə olan Mirzə Cəlilə ahıl yaşlarında bu xeyli dik yoxuşlu küçəni piyada qət etmək heç də rahat olmayıb. Məlumdur ki, ömrünün son illərində ailəsi böyük maddi çətinliklərlə üzləşmişdi. Yeganə xanımın sözlərinə görə, üstəlik, zorən "Allahsızlar İttifaqı" ilə bağlı qaragüruh da onu çox incidib. Bu və digər bu günün özündə belə narahatlıq doğuran fikirlərlə girişdə böyük ədibin barelyefi olan tanış ünvana necə çatdığımı hiss etmədim.

3-cü mərtəbəyə qalxdım. Ömrünün böyük hissəsini burada əvvəlcə elmi işçi, baş elmi işçi, son illər isə direktor vəzifəsində çalışan Yeganə Məmmədova dahi siyasətçi Heydər Əliyevin muzeyin açılması, əsaslı təmir olunması və səmərəli fəaliyyətindəki rolu barədə yazı hazırlamaq niyyətimdən xəbərdar idi. Məni bu dəfə də ona xas olan səmimiyyətlə qarşılayaraq mehribancasına "Xoş gəlmisiniz. Cəlil Məmmədquluzadə muzeyi hər bir qələm əhlinin mənəvi ata ocağıdır", - dedi.

Qələm və bloknotumu çıxardım. Muzeyin direktoru əvvəlcə belə bir məqamı diqqətə çatdırdı ki, Ulu öndər hələ sovetlər dönəmində, daha dəqiq desək, 1978-ci ildə Cəlil Məmmədquluzadənin yaşadığı bu mənzildə onun ev-muzeyinin yaradılması barədə sərəncam vermişdi. 1979–1980-ci illərdə muzeydə fond materiallarını toplamağa başlayıblar. Lakin bu iş sonralar yarımçıq qalıb. 1982-ci ildə Heydər Əliyev Kremldə yüksək vəzifəyə irəli çəkiləndən sonra muzeyin təmirinə və açılışına məsul olanlar, təəssüf ki, öhdələrinə düşən vəzifələri yerinə yetirməyiblər.

Qeyd etmək lazımdır ki, o dönəmdə ölkə mətbuatı və televiziyalar muzeyin təmir olunması və açılışının yubadılması faktını dəfələrlə kəskin tənqid ediblər. Amma bunun da elə bir faydası olmayıb. Muzeyin otaqları baxımsızlıq üzündən çox pis vəziyyətə düşüb. Yalnız dahi siyasətçi Heydər Əliyevin müdaxiləsindən sonra vəziyyət köklü surətdə dəyişib. Belə ki, 1993-cü ilin yayında xalqımızın israrlı tələbi ilə Azərbaycanda siyasi hakimiyyətə qayıtmış Ulu öndər Mirzə Cəlilin Ev-Muzeyinin taleyi ilə maraqlanaraq, 1994-cü il iyunun 16-da Cəlil Məmmədquluzadənin 125 illiyinin keçirilməsi barədə sərəncam imzalayıb. Bundan sonra aidiyyəti qurumlar təcili surətdə muzeyin əsaslı təmirinə və fond materiallarının toplanmasına başlayıblar.

Vaxt, vədə yetişib. Hamı böyük intizarla açılış mərasimini gözləyirdi. 1994-cü il dekabrın 28-də Prezident Heydər Əliyev şəxsən özü muzeyin açılışına gəlib. Açılış mərasimində 70-ə yaxın rəsmi şəxs, alimlər, mədəniyyət xadimləri və KİV mənsubları iştirak ediblər.

Ali qonağa muzeyin ekspozisiyası barədə geniş məlumat verməyi muzeyin gənc elmi işçisi Yeganə Məmmədovaya həvalə ediblər. Yeganə xanım, təbii ki, Ulu öndərin qarşısında çıxış etməyin nə qədər böyük məsuliyyət olduğunu gözəl dərk edirdi və özünün sözlərinə görə, dərin məsuliyyət hissi ilə həyatının ən böyük imtahanına ciddi hazırlaşıb.

**Gəlin, bu məqamda Yeganə Məmmədovanın özünü dinləyək:**

– Bugünkü kimi yadımdadır. 1994-cü il dekabrın 28-i idi. Saat 11-ə bir neçə dəqiqə qalırdı. Prezident Heydər Əliyev muzeyə daxil oldu. Ətrafa göz gəzdirdi. Mən bu dahi insanı həyatda ilk dəfə idi ki, görürdüm. Buradakı səliqə-sahmanı görüb gülümsədi, ovqatı yaxşı idi, simasından nur yağırdı.

Əvvəlcə 7 yaşlı Ləman (Yeganə xanımın böyük qızıdır–müəllif) əlində gül dəstəsi ilə Heydər babanı ucadan salamlayaraq dedi:

– Hörmətli Prezident, Mirzə Cəlil ocağına xoş gəlmisiniz!"

Heydər Əliyev gülümsədi və əyilib qızcığazın alnından öpdü.

Bununla da hiss və həyəcanımız azaldı.

**Yeganə xanım bu sözləri deyərək bir an nəfəsini dərdi. Hiss olunurdu ki, ürəyi doludur. Sonra fəxrlə söhbətinə davam etdi:**

– Heydər Əliyev sonra qırmızı lenti kəsdi. O lent muzeydə əziz bir yadigar kimi saxlanılır. Bundan sonra mən Cəlil Məmmədquluzadənin həyat və yaradıcılığı barədə Prezidentə məlumat verməyə başladım. Söhbət 1920-ci illərin əvvəllərinə gəlib çatanda söylədim ki, təəssüf ki, Sovetlər Birliyində Mirzə Cəlilə çox haqsızlıqlar edilib, özü və ailə üzvləri haqsız təqib və təzyiqlərə məruz qalıb. O dönəmdə keçmiş İttifaq təzəcə dağılmışdı. Ulu öndərin bu fikrə necə münasibət göstərəcəyini bilmirdim. Amma dahi siyasətçi başını razılıq əlaməti ilə tərpətdi.

Sonra Ulu öndər üzünü mərasimdə iştirak edən Xalq yazıçıları Anara və Elçinə tutaraq gülümsəyərək dedi:

– Baxın, siz indiki dövrdə kef edirsiniz, görün, yazıq Mirzə Cəlil nələr çəkib!

Zaldakılar gülüşdülər.

Yeganə Məmmədova sonra nəql etdi ki, dahi siyasətçinin bu replikası hamının əhval-ruhiyyəsini bir qədər də yüksəltdi. Bundan sonra muzey bələdçisi ayrı-ayrı otaqlardakı əsas eksponatları bir-bir təqdim etdi.

Qeyd etmək lazımdır ki, Yeganə Məmmədova BDU-nun filologiya fakültəsini əla qiymətlə bitirib. Tələbə dostları arasında əsərlərini çox sevdiyi və dönə-dönə mütaliə etdiyi Mirzə Cəlil yaradıcılığının "fanat"larından sayılıb. Eyni zamanda, yaxşı bilirdi ki, Ulu öndər özü də Cəlil Məmmədquluzadənin ölməz əsərlərinin vurğunudur və böyük ədiblə bağlı, demək olar ki, hər şeyi çox yaxşı bilir.

**Yeganə xanım bu an yenidən qəlbini dolduran qürur və riqqət hissi ilə dilləndi:**

– Bəli, o mənə, sanki, çox şeyi ilk dəfə eşidirmiş kimi, o qədər diqqətlə və maraqla qulaq asırdı ki, mən qarşımda dərin biliyə və yüksək mədəniyyətə sahib olan dahi bir şəxsiyyətin dayandığının fərqinə varsam da, danışdıqca danışmaq istəyirdim.

Muzeyin eksponatlarının nümayiş olunduğu 5-ci otaqda ("Molla Nəsrəddinçilər otağı") 55 dəqiqə çıxış edərək fikrimi bu sözlərlə bitirdim:

– Ey böyük Mirzə Cəlil, millət olaraq sənə həmişə borcluyuq!

Bundan sonra bir qədər kənara çəkildim.

Heydər Əliyev üzünü rəsmilərə tutub belə bir sual verdi:

– Mən bu muzeyin əsaslı təmir olunması barədə hələ 16 il qabaq sərəncam vermişəm. Muzey niyə vaxtında təmir olunmayıb?

**Bu məqamda gəlin yenidən hadisənin canlı şahidi Yeganə Məmmədovanı dinləyək:**

– Bu sözləri deyəndə Heydər Əliyevin səsində qəribə bir ağrı, giley və narazılıq vardı. Onun bu gözlənilməz sualı hamını çaşdırdı. Heç kim dinmir, hamı başını aşağı salıb susurdu. Belə bir gərgin anda birdən-birə özümdə cəsarət taparaq ali qonağa yaxınlaşdım və dedim:

– Hörmətli cənab Prezident! Böyük şəxsiyyətlərə böyük insanlar dəyər verər! Mirzə Cəlilə siz dəyər verdiniz. Çox sağ olun. Sizə sonsuz minnətdarıq!

Heydər Əliyev bu sözlərdən sonra ürəkdən gülərək əlimi sıxdı və mənə təşəkkür etdi. Bir neçə dəqiqə hamı əl çaldı. Zalda yenidən əvvəlki xoş əhval-ruhiyyə yarandı. Özümü xoşbəxtlərin xoşbəxti sanırdım. Bu, mənim həyatımda ən bəxtəvər və unudulmaz anlar idi!

Sonra Heydər Əliyev muzeyin rəy kitabının ilk səhifəsində ürək sözlərini yazıb: "Bu gün Azərbaycanın həyatında böyük bir hadisə baş verir. Azərbaycan xalqının böyük yazıçısı, maarifçisi, ictimai xadimi Cəlil Məmmədquluzadənin Ev-Muzeyi açılır. Bakı şəhərində yeni mədəniyyət ocağı, Mirzə Cəlil ocağı fəaliyyətə başlayır. Bu, Cəlil Məmmədquluzadə yaradıcılığına, onun ədəbi-mədəni irsinə, onun xalqımızın tarixinə əvəzsiz xidmətlərinə verilən yüksək qiymətin rəmzidir. Şübhə yoxdur ki, muzey Mirzə Cəlil dühasının təbliğinə faydalı xidmət edəcəkdir. Xalqımızın mənəvi saflaşmaq yolunda, müstəqillik yolunda mübarizəsinə xidmət edəcəkdir".

Rəy kitabına ürək sözlərini yazandan sonra Heydər Əliyev muzey əməkdaşlarına fəaliyyətlərində böyük uğurlar arzulayıb.

Yeganə xanım deyir:

– Açılış mərasimində çox səmimi ab-hava, isti münasibət yaranmışdı. Həmin gün böyük Mirzə Cəlilin bayramı idi! Onun ruhu şad idi! Öz parlaq yaradıcılığı ilə ömrü boyu cəfakeş xalqının həyatına işıq salan bir mütəfəkkirin bayramı idi! Bütövlükdə, ədəbiyyatımızın və milli mədəniyyətimizin bayramı idi! Bu unudulmaz bayramı bizə xalqımızın xilaskar oğlu, dahi siyasətçi Heydər Əliyev bəxş etmişdi!

Dahi siyasətçi muzeyi tərk edəndən sonra açılış mərasimində iştirak edən hörmətli ədəbiyyatşünas alimlər, akademiklər – Yaşar Qarayev, Kamal Talıbzadə, İsa Həbibbəyli və digərləri kollektivi, xüsusilə də ekspozisiyanın Ulu öndərə yüksək səviyyədə təqdimatına görə Yeganə Məmmədovanı təbrik ediblər.

Akademik İsa Həbibbəyli Yeganə xanıma yaxınlaşaraq deyib:

– Siz bu gün muzeydə dahi siyasətçiyə təkcə bələdçilik etmədiniz, həm də Mirzə Cəlil barədə qəlbinizin bütün hərarəti ilə özəl fikirlərinizi söylədiniz. Hiss etdim ki, məhz bu məqam Ulu öndərin çox xoşuna gəldi. O, sizi çox diqqətlə dinləyir və fikirlərinizdən məmnun qalırdı!

Yeri gəlmişkən, muzeydə öyrəndim ki, AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli Cəlil Məmmədquluzadənin Ev Muzeyinin, fondunun qiymətli eksponatlarla zənginləşməsinə böyük köməkliklər göstərib. Hörmətli akademik bu gün də muzeylə əlaqəsini kəsmir və bu böyük mədəniyyət ocağının normal fəaliyyəti üçün əlindən gələn köməyi əsirgəmir.

Xatırladaq ki, muzeyin açılışı günü axşam Respublika Sarayında (Heydər Əliyev Sarayı) Cəlil Məmmədquluzadənin anadan olmasının 125 illiyinə həsr olunmuş təntənəli mərasim keçirilib. Məclisə Mirzə Cəlilin adını daşıyan muzeyin kollektivi də dəvət olunub.

Toplantıda ümummilli lider Heydər Əliyev Cəlil Məmmədquluzadənin Azərbaycan mədəniyyətinin inkişafındakı rolu və ədibin zəngin irsinin hərtərəfli tədqiq və təbliğ olunmasının əhəmiyyəti barədə parlaq nitq söyləyib, paytaxtda Mirzə Cəlilə həsr olunan muzeyin açıldığını xüsusi diqqətə çatdırıb.

Yeri gəlmişkən, Cəlil Məmmədquluzadənin Ev-Muzeyində Ulu öndərin açılış mərasimində iştirakını əks etdirən fotolar, qəzet materialları, nəfis şəkildə hazırlanmış ayrıca bir stend də nümayiş etdirilir. Yeganə xanımla həmin stendin qarşısında durub oradakı tarixi fotolara bir daha nəzər yetirdik. Bu an muzeyin direktoru dahi Heydər Əliyevin önündə söylədiyi sözləri bir daha qürurla təkrar etdi:

–Böyük şəxsiyyətlərə böyük insanlar dəyər verər!

***Məsaim ABDULLAYEV***
***XQ***

**Əmanətlərin Sığortalanması Fondunda (ƏSF) sosial məsuliyyət təşəbbüsləri çərçivəsində növbəti könüllü qanvermə aksiyası keçirilib. Aksiya Səhiyyə Nazirliyi, Respublika Qan Bankının donor proqramı ilə əməkdaşlıq şəraitində təşkil olunub və məqsəd ölkədə qan ehtiyatlarının təhlükəsiz səviyyədə saxlanmasına dəstək verməkdən ibarət olub.**

# Əmanətlərin Sığortalanması Fondunda könüllü qanvermə aksiyası



Aksiyanın əsas məqsədi talassemiya, hemofiliya və digər qan xəstəliklərindən əziyyət çəkən vətəndaşların həyatının xilas edilməsinə dəstək olmaq, eləcə də cəmiyyətdə könüllülük və həmrəylik mədəniyyətinin gücləndirilməsinə töhfə vermək olub.




Fondun rəhbərliyi və əməkdaşları aksiyada fəal iştirak edərək qan ehtiyatlarının artırılmasına öz töhfələrini veriblər.

Qanvermə prosesi tibbi təhlükəsizlik standartlarına uyğun şəkildə təşkil olunub. Aksiya zamanı həkim müayinəsi, donorların sağlamlıq vəziyyətinin qiymətləndirilməsi və qan götürülməsi mərhələləri peşəkar tibbi personal tərəfindən həyata keçirilib.

Qan xəstəliklərindən əziyyət çəkən çox sayda insan hər il donor qanının çatışmazlığı səbəbindən həyati təhlükə ilə üzləşir və ya səhhətində ciddi ağırlaşmalar baş verir. Bu səbəbdən kütləvi qanvermə təşəbbüslərinin təşkil olunması cəmiyyət üçün vacib sosial əhəmiyyət daşıyır və belə insanların həyatının xilas edilməsində mühüm rol oynayır.

***XQ***

*Beynəlxalq həyat*

# Suriya "Azadlıq günü"nü qeyd edir

**Dekabrın 8-i Suriyada "Azadlıq günü"dür. Həmin günü ölkə əhalisi 61 illik Baas rejimindən qurtuluşun rəmzi kimi bayram edir. Budur, sabiq dövlət başçısı Bəşər Əsədin ölkəni tərk etməsindən artıq bir il keçir. Bu bir il ərzində Suriya yeni hakimiyyətin fəaliyyəti nəticəsində sabitləşməkdə və təhlükəsizliyini möhkəmləndirməkdə davam edib.**

Artıq ölkə sakinləri də əmindirlər ki, Əsəd rejiminin devrilməsindən sonra həyatın bütün sahələrinə sirayət etmiş çətinliklər keçmişdə qalıb. Onların fikrincə, yeni rəhbərlik ölkəni xüsusilə azadlıq, iqtisadiyyat və təhlükəsizlik baxımından daha yaxşı gələcəyə aparır və xalqı qarşıda daha parlaq günlər gözləyir.

Əhali inanır ki, yeni rəhbərlik bir tərəfdən sosial-iqtisadi islahatlar aparır, digər tərəfdən isə, vətəndaşların gündəlik həyatına birbaşa təsir edən qərarlar qəbul edir. Məsələn, iyun ayında prezidentin sərəncamı ilə dövlət qulluqçularının maaşları 200 faiz artırılıb. Bununla da orta əmək haqqı 250 min Suriya lirəsindən 750 min lirəyə yüksəlib.



Eyni zamanda, 14 illik bombardmanlar nəticəsində ciddi zədələnmiş elektrik şəbəkəsində təmir-bərpa işləri aparılır. Energetika Nazirliyindən bildirilib ki, Türkiyənin dəstəyi və Azərbaycandan təbii qaz tədarükü sayəsində əsas elektrik stansiyalarında təmir işləri aparmaq və hasilatı artırmaq mümkün olub. Əsəd dövründə gündə cəmi bir neçə saat elektrik enerjisi verilirdisə, indi bu rəqəm sürətlə gündə 12-14 saata yüksəlib.

Hələb, Höms və Dəməşq kimi böyük şəhərlərdə son 15 ildə ilk dəfə gecə-gündüz elektrik enerjisi sınaq rejimində təmin edilib. Cəmiyyətin ürək ağrısına çevrilmiş Sednaya, Mezzeh həbsxanaları və Xətib şöbəsi həmişəlik bağlanıb.

"Azadlıq günü" ərəfəsində Türkiyənin "Anadolu" agentliyinə danışan suriyalılar bildiriblər ki, ölkə böyük bir fəlakətdən xilas olub. Belə ki, əvvəlki rejimin dövründə nəqliyyatın işi, demək olar ki, bərbad vəziyyətə düşüb, yanacaq çatışmazlığı səbəbindən insanlar saatlarla mikroavtobus gözləyiblər. İndi yanacağın mövcudluğu sayəsində həyat normallaşıb. İnfrastruktur və xidmətlər nəzərəçarpacaq dərəcədə yaxşılaşıb. Yollar təmir olunur, insanlar pul üçün deyil, ölkəni ayağa qaldırmaq üçün çalışırlar.

Dəməşq sakinləri bildiriblər ki, təhlükəsizliyin hazırkı səviyyəsi keçmişlə müqayisəolunmazdır. Tibbi yardım almaq kifayət qədər əlçatan olub. Bəziləri hətta atılan addımlar sayəsində Suriyanın normal bir ölkəyə bənzəməyə başladığını deyiblər. Bir çoxları qeyd ediblər ki, ölkə həbsxanadan təhlükəsizlik, hörmət və ləyaqət məkanına çevrilib. İqtisadi vəziyyət yaxşılaşıb. Dolların kursu 17 min lirədən 12 minə düşüb. Bir sözlə, Suriya irəliləyir, yüksəlir. Xalq bu mühüm dəyişikliklərin mühərrikidir. Vətəninə qayıdan hər kəs ölkənin yenidən qurulmasına töhfə vermək üçün çalışır.

Məhz buna görədir ki, son bir il ərzində ölkəyə qayıdan suriyalı qaçqınların sayı da artmaqdadır. Türkiyənin xarici işlər naziri Hakan Fidanın noyabrın sonlarında verdiyi məlumata görə, təkcə onun ölkəsindən Suriyaya 550 mindən çox qaçqın qayıdıb. Bu isə o deməkdir ki, son beş ildə Türkiyədə məskunlaşmış suriyalı qaçqınların sayı 25,8 faiz azalıb.

Türkiyənin xarici işlər naziri bu günlərdə Qətərin paytaxtında keçirilən 23-cü Doha Forumu çərçivəsində Suriya XİN başçısı Əsəd Həsən əl-Şeybani ilə görüşü zamanı Suriya xalqını və həmkarını 8 dekabr – "Azadlıq günü" münasibətilə təbrik edib. Türkiyə diplomatik idarəsindəki mənbələrdən verilən məlumata görə, görüşdə Fidan ölkəsinin Suriyada sabitlik, təhlükəsizlik və rifahın bərqərar olması üçün səyləri dəstəkləməyə davam edəcəyini vurğulayıb.

Suriyalıların vətənlərinə dönüş prosesi davam etməkdədir. Bir müddət əvvəl Türkiyənin daxili işlər naziri Əli Yerlikaya da suriyalı qaçqınların fəal şəkildə qayıtdıqlarını bildirmişdi. Nazirin məlumatına görə, Suriyada hakimiyyət dəyişikliyindən sonra (2024-cü il dekabrın 8-dən etibarən) qonşu ölkəyə könüllü əsasda 474 mindən artıq suriyalı geri dönüb. Ümumilikdə isə, 2016-cı ildən bu göstərici 1 milyon 213 min 620 nəfərə çatıb.

Yerlikaya Türkiyə hakimiyyətinin qaçqınların Suriyaya könüllü və ləyaqətli şəkildə qayıdışına dəstək verməyə hazır olduğunu vurğulayıb.

***Paşa ƏMİRCANOV***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 259 (30953) 9 dekabr 2025-ci il, çərşənbə axşamı

## İDMAN

### Misli Premyer Liqasında XIV tur

**Dünən Misli Premyer Liqasında XIV turun növbəti oyunları keçirilib. Günün ilk qarşılaşmasında "Qəbələ" "Turan Tovuz"u qəbul edib. Qəbələ şəhər stadionunda keçirilən oyun 23-cü dəqiqədə hava şəraitinə görə dayandırılıb.**



Günün ikinci görüşündə "Sabah" "Neftçi"ni qəbul edib. "Bank Respublika Arena"da baş tutan qarşılaşmada 2:0 hesabı qeydə alınıb.

Qeyd edək ki, XIV turun əvvəlki oyunlarında "Şamaxı" "Karvan-Yevlax"a 3:0 hesabı ilə qalib gəlib, "Zirə" "Qarabağ" görüşü isə heç-heçə yekunlaşıb – 1:1.

Turnir cədvəlinə 30 xalla "Qarabağ" başçılıq edir. İkinci yerdə 27 xalla "Zirə", 3-cü pillədə isə 25 xalı olan "Sabah" qərarlaşıb.

XIV turun son oyunlarına bu gün yekun vurulacaq.

### Şahmatçılarımız Dünya Çempionatında iştirak edəcəklər

**Respublika Şahmat Mərkəzində kişi və qadınlar arasında şahmatın rapid və blits növü üzrə təşkil edilən Azərbaycan çempionatına yekun vurulub.**



4 gün davam edən çempionatda 32 kişi və 20 qadın şahmatçı mübarizə aparıb. Qalib rapid və blits nəticələrin cəminə əsasən müəyyənləşib.

Qadınların yarışında iki turnirin cəminə əsasən 13 xal toplayan Türkan Məmmədyarova birinci yeri tutub. Eyni xala malik Mələk İsmayıl əlavə göstəricilərə əsasən ikinci yerlə kifayətlənib. Üçüncü yerdə 12 xal toplayan Ləman Hacıyeva qərarlaşıb.

Kişilərin yarışında isə qalib adını yığmanın liderlərindən olan Rauf Məmmədov qazanıb. Cari ildə klassik şahmatda da Azərbaycan çempionu olan R.Məmmədov 14 xalla bütün rəqiblərini geridə qoyub. Çempiondan 1 xal az toplayan Murad İbrahimli ikinci yerdə qərarlaşıb. Hərəyə 12.5 xal toplayan Read Səmədovla Aydın Süleymanlı yarışı müvafiq olaraq 3-4-cü yerdə başa vurub.

Həm kişilərin, həm də qadınların turnirində ilk üç yeri tutan şahmatçılar 25-31 dekabrda Qətərin paytaxtı Dohada keçiriləcək Dünya Çempionatında ölkəmizi təmsil edəcəklər.

### Həndbol mövsümünə start!

**Kişi və qadın həndbolçular arasında Azərbaycan çempionatında 2025/2026-cı il mövsümünə start verilib.**



Azərbaycan Həndbol Federasiyasının İdman Kompleksində baş tutan kişilərin mübarizəsində "Bakı" "Azəryol"u (40:21), "Dinamo" "Təhsil"i (33:30) məğlub edib. "Kür" Olimpiya Tədris-İdman Mərkəzində keçirilən turun mərkəzi matçında isə "Qarabağ" "Kür"ə (22:20) qalib gəlib.

Qadınların mübarizəsində "İdman Akademiyası" "Bakı"ya (44:13), "Azəryol" "Təhsil"ə (57:16), "Kür" isə "Qarabağ"a (49:25) qalib gəlib.

Hər üç oyun Azərbaycan Həndbol Federasiyasının İdman Kompleksində təşkil olunub.

*Qabil YUSİFOĞLU*
*XQ*



# İstanbul: Türk dünyasının baş şəhəri

**Bu dəfə söhbətimiz məsafədə uzaq görünsə də, ruhən ən yaxın olduğumuz bir məkandan - qardaş Türkiyənin İstanbul şəhərindən olacaq. Boğaz küləklərinin tarixlə çulğalaşdığı, minilliklərin nəfəsini daşıyan bu şəhər həm qəlbimizə doğmadır, həm də önümüzdə taleyimizə yazılmış bir yaddaş kitabı kimi açılır.**



İstanbul. Sanki taleyin iki qitə arasında qurduğu nəhəng körpüdür. Bu şəhərin daşında səs, suyunda şəfəq, səmalarında isə özümüzü tapdığımız bir ümid var. Burada hər səhər günəş Ayasofyanın minillik divarlarına toxunarkən, sanki tarix yenidən oyanır, keçmişlə gələcək arasında görünməz bir pərdə açılır.

Azərbaycan türkü üçün İstanbul təkcə böyük bir metropol deyil. Bu şəhər bizim üçün Vətən qoxulu bir nəfəsdir: Çanaqqala şəhidlərimizin xatirəsi, İstiqlal şairlərinin səsi, qardaşlığımızın döyünən ürəyidir. Burada addımladığın hər küçə, içdiyin hər çay, eşitdiyin hər salam insana bir doğmalıq hissi ötürür: **"Biz eyni kökün budaqlarıyıq".**

İstanbul Türkiyənin şimal-qərbində yerləşən, həm Asiya, həm də Avropa qitələrini birləşdirən nadir şəhərlərdən biridir. Mərmərə dənizi və Bosfor boğazı ilə əhatə olunmuş bu şəhər, təbiəti, tarixi və mədəniyyəti ilə yalnız Türkiyənin deyil, dünyanın da ən vacib mərkəzlərindən birinə çevrilib. Bir qitədən digərinə keçmək üçün yalnız bir körpü keçmək kifayətdir – və bu, İstanbulun özəlliyinin yalnız bir parçasıdır.

İstanbulun həm yerli, həm də xarici turistləri cəlb edən ən görməli yerləri isə heç də az deyil. Gəlin, İstanbulun ən populyar və gözəl yerlərini bir-bir nəzərdən keçirək.

#### Topqapı Sarayı

Topqapı Sarayı İstanbulun simvollarından biridir. Dörd əsr boyunca Osmanlı sultanlarının iqamətgahı və dövlətin mərkəzi olan bu saray ziyarətçilərə Osmanlı imperiyasının zəngin mədəniyyətini və tarixini hiss etdirir. Əgər İstanbulda yalnız bir yer ziyarət edəcəksinizsə, bu, Topqapı Sarayı olmalıdır. Sarayda keçiriləcək bir saatlıq ziyarət belə mütləq unudulmaz təəssüratlar bəxş edəcək.

#### Ayasofya

Ayasofya 1500 illik tarixi ilə İstanbulun ən möhtəşəm və zəngin irsə sahib binalarından biridir. İlk dəfə kilsə olaraq tikilən, sonradan məscidə çevrilən və son olaraq muzey kimi fəaliyyət göstərən Ayasofya, 2020-ci ildə yenidən məscid kimi istifadə edilib. Bu möhtəşəm abidə həm memarlıq baxımından, həm də dini və tarixi əhəmiyyəti ilə ziyarətçiləri təsirləndirir.

#### Sultanəhmət və Göy Məscid

İstanbulun simvollarından biri olan Sultanəhməd, 17-ci əsrdə inşa edilmiş və mavi İznik çiniləri ilə bəzədilmiş Göy Məscidi ilə tanınır. Bu məscid 6 minarəsi ilə dünyanın ən diqqətçəkən məscidlərindən biridir. Göy Məscid həm də müasir İstanbulun mədəniyyətinin və incəsənətinin əks olunduğu yerlərdən biridir. Ziyarətçilər burada yalnız dini abidə deyil, həm də İslam memarlığının yüksək nümunələrini görürlər.

#### Bizans Hipodromu və İbrahim Paşa Sarayı

Bizans dövrünə aid olan Hipodrom, Sultanəhməd meydanında yerləşir və İstanbulun qədim tarixinin bir parçasıdır. Burada bir zamanlar at yarışı və digər əyləncələr keçirilib. Bugünkü Bizans Hipodromu, turistləri həm tarixi keçmişi, həm də möhtəşəm alman fəvvarəsi ilə cəlb edir. Eyni ərazidə yerləşən İbrahim Paşa Sarayı isə Türk və İslam sənətinin incilərinə evsahibliyi edir. Bu muzey İstanbulun zəngin mədəniyyətini araşdırmaq istəyənlər üçün gözəl bir seçimdir.

#### Yerebatan Sarnıcı

İstanbulun ən maraqlı və mistik yerlərindən biri olan Yerebatan Sarnıcı, qədim Konstantinopolun su anbarıdır. Sarnıcın sütunları və yeraltı havası, bura gələn hər kəsi əsrarəngiz bir dünyaya aparır. Bu yer, xüsusilə romantik atmosferi ilə məşhurdur və bura hər zaman ziyarətçilərlə doludur. Bir zamanlar şəhəri su ilə təmin edən bu yer indi turistlər üçün tarixi sərgüzəştə çevrilib.

#### Qapalı Çarşı və Misir Çarşısı

İstanbulun ən böyük bazarı olan Qapalı Çarşı 4000-dən çox mağazası ilə məşhurdur. Keçmişdə Böyük İpək Yolu üzərində yerləşən bu bazar, tarixlə gələcəyin birləşdiyi yerdir. Hər küncdə antik əşyalar, keramika, xalçalar və zərgərlik əşyaları satılır. Misir Çarşısı isə ədviyyatlar və qəhvələri ilə tanınır. Buranın ticarət ruhu hər zaman canlıdır və bazarlıq etmək üçün mükəmməl yerdir.

#### Bəyoğlu və Qalata

İstanbulun Avropa hissəsindəki Bəyoğlu, romantik atmosferi və bohem həyat tərzi ilə diqqət çəkir. Buradakı İstiqlal caddəsi, şəhərin ən məşhur alış-veriş və mədəniyyət mərkəzlərindən biridir. Eyni zamanda, Qalata Qülləsi də burada yerləşir və bu qədim qala şəhərin ən gözəl mənzərələrini təqdim edir. Gün batmadan əvvəl qülləyə çıxaraq İstanbulun möhtəşəm mənzərəsini izləmək, ziyarətçilərə unudulmaz anlar yaşadır.

#### Dolmabağça Sarayı

Dolmabağça Sarayı barok memarlığının ən gözəl nümunələridir və Türkiyə tarixinin mühüm məkanlarından birinə çevrilmişdir. Saray Sultan I Əbdül Məcidin dönəmində inşa edilib və sonradan Mustafa Kamal Atatürkün iqamətgahı olub. Bu möhtəşəm saray və onun ətrafındakı park, həm də İstanbulun ən çox ziyarət edilən turistik məkanlarından biridir.

#### Böyük Ada

İstanbuldan qaçmaq və təbiətə yaxınlaşmaq istəyənlər üçün Böyük Ada əla seçimdir. Burada nəqliyyat qadağandır və insanlar yalnız piyada, velosiped və ya at arabası ilə gəzə bilərlər. Mərmərə dənizinin zümrüd rəngindəki sularında üzmək, sükunət tapmaq üçün ideal bir məkandır.

#### Qız qalası: əfsanələr və tarix bir arada

Qız qalası Bosforun ortasında yer alan və çoxsaylı əfsanələrlə bağlı olan simvoldur. Qala haqqında müxtəlif əfsanələr mövcuddur, amma bir şey aydındır: bu möhtəşəm abidə İstanbulun gözəl mənzərəsini izləmək üçün mükəmməl məkandır. Qız qalası romantik məkan olaraq da ziyarətçilərin marağını çəkir.

İstanbul yalnız tarixi abidələr və memarlıqla deyil, həm də mədəniyyət və həyat tərzi ilə bir cazibə mərkəzidir. Hər küncündə keçmişin izləri və gələcəyin üfüqləri var. Bu şəhəri kəşf etmək, yalnız bir turistik ziyarət deyil, həm də bir həyat təcrübəsidir. İstər tarixi yerləri, istərsə də müasir İstanbul həyatını araşdıraraq bu şəhərin ruhunu hiss etmək mümkündür. İstanbulun hər bir görməli yeri bir hekayə danışır və hər bir ziyarətçi bu hekayənin bir parçası olur.

*Nurəngiz ADİLQIZI*
*XQ*

# Zamanın coğrafiyası

***(əvvəli qəzetin 5 və 6 dekabr tarixli saylarında)***

Robin Levin yazır ki, nizamlılıq, dəqiqlik və sistemlilik gənclər üçün vacibdir və bunu təməl prinsiplər kimi qəbul etmək zəruridir. Bu prinsiplərin orta məktəbdə örnək olması üçün saat qədər təsirli vasitə yoxdur. Doğru təsbitdir, nə qədər çətin olsa da, uşaqlara, yeniyetmələrə və gənclərə öyrətmək lazımdır ki, dəqiqlik və zamanı planlaşdırma bacarığı gələcək uğurların ilkin pillələridir. Qərb dünyası məhz bu özəlliyi sayəsində həyatın bütün sahələrində tərəqqiyə doğru sıçrayış etməyi bacarmışdı.

Biz həyatda eyni mənzərəni görməkdən, eyni sözləri eşitməkdən, hətta eyni qidaları qəbul etməkdən bezirik. Ona görə də yeknəsək olmayan, müxtəlifliyi təmin edən işləri, prosesləri dəstəkləyirik. R.Levin bu məqamla bağlı yazır ki, çeşid nə qədər çoxdursa, zaman da o qədər sürətli axırmış kimi görünür. Çeşid çatışmazlığı, tam mənası ilə saatın psixoloji yavaşlaması anlamına gələn can sıxıntısının ana ünsürüdür.

Ancaq Anglo-Amerika mədəniyyətinin müxtəlifliyə dair standartları, fəaliyyətlərdə olduğu kimi, hər yerdə yayılmaqdan uzaqdır. İngilis-Amerika mədəniyyəti modadan əyləncəyə, insanların yaşamağı seçdiyi evlərdən şəhərlərə qədər hər şeydə sürətli və davamlı dəyişikliklərdən asılıdır. Bununla birlikdə, dünyadakı insanların çoxu fürsətlər imkan verərsə, harada yaşayacağını, nə edəcəyini və ömrünün sonuna qədər nə yeyəcəyini dəqiq bilir.

Zaman həm də böyük diktatordur. Sənayeləşmiş cəmiyyətlərdə saatla yaşamaq mütləqdir. R.Levin yazır ki, müasir cəmiyyətdə saatın neçə olduğunu bilməmək sosial bacarıqsızlıq kimi qiymətləndirilə bilər. Buna görə də insanlar zamanın hökmündən qaçmağa çalışırlar. Ancaq sonda saat əqrəbləri istehsal və inkişafı nəzarət altına alaraq, qarşımıza yenilməz fakt kimi çıxır. İlk baxışda qaçmaq mümkün olmayan bu taleyimizi fizik Alan Laytman İtaliyadakı xəyali qəsəbəni təsvir edərkən yaxşı izah etmişdi: İtaliyanın kiçik bir qəsəbəsində ilk mexaniki saat inşa edilmişdi. İnsanlar bundan ovsunlanmışdılar. Amma sonra dəhşətə gəlmişdilər. Çünki qəsəbədə qarşılarında zamanın keçişini miqdar olaraq müəyyənləşdirən, arzuların müddətini cədvələ və pərgara dayayan, həyatın bütün anlarını ölçən insan icadı vardı. Sehrli idi, dayanılmazdı, təbii ki, yaşamın xaricində idi. Yenə də saatı gözardına almaq mümkün olmurdu. Ona boyun əymək lazım gəlirdi.

Sənaye inqilabı bəşəriyyətin təkcə siyasi və iqtisadi mənzərəsini dəyişdirmədi. O həm də insanı zamana münasibətini dəyişdirməyə məcbur etdi. XIX əsrdə bütün dünyada fərqli təqvim və



zaman bölümləri vardı. R.Levin kitabında təkcə ABŞ-da təqribən 70 fərqli zaman bölümünün olduğunu yazır. Bu fərqliliyi və qarışıqlığı sənaye inqilabı dəyişdirdi. Yeni texnologiyalar indiyədək xəyal olunmayan tənzimləmə və ardıcıllığı tələb edirdi. Saat ana səhnəyə çıxdı. 1880-ci ildə zaman bölümlərinin sayı təqribən 50-ə düşdü və elm adamları zaman standartlarının tamamilə koordinasiya oluna bilməsi üçün həyata keçiriləcək tətbiqlər barədə mübahisə etməyə başladılar.

Zamana hücumlar ədəbiyyat sahəsindən də gəlirdi. R.Levin yazır ki, ən anlamlı hücumları da qələm ustadları edirdilər. Məsələn, Kurt Vonnequt "Sallaqxana N5" kitabında belə yazır: "Zaman keçmək bilmirdi. Biri saatlarla oynayırdı, üstəlik, elektrikli saatla deyil, mexaniki olanlarla. Saatımın ikinci əqrəbi bir dəfə tərpənəndə bir il keçəcəkdi və sonra yenə tərpənəcəkdi. Mənim bu məsələdə edəcəyim heç nə yoxdu. Bu dünyanın sakini olaraq saatların və təqvimlərin nə dediyinə inanmaq məcburiyyətində idim.

Hirsin digər hədəfi isə zamanın itirilməsi idi. Müəllif yazır ki, standart zamanın icadından sonra 1884-cü ildə amerikalı yazıçı, Mark Tvenin dostu Çarlz Dadli Uorner saatla yaşanan zamanın dəyişməzliyinə belə etiraz edirdi: "Zamanın sabit periodlara bölünməsi fərdi azadlığın istilasıdır, temperament və duyğularda fərqliliklərin formalaşmasına izn verməz".

Amerikalı sosial filosof, iqtisadçı, ictimai xadim və yazıçı Ceremi Rifkin kimi tənqidçilər də kömpüter çağının zamanın tabutuna son mismarları da vurduğuna inanırlar: "Kompüter dünyasındakı hadisələr əsla qəbul edə bilməyəcəyimiz zaman sahəsindədir". Bununla belə, C.Rifkin "Homo sapiens"i "zamandan asılı" yeganə varlıq kimi xarakterizə edir.

***(ardı var)***

*Səbuhi MƏMMƏDOV*
*XQ*

## HAVA

# Düzdə–yağış, dağda–qar...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakının və Abşeron yarımadasının bəzi yerlərində arabir yağış yağacağı gözlənilir.**

Axşam ayrı-ayrı yerlərdə yağışın leysan xarakterli olacağı ehtimalı var. Gündüz yağıntıda qısa müddətə fasilə olacaq. Mülayim şimal, şimal-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 7-10, gündüz 10-13 dərəcə isti olacaq. Atmosfer təzyiqi 765 millimetr civə sütunundan, 768 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət 80-85 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarının bəzi yerlərində havanın arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə



yağıntının leysan xarakterli intensiv olacağı, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Arabir güclənən şərq küləyi əsəcək. Havanın temperaturu nun gecə 2-6, gündüz 9-13 dərəcə isti, dağlarda gecə 0-5 dərəcə şaxta, gündüz 0-5 dərəcə isti olacağı ehtimal edilir.

*XQ*

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3589
SİFARİŞ 2328
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mehparə ƏLİYEVA
Çapa imzalanmışdır 00:00